www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 iyul 2015-ci il Cümə № 149 (6177) Qiymәti 40 qәpik

**Xəbər**

## Ağdamda 17 yaşlı qız özünü asdı

yazısı səh.15-də

**Gündəm**

### Əli Kərimlinin müavininin qəfil gedişinin daha bir sirri



Əbülfəz Qurbanlı hansı siyasi məhbusa görə Ali Məclis sədri ilə üz-üzə gəlib? **Ağaşirin Tanrıverdioğlu:** "O, Əlinin yelkənsiz gəmisində batmaq istəmədi..."

yazısı səh.4-də

### 12 siyasi partiyanın dövlət qeydiyyatı ləğv oluna bilər

yazısı səh.10-da

### WikiLeaks Azərbaycanla bağlı məxfi yazışmaları ələ keçirib

yazısı səh.5-də

*Əvəz Zeynallı:*

### ""Sədərək"də üsyan yetişir"

yazısı səh.13-də

### Seçkilər öncəsi mitinqlər olacaqmı?

yazısı səh.10-da

### "Parabank"dakı 40 milyon "qara para" haqda yeni məlumatlar

yazısı səh.13-də

### Rus milyonçunun arvadı Qarabağda moda evi açır

yazısı səh.4-də

### Efirimizdəki üzqaraldan qalmaqallar...

yazısı səh.12-də

### İngilis səfirliyi Saakyanın səfərinə aydınlıq gətirdi

yazısı səh.5-də

### Neftin qiyməti ilə bağlı növbəti bədbin proqnoz

yazısı səh.5-də

### Qida zəhərlənmələri niyə artıb?

yazısı səh.11-də

**Ramazan ayının 23-cü günü**

İftar 21.29 İmsaq (azan) 4.51 (QMI)

23-cü günün duası: "İlahi, bu gün mənim günahlarımı təmizləyib, çirkin və eyibli işlərdən pak et! Qəlbimi belə bir gündə qəlblərə aid olan təqva ilə imtahan et! Ey, günahkarların tövbəsini Qəbul Edən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Prezidentin İtaliyaya səfərinin pərdəarxası

# PUTİNİN "TÜRK AXINI" DURDURULDU, BAKI ÖNƏ ÇIXDI...

"Qazprom" şirkəti qaz kəmərinin ilk qolunun inşasına dair müqaviləni ləğv etdi, Türkiyədən "Rusiya ilə hər hansı bir nəticə əldə olunmayıb" bəyanatı verildi; Kreml bu məğlubiyyətdən çox qəzəblənəcək və Qarabağda vəziyyəti daha da gərginləşdirə bilər; Azərbaycan prezidenti TAP-ın strateji ölkəsinə niyə gedib?




yazısı səh.9-da

## Ziya Məmmədovun "lobbist" oğlunun fiaskosu

ABŞ-ın 16 senatorunun prezident İlham Əliyevə sərt tonda məktubu ən çox Anar Məmmədovun ayağına yazılmalıdır; Amerikada iqtidarın lobbiçiliyi üçün fantastik paralar xərcləmiş gənc oliqarxdan hesab sorulacaqmı?

yazısı səh.7-də



### Eldar Namazov Azərbaycanı tərk etdi

yazısı səh.6-da



### ASAN Xidmət sədrinin müavininin işdən çıxarılmasında Aslan Aslanov "izi"

yazısı səh.8-də



### "Üsyançı səfir" "Yeni Müsavat"a danışdı

yazısı səh.6-da

10 iyul 2015




## Erməni deputatlar ATƏT PA-da məğlub oldular

### Azay Quliyevin hazırladığı qətnamə yenidən qəbul olundu

**ATƏT-in Parlament Assambleyasının iyulun 7-də Helsinkidə keçirilən yay sessiyasında Milli Məclisin deputatı, Assambleyanın Siyasi məsələlər və təhlükəsizlik komitəsinin sədr müavini Azay Quliyevin hazırladığı "ATƏT regionunda dövlətlərarası münasibətlərdə Helsinki prinsiplərinə sadiqlik" adlı qətnamə qəbul edildikdən sonra iyulun 8-də Ermənistan nümayəndə heyəti aranı qatmağa cəhd edib.**

«Trend»in əldə etdiyi məlumata görə, ATƏT PA-nın rəsmi saytı ilə yayımlanan iclasda yenidən azərbaycanlı millət vəkilinin hazırladığı qətnamə diqqətə gətirilib və bildirilib ki, dünənki iclasda qətnaməyə dəyişikliklə bağlı bir təklif yaddan çıxaraq səsləndirilməyib. Bu təklif Büro Katibliyi tərəfindən dəstəklənib və qətnamə yenidən müzakirəyə çıxarılıb. Qeyd edək ki, belə bir hal ATƏT PA tarixində ilk dəfə yaşanır.

A.Quliyev verilən təklifi çəkinmədən müzakirəyə çıxarıb və qətnamə bir daha səsə qoyulub, əvvəlki səsvermədən fərqli olaraq bu dəfə daha çox deputatın səsini qazanaraq qəbul edilib. Ən qəribəsi budur ki, Ermənistanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Artaşes Geqamyan özü də qətnamənin lehinə səs verib.

Qətnamənin qəbul olunacağından ciddi narahat olan A.Geqamyan qətnaməyə dəyişiklik edilməsi ilə bağlı yersiz təkliflərlə çıxış etsə də, bu təkliflərin heç biri iclasın ilk günündə avropalı deputatlar tərəfindən qəbul edilməmişdi.

ATƏT PA-nın ötən sessiyasından sonra erməni mətbuatı A.Geqamyanı savadsızlıqda, diplomatik bacarıqsızlıqda, Azərbaycan tərəfinə daim məğlub olmaqda qınamışdı. İndi erməni deputatı Ermənistanda nələrin gözlədiyini anlamaq çətin deyil.

Xatırladaq ki, qətnamədə Azərbaycan, Gürcüstan, Moldova və Ukraynada mövcud olan münaqişələrin yalnız beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə də həmin dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinin vacibliyi vurğulanır. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsinin, münaqişələr nəticəsində məcburi köçkün düşmüş insanların doğma yurdlarına qeyd-şərtsiz qaytarılmalarının zəruriliyi qeyd edilir. 19 maddədən ibarət qətnamədə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipləri dəstəklənir.

## Mərkəzi Bankın beynəlxalq ehtiyatları 60 faiz azalıb

**10 ayda Azərbaycan Mərkəzi Bankının beynəlxalq ehtiyatları 60% azalıb. Mayın 15-i üçün ehtiyatlar $10581,54 milyon olub. 2014-cü ilin avqustunda pik zamanı bu göstərici $17782,94 milyon idi. Bu məsələdə 21 fevraldakı devalvasiya həlledici rol oynayıb. 15 yanvardan 15 fevrala kimi ehtiyatlar $1,7 milyard azalıb. Ondan sonra mayın ortası ilə müqayisədə BVE 29% və ya $2,8 bilyard azalıb.**

Dövlətin beynəlxalq ehtiyatlarına tədiyə balansının kəsirinin maliyyələşməsi, valyutanın mübadilə məzənnəsini tənzimləmək üçün lazım olan xarici aktivlər daxildir. Ehtiyat aktivləri xarici valyutada və real mövcud olmalıdır. Yalnız yüksək keyfiyyətli aktivlər beynəlxalq ehtiyatlar sayılır.

Bakıda maşınları qəsdən yandıran keçmiş məhbus imiş...

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Almaniya Ermənistanı "işğalçı" adlandırdı

**Almaniya hökuməti Azərbaycanın işğal altında olan rayonları ilə bağlı növbəti dəfə mövqe nümayiş etdirib.**



Belə ki, Federal hökumətin dünyada hüquq müdaifiəsi sahəsində fəaliyyəti ilə bağlı 11-ci hesabatında deyilir: "Ermənistan 1994-cü ildə atəşkəs əldə edilən gündən işğal altında saxladığı, beynəlxalq hüquqa görə Azərbaycana məxsus ərazilərdə, o cümlədən Dağlıq Qarabağda insan haqlarının durumuna görə məsuliyyət daşıyır. Yüzlərlə azərbaycanlı məcburi köçkün bu rayonlara qayıda bilmir".

Hesabatdakı aydın və dəqiq ifadələr göstərir ki, Almaniya XİN-i Ermənistan tərəfinin "Qarabağ dövləti" barədə mifə inanmır. Berlində gözəl anlayırlar ki, işğal altında olan ərazilərdə insan haqları vəziyyətinə görə məsuliyyəti qondarma rejim deyil, Ermənistan daşıyır.

Almaniyanın Ermənistanı açıq şəkildə işğalçı adlandırması Ermənistanın münaqişədəki mövqeyinə ağır zərbədir.

Xatırladaq ki, ötən ilin payızında Almaniya hökuməti parlamentdəki fraksiyalardan birinin sorğusuna cavab olaraq qondarma DQR ordusunun özünü təmin edə bilməsi ilə bağlı iddiaları da təkzib edib. (azadlıq.info)



## Bakıda avtomobilləri qəsdən yandıran şəxs saxlanılıb

**Virtualaz.org Daxili İşlər Nazirliyinin (DİN) saytına istinadən bildirir ki, DİN-in Baş Cinayət Axtarışı İdarəsi, Bakı Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi və Suraxanı Rayon Polis İdarəsinin 32-ci bölməsinin əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 3-də Qaraçuxur qəsəbəsində Malik Əliyevə, Oqtay İzətullayevə, Leyla Kərimovaya və "Socar Cape" şirkətinə məxsus avtomobilləri qəsdən yandıran Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Fuad Xuduşov tutulub.**

Faktla bağlı araşdırma aparılır.

## Komitə sədri yeganə oğlunu əsgər göndərdi

**Azərbaycanın Diaspora ilə İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun oğlu Elnur İbrahimov Silahlı Qüvvələrdə hərbi xidmətə yollanıb.**

Lent.az-ın məlumatına görə, Elnur İbrahimov ötən gün hərbi xidmətə yollanıb və "N" saylı hərbi hissədə sıravi əsgər kimi xidmətini aparacaq.

1989-cu il, yanvarın 23-də Naxçıvanda doğulan Elnur İbrahimov Londonda ali təhsil alıb. Bu il təhsilini başa vuraraq hərbi çağırış vərəqəsi əsasında xidməti borcunu yerinə yetirməyə yollanıb.

Qeyd edək ki, E.İbrahimov Nazim İbrahimovun yeganə oğludur.

## İtalyan şirkəti TAP-dan pay alır




**Azərbaycan tərəfi İtaliyanın "Snam S.p.A." Qaz İnfrastruktur Qrupunun Trans-Adriatik Təbii Qaz Boru Xəttində (TAP) pay sahibi olmasına etiraz etmir. Oxu.Az «Reuters» agentliyinə istinadla xəbər verir ki, bu barədə Azərbaycan prezidenti İlham Əliyev Milan Expo beynəlxalq sərgisi çərçivəsində bəyan edib.**

"Niyə də yox? Əgər kimsə öz payını digər şirkətlərə satmaq istəyirsə, mən burada heç bir problem görmürəm", - dövlət başçısı "Snam S.p.A." qrupunun TAP-da mümkün investisiyalarını şərh edərkən deyib.

İlham Əliyev təsdiq edib ki, TAP layihəsinin tikintisi 2020-ci ildə başa çatacaq.

"Snam S.p.A." qrupunun baş direktoru iyun ayında "Reuters" agentliyinə verdiyi müsahibəsində deyib ki, şirkət TAP-da 20% səhm almağa hazırdır.

TAP-ın hazırkı səhmdarları BP (20%), SOCAR (20%0), Norveçin Statoil şirkəti (20%), Belçikanın Fluxys (19%), İspaniyanın Enagas şirkəti (16%) və İsveçrənin Axpo şirkətidir (5%).

## Naxçıvanlı keçmiş deputat öldürüldü



**Ukraynanın Luqansk vilayətində keçmiş azərbaycanlı deputat öldürülüb. Luqansk vilayəti Azərbaycanlıları Konqresindən APA-ya verilən məlumata görə, Naxçıvanda doğulan və Ukrayna vətəndaşı olan 60 yaşlı Əli Məhərrəmovun maşını ötən həftə Krasnıy Luç şəhəri yaxınlığında qumbaraatanla atəşə tutulub.**

Maşın yandığından meyit tanınmaz hala düşüb.

Uzun müddətdir, Ukraynada yaşayan Əli Məhərrəmov Krasniy Luç ətrafında - yaşadığı kənddə dəfn edilib.

Əli Məhərrəmov 90-cı illərin əvvəllərində bir müddətə Luqansk Vilayət Şurasının deputatı olub.

## Ermənilər Tərtər sakininin maşınını atəşə tutdu

**Ermənistan ordusu Tərtərin Qapanlı kəndini atəşə tutub. "Report" xəbər verir ki, ermənilərin atdığı güllələr təmas xəttinə yaxın yerləşən evlərə dəyib. İri çaplı silahlardan atılan güllələrdən bir neçəsi kənd sakini Mübariz Həsənova məxsus "VAZ -2106" markalı avtomobilə dəyib. Hadisə zamanı xəsarət alan olmasa da, avtomobilə ciddi ziyan dəyib.**

Qeyd edək ki, qarşı tərəf cavab atəşi ilə susdurulub.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

## Sabiq müdafiə naziri barəsində həbs qərarı verildi

**Tiflis Şəhər Məhkəməsi qiyabi olaraq Gürcüstanın sabiq müdafiə naziri David Kezeraşvilinin hədə-qorxu yolu ilə əmlak tələb etmə ittihamı üzrə ehtiyat tədbiri qismində 9 ay ərzində həbs edilməsi barədə qərar verib.**

«Trend»in «RİA Novosti»yə istinadən verdiyi məlumata əsasən, bu barədə "Rustavi 2" teleşirkəti xəbər yayıb.

Məlumatda deyilir ki, müdafiə tərəfi yaxın zamanda məhkəmə qərarından şikayət vermək niyyətindədir.

## Bakıda manyak həbs edildi

**Paytaxtda seksual manyak həbs edilib. Movqe.az-ın hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, xeyli müddətdir ki, 13 yaşlı qızını və həyətdəki ev heyvanlarını zorlayan Babək rayon Nehrəm kənd sakini, Sabunçu rayonu Bakıxanov qəsəbəsində yaşayan Mirzəliyev Malik Cəfər oğlu Sabunçu rayon 12 saylı polis bölməsinin əməkdaşları tərəfindən həbs olunub.**

## Lavrov Krım məsələsini qapayıb

**"Krım məsələsi qapanıb". Rusiyanın xarici işlər naziri Sergey Lavrov iyulun 9-da BRİKS çərçivəsində keçirdiyi brifinqdə belə deyib.**

Onun sözlərinə görə, Braziliya, Çin, Cənubi Afrika Respublikası, Hindistanın təmsil olunduğu BRİKS Krımın Rusiyanın tərkibinə qaytarılması üçün keçirilən referendumun nəticələrinə şübhə etmir.

Rusiya xarici siyasət idarəsinin rəhbəri deyib ki, zirvə görüşünün yekun sənədində bu mövqe əks olunacaq: "Bundan başqa, sənəddə Rusiyanın Minsk razılaşmasının şərtlərinə tam əməl edilməsi ilə bağlı mövqeyi də yer alacaq. Düşünürəm ki, hər kəs Krım məsələsinin qapandığını anlayır. Bu məsələni Rusiya Federasiyasının tərkibinə keçmək qərarı verən Krım xalqı bağlayıb".

Bəlli olduğu kimi, BMT Baş Assambleyası Rusiyanın Krımı ilhaq etməsi və Ukraynanın ərazi bütövlüyünü dəstəklənməsi haqqında qətnamə qəbul edəndə Çin, Hindistan, Cənubi Afrika Respublikası, Braziliya sənədi imzalamamışdı.

Bununla yanaşı, Çin BMT Təhlükəsizlik Şurasının toplantılarında davamlı olaraq, problemin Ukraynanın ərazi bütövlüyü prinsipləri çərçivəsində nizamlanmasına tərəfdar olduğunu bildirib.

**Rusiyalı milyarder German Sterliqov ailəsi ilə birgə qeyri-qanuni şəkildə 23 ildir erməni işğalında olan, Azərbaycanın ayrılmaz hissəsi Şuşa şəhərinə köçüb və həyasızcasına burada yaşayacağını bəyan edib. Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının sədri Bayram Səfərovla elə Şuşa İcra Hakimiyyətində baş tutan söhbətimizi də öncə bu mövzudan başladıq.**

***- Bayram müəllim, rus milyarderin səsi Şuşadan gəlir. Hətta burada biznes quracağını da deyib. Bir şuşalı olaraq narahatlığınız yoxdur ki, bu, bir presedent yarada, üstəlik, ermənilər Qarabağdakı rus faktorundan istifadə edə bilər?***

- Mən çox narahatam. Belə şeyləri hər dəfə eşitdikcə də narahatlığım artır. Ancaq həmin rus milyarder kənd təsərrüfatı ilə məşğul olmaq istəyirsə, Rusiyanın kifayət qədər ərazisi var, işləyən isə yoxdur. Orta Asiyadan, Çindən, Vyetnamdan gəlib işləyirlər. O, belə işgüzardırsa, gedib ölkəsində çalışsın. İkinci tərəfdən, mən deyilənlərin həqiqət olduğuna inanmıram. Çünki erməni tərəfi hər dəfə yeni təxribat xarakterli xəbərlər yayır, addımlar atır. Amma onların cəhdlərinin heç biri nəticə vermir. Azərbaycanla müqayisədə ermənilər quyunun lap dibindədir.

***- Ancaq fakt budur ki, rus milyarder Şuşadan çağırış edir, orada yaşayacağını açıqlayır...***

- Mən hələ buna tam inanmıram. Amma ola da bilər. Şuşa dünyanın ən gözəl məkanlarından bəlkə də birincisidir. İndi iyul ayıdır, Şuşanın ən gözəl çağıdır. Ola bilər erməni o rusla iki qədəh çaxır içib, həmin milyarder də belə bir vəd verib. Amma inanmıram ki, rus gedib erməninin işində yaşaya bilsin. Çünki mən o erməniləri tanıyıram. O ermənilər əgər bizə naxələf olublarsa, bizim çörəyimizi yeyib, sonra bizə təpik atıblarsa, düşmənçilik ediblərsə, həmin hərəkəti rusa qarşı da edəcəklər.

Ancaq bu da danılmazdır ki, dünyada ikili standartlar, ədalətsizlik var. Bütün ədalətsizliklərə baxmayaraq, Azərbaycan çiçəklənir, iqtisadiyyatımız inkişaf edir. Elə bu yaxınlarda yüksək səviyyədə keçirilən Avropa Oyunları da dünyanı heyrətə saldı. Görün bu yarışlar nə qədər sakit, rahat şəkildə keçdi. Xaricdən gələnlərin hamısı Azərbaycandan razı getdi, ölkəmizi, xalqımızı yüksək qiymətləndirdi. Ancaq bunu erməni haqqında deyirlərmi?

***- Dünyanın mövqeyinin neçəliyindən asılı olmayaraq, nə Rusiya, nə də Ermənistan Qarabağa münasibətdə ənənəvi münasibətini dəyişir. Belə olanda, sizcə, çıxış yolu nədir?***

- Bəli, dünyanın münasibəti fərqlidir. Çünki ortada xristian təəssübkeşliyi var. Lakin düşünürəm ki, ədalət zəfər çalacaq, Azərbaycan ordusu sözünü deyəcək. Son vaxtlar ermənilər dəfələrlə cəbhədə pozuculuq hərəkətlərinə əl atıblar və dərslərini də alıblar. Təkcə son günlərdə 3 pilotsuz aparat vurulub, ötən il helikopterləri məhv edildi, onlar bizim sərhədlərimizə icazəsiz müdaxilə edəndə dərhal yerlərinə oturdulub. Bizim ordumuz torpaqlarımızı işğaldan azad etməyə hazırdır. Ən yaxşı hal budur ki, Azərbaycan gəncliyi müasir silah və texnikanı yüksək səviyyədə idarə edə bilir.

***- Bayaq dediniz ki, erməniləri tanıyırsınız. Bu gün separatçıların başında duranlar, yaxud Ermənistana rəhbərlik edənləri də tanımamış olmazsınız. Onlar haqqında nə deyə bilərsiniz?***

- Qarabağ separatçıları cavandırlar, tanışlığım olmayıb. Onların içində tanınan kimsə olmayıb. Ancaq Köçəryan və Sərkisyanla eyni vaxta işləmişik. Lakin onlar elə də böyük fiqurlar olmayıb. Qarabağ hadisələri qızışdırılanda rusların himayəsi ilə onlar önə çıxarılıb.

***- O vaxt onlardan azərbaycanlılara qarşı münasibəti sezirdinizmi? Heç olubmu ki, dalaşıbsınız?***

- Millətçilikləri var idi. Ancaq aramızda erməni-müsəlman davası olmayıb. Uşaq vaxtı, ya məktəbdə nələrsə olub, dalaşmışıq. Ancaq böyüyəndən sonra nə dalaşmamışıq, nə də onlar çox da cürətli olmayıblar ki, mənimlə üz-üzə gəlsinlər, ya mənə qarşı mənfi fikirdə olsunlar.

***- Köçəryanla Sərkisyanı sonuncu dəfə nə vaxt şəxsən görübsünüz?***

- Dağlıq Qarabağ Muxtar Vilayətinin olduğu dövrdə mən Xankəndinə gedib-gəlmişəm. O zaman Şuşa Rayon İstehlak Cəmiyyətinin İdarə Heyətinin sədri, "Azərittifaqı"ın İdarə Heyətinin üzvü idim. Ona görə Dağlıq Qarabağdakı bütün Azərbaycan kəndlərinin təminatına mən rəhbərlik etmişəm. Köçəryan da kombinatda işləyib, komsomolda çalışıblar, amma elə böyük fiqurlar olmayıb. Onlarla şəxsi salamım, oturub-durmağım olmayıb. Uzaqdan-uzağa görmüşəm. Görməyə bilməzdik bir-birimizi, Şuşa da, Xankəndi də balaca şəhər idi.

***- Bu gün Ermənistanda Qarabağ ermənilərinə, hakimiyyətdəki qarabağlılara qarşı kəskin münasibət formalaşıb. Bu situasiya nəyə gətirib çıxara bilər?***

- Ermənistan ermənilərinin Qarabağ erməni ilə qarşıdurması günün məsələsi deyil. Mən 1971-73-cü illərdə Ukraynada, Karpat dağlarında orduda xidmət etmişəm. Mən orda Ermənistan ermənisinin Qarabağ ermənisinə münasibətini görmüşəm. Ermənistan ermənisi səhər yeməyində Qarabağ ermənisinə verilən yağı onun əlindən alırdı. Martuni rayonundan Sərkis var idi. Mən həmin İrəvan ermənisini yerində oturtdum, Sərkisi çağırdım ki, "gəl, otur mən oturan masada, yağ payını ye". Ermənistan erməniləri Qarabağ ermənilərinə axırıncı "sort" kimi baxırdılar. İndi bilirik ki, onlar kimlərin sayəsində hakimiyyəti ələ keçirib. Ancaq hər şeyin başlanğıcı olan kimi sonu da var. Bu gün istər Ermənistan, istər onu müdafiə edən dövlətlər ki, var, onlar Azərbaycanın, onun xalqının başqa fikirdə olduğunu anlamalıdır. Diqqət etmisinizsə, Avropa Oyunlarında Ukraynadan olan erməni millətindən olan güləşçiyə medal təqdimetmə mərasimində uğultu oldu, möhtərəm prezidentimiz əlini qaldırıb camaatı sakitləşdirdi. Minlərlə insan əsgərsayağı bir işarə ilə sakitləşdi. Bu, Azərbaycan xalqının birliyini, xalqın möhtərəm prezidentə inamının və prezidentin əhali ilə bir yerdə olmasının nümayişi idi. Dünya da bütün bunları gördü.

***- Avropa Oyunlarından sonra Qarabağ savaşının başlanacağı barədə silsilə xəbərlər yayıldı və hələ də ajiotaj qalmaqdadır. Siz savaş zamanının yetişdiyi qənaətindəsinizmi?***

- Möhtərəm prezidentimiz heç vaxt müharibəyə başlamaq istəməyib. Düzü, mən də istəmirəm ki, müharibə olsun. Biz o zaman müharibəyə hazır deyildik. 366-cı alayın köməyi ilə ermənilərin təcavüzü nəticəsində bizim itkilərimiz çox oldu. Mən doğmalarını itirən insanları şəxsən görmüşəm. Bu nöqteyi-nəzərdən mən də istəmirəm savaş olsun, sülh yolu daha yaxşıdır. Amma möhtərəm prezidentimizin dediyi kimi, bu, bizim son mövqeyimiz deyil. Ona görə mən də Ali Baş Komandanımızın apardığı siyasətlə razıyam və nə vaxt əmr edəcəksə, mən də bir Azərbaycan əsgəri kimi o döyüşdə can-başla iştirak edəcəyəm.

***- Bu isti yay zamanında yəqin cənnət Şuşa üçün daha çox darıxırsınız. Vaxtaşırı Şuşadan, Qarabağın digər yerlərindən çəkilmiş şəkillər, videolar yayılır ki, ermənilər orda kef çəkirlər...***

- Mən bir gün də Şuşanı unutmuram. Mən 40 il erməni ilə birgə yaşamışam. Qonşumuz olub, yoldaşlıq, dostluq etmişik, birgə çörək yemişik, bunu danmaq olmaz. İstər Şuşada, istər Xankəndində, istər Bakıda.

***- Bu hadisələrdən sonra onlarla təmaslarınız olubmu, yoxsa bütün əlaqələr kəsilib?***

- Təmas yoxdur. Heç xaricdə də rastlaşmamışam. Amma mənə salam-dua yollayan olub. Hətta mən icra başçısı təyin olunanda zəng edib məni təbrik edənlər olub. (gülür)



***- Kim?***

- Şuşalı ermənilər. Rusiyada yaşayanlar. Hardansa telefonumu tapıb. Amma bu, çoxdan olub. Biz hamımız bir-birimizi tanımışıq, birgə xeyir-şərimiz olub, biz getmişik, onlar gəlib.

***- Qız alıb, qız verməkdə necə?***

- Bu, Oktyabr inqilabının, sovet rejiminin "bəhrəsi" olub. Uşaq vaxtı bizə də "Ermənistan, Azərbaycan, Gürcüstan qardaşdır" məzmunlu şeirlər öyrədirdilər. Biz bütün SSRİ xalqlarını qardaş sayırdıq. Nə bilək ki, bunlar belə tərbiyəsiz çıxacaq... Şəxsən mənim valideynlərim bizi erməniyə düşmənçilik ruhunda tərbiyələndirməyib. Amma deyək ki, biri erməni ilə ailə qurub, 50 il yaşayıb, övladları var, bundan sonra nə etsin? Bununla belə inanmıram ki, Özü də bunu erməni xalqı özü etməlidir, bu xalq özünə lider seçməlidir. Düşünsünlər ki, 20 ildən artıq müddətdə nə qazanıblar. Elə bilirsiniz Dağlıq Qarabağda erməni çoxdur, ona görə rus milyarder ora köçüb? Şuşada, Dağlıq Qarabağda nə qədər erməni var ki?

***- Nə qədərdir, sizdə dəqiq rəqəm varmı?***

- Bütün Dağlıq Qarabağda, Laçın, Kəlbəcərdə olsa-olsa sınıq-salxaq, qoca 30 min erməni qalıb. Erməni ailələrində o zamanlar da 1-2 uşaq olardı. Təsadüfi hallarda artıq uşaq saxlardılar. İndi bir uşağı olan erməni anlayır ki, bir gün Azərbaycan torpağını azad etmək qərarı verəcək. O, Qarabağ uğrunda tək oğlunu qurban verəcək? Bu, ona lazımdırmı? Ona görə də ağlı kəsən, bacarığı, imkanı olan ermənilərin hamısı Qarabağdan çıxıb, Rusiya, Avropa, Amerikaya qaçıb. Deyirlər ki, ermənilər Qarabağda tikinti apardı, nə bilim daha nə... Onların bütün apardığı tikintilərin qiyməti bizim bir keçid tunelimizin əvəzi deyil. Görün Azərbaycanda nə qədər işlər görülüb.

# "Zəhəri çıxartmaq üçün bir yol var..."

## **Bayram Səfərov:** "Ermənilərin Qarabağda apardığı bütün tikintilərin qiyməti bizim bir tunelimizin əvəzi deyil"



**"İcra başçısı təyin olunanda ermənilərdən zəng edib təbrik edənlər olub"**

bu, dövlətə, millətə qarşı təhlükə yarada bilər. O vaxt erməniliyi götürən keçdi Ermənistana, Azərbaycanı seçən burda qaldı, özünü tam müdafiə etmək istəyən isə Rusiyaya getdi. İndi deyirlər ki, Bakıda 30 min erməni var, amma mən də dəqiq bilmirəm. O adamların heç bir təhlükəsi ola bilməz. Çünki hər birisinin övladları, nəvələri var.

***- Bakıdakı on minlərlə ermənini bir araya gətirib bir böyük toplantı keçirmək, Qarabağ ermənilərinə müraciət etmələrini təşkil etmək mümkün deyilmi?***

- Bu, çox çətin məsələdir. İkincisi də bu gün Qarabağda yaşayan gənc nəsil azərbaycanlılarla birgə yaşamayıb axı. Azərbaycanın dadını-tamını o vaxt orda yaşayanlar bilir. Qarabağdakı gənclərin beyni zəhərlənib.

***- O zəhəri necə çıxartmaq olar?***

- Zəhəri çıxartmaq üçün bir yol var, necə ki, bunun üçün ilanın başını əzirlər. Yeganə yol budur.

***- Bayram müəllim, Şuşa Şəhər İcra Hakimiyyəti Bakıda yox, Şuşaya yaxın məsafədə, Qarabağ bölgəsində olsaydı, daha yaxşı olmazdımı?***

- Şuşanın 31 mindən artıq əhalisi var. Bu əhalinin də 70 faizi Bakıda yaşayır. Hələ rəsmi rəqəmdir, qeyri-rəsmi burada yaşayanlar da var. Ona görə də icra hakimiyyətinin Qarabağ bölgəsində olması bu insanlar üçün sadəcə əziyyət olardı.

***- Qarabağ separatçısı Saakyanın səsi tez-tez xarici ölkələrdən gəlir. Siz niyə getmirsiniz, sözünüzü demirsiniz?***

- Gedirəm, neyə getmirəm ki... Saakyanın dəstəsi dilənməyə gedir. Mən lazım olanda tədbirlərə qatılıram. Məsələn, Şuşa ilə Macarıstanın Döndört şəhəri qardaşlaşma protokolu imzalayıb. *(Sazişi göstərir-E.P.)* Elə o tədbirə qatıldıq. Onlar da bizə qonaq gəlib. Almaniyada tədbirlər keçirmişik. Hökm deyil ki, mən gedim... Amerikada bizim icmanın adından fəaliyyət var, "Xocalıya ədalət" kampaniyası böyük işlər görür, orda əslən şuşalı Adil Bağırov çox işlər aparır, "Qarabağ" Cəmiyyəti fəaliyyət göstərir. Həmçinin 19 dövlətdən 30-dan çox nümayəndə gəldi, "Şuşaya azadlıq" kampaniyası keçirildi. Bütün bu işlərin hamısının yekunu inşallah bizim işğal altındakı torpaqlarımızın azad olunması olacaq, cənab prezidentin dediyi kimi, Şuşa, Xankəndi və digər torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq. Biz o günü gözləməliyik, onun üçün çalışmalıyıq. İnanıram ki, o gün olacaq, özü də yaxın vaxtlarda...

**Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 149 (6177) 10 iyul 2015



# Həkimi "fahişəlik"dən qurtarmaq...

Aygün MURADXANLI

**Birləşmiş Ştatlara bir dəfə gedib, bütün söhbətlərini "mən sonuncu dəfə Amerikada olanda" ilə başlayanların sözü olmasın, mən sonuncu dəfə Latviyada olanda yolum Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə də düşmüşdü.**

İnternet üzərindən idarənin rəhbəri ilə görüşmək istədiyimizi yazdıq və cəmi 1 saat sonra bizə cavab gəldi:"Sabah saat 11-də sədr sizinlə görüşə bilər. İstəyinizdən asılı olaraq, o, sizə 3 saat vaxt ayırmağa hazırdır".

Çox təsirlənmişdim... Nüfuzlu bir dövlət qurumunun rəhbəri xarici ölkədən gələn jurnalistə və QHT rəhbərinə düz 3 saatını verməyə hazır olduğunu deyirdi.

Azərbaycanın yüksək rütbəli məmurlarından kimi, nə zaman gördüyümü yadıma salmaq istədim. Xatırladım ki, axırıncı dəfə keçən il Səlim Müslümovu Alim Qasımovun konsertində görmüşəm.

Görüşün bütün detallarını danışmayacam. Yazı bizim korrupsiya mübarizlərinin əlinə düşər, həmin üsulları ölkədə tətbiq edərlər, həyatını korrupsiya ilə quranların evi yıxılar.

Bircə onu deyim ki, Latviya korrupsiya ilə mübarizə məsələsində Honk-Konq təcrübəsini seçib. Səbəb də odur ki, Honk-Konq 20 ildə korrupsiyanın səviyyəsini 0-a yaxınlaşdırıb.

Latviyada inanırlar ki, korrupsiyanın tamamilə ləğvi üçün 2 nəsil dəyişməlidir - vətəndaş korrupsiya faktı haqqında dövlət qurumuna xəbər verməyi sovetlərdən qalma baxışla kiminsə evini yıxmaq kimi deyil, dövlətini qorumaq kimi dərk edəndə rüşvətin kökü kəsiləcək.

Ona görə də, qanunları sərtləşdirməklə yanaşı, vətəndaşı tərbiyə etməyə başlayıblar. Ən geniş yayılan üsul da TV-lərdə sosial reklamlardır.

Reklamlardan birinin təsirindən uzun müddət çıxa bilmədim. Ekranda qara pərdələrin fonunda fahişəxana görünür. İri planda "mama roza"oturub, pul sayır. İçəriyə bir kişi girir, masaya yaxınlaşır. Gözlər danışır...

Qadın seçim üçün kişiyə albom verir. Kişi albomu vərəqləyir - polis, prokuror, hakim, məmur, müəllim, həkim... şəkilləri görünür. Hərəsi də öz uniformasında...

Kişi əlini prokurorun şəklinin üzərinə qoyur. "Mamaroza" başı ilə "oldu" işarəsi verib, müştəriyə "prokuror"un otağını göstərir.

Qapı açılır, bildiyimiz məmur kabineti görünür. Qatı ənlik-kirşanlı prokuror (kişi) yuxarı başdakı masanın arxasında oturub. Müştərini görüb, ayağa qalxır - kostyumunda sadomazoxist fahişə geyiminin elementləri - dəri bikini, zəncirli dəyənək görünür.

Müştərinin qarşısına keçib, erotik rəqs eləməyə başlayır. Görüntü donur və ekrana iri hərflərlə "korrupsiya məmurların fahişəliyidir" sözləri gəlir.

Bu sosial reklam düz 3 ay parlamentdə müzakirə edilib. Çox sərt olduğu üçün efirə verilməsinə qarşı çıxanlar da az olmayıb.

Prokurorluq orqanlarının rəhbərliyi "nədən sosial çarxın qəhrəmanı polis, həkim yox, məhz prokurordur" - deyərək, etirazını bildirib, prezidentin dəstəyi ilə yayımın qarşısını almağa çalışıb.

Ancaq sonda belə qərara gəlinib ki, rüşvətin mahiyyətini belə sərt və çılpaq formada açmayana, rüşvət alanlar alçaldılmayana qədər ölkədə "Boq kömək olar, tutulmaram" deyib, rüşvət alanlar olacaq.

Reklam 6 ay efirə gedib. 1 il sonra statistika göstərib ki, məmurlar arasında "fahişə" olmaq istəyənlər xeyli azalıb, ölkədə korrupsiyanın həddi düz 24 faiz aşağı düşüb...

2 gün öncə getdiyim poliklinikada həkimin adi bir göndərişi yazmaq üçün gətirdiyi min bir bəhanəni dinləyəndən, qələmini rüşvət gözləyə-gözləyə bir önə, bir arxaya aparmasını seyr edəndən sonra söhbəti hərləyib-fırlayıb, Riqada gördüyüm çarxın üzərinə gətirdim.

Gördüyümü ballandıra-ballandıra "doxtur"a da danışdım. Şilləm tutmuşdu. Elə qızarmışdı ki, bəyaz xalatı gözümə çəhrayı görünürdü...

Arayışı rüşvətsiz aldığıma, bir həkimi "fahişəlik"dən xilas etdiyimə görə sevindim.

Sizdən də rüşvət tələb olunanda bu hekayəni danışın. Mütləq danışın. Reklam çarxlarında deyildiyi kimi - nəticə qarantidə...

# Əli Kərimlinin müavininin qəfil gedişinin daha bir sirri

## Əbülfəz Qurbanlı hansı siyasi məhbusa görə Ali Məclis sədri ilə üz-üzə gəlib, "Azadlıq" qəzeti bu xəbərə niyə yer ayırmadı? **Ağaşirin Tanrıverdioğlu:** "O, Əlinin yelkənsiz gəmisində batmaq istəmədi..."

**Xəbər verildiyi kimi, AXCP sədrinin müavini Əbülfəz Qurbanlı partiyadan istefa verib. Gənc müavinin mətbuata bomba kimi düşən qəfil istefası təsdiqlənəndən sonra əsas maraq doğuran məsələ bu addımın səbəbləridir. Getdikcə səbəblər aydınlaşmağa başlayıb.**



Əbülfəz Qurbanlı

Belə ki, AXCP daxilindən "Yeni Müsavat"a məlum istefa ilə bağlı üç mənbədən məlumat daxil olub. Birinci mənbədə Ə.Qurbanlının istefası ilə bağlı ilginc iddialar var. Belə ki, onun AXCP Ali Məclisinin sədri Həsən Kərimovla davasına görə istefa verdiyi deyilir. Davaya səbəb kimi isə hazırda həbsdə olan AXCP Rəyasət Heyətinin üzvü, "Azadlıq" qəzetinin əməkdaşı Seymur Həzi göstərilib. Bildirilir ki, S.Həziyə həbs olunduqdan sonra "Azadlıq"da aldığı əmək haqqından əlavə partiya tərəfindən müavinət ayrılıb. Qurumun son iclaslarının birində Həsən Kərimov S.Həziyə ayrılan əlavə müavinətə etiraz edərək, kəsilməsini tələb edib. Ə.Qurbanlı buna öz etirazını bildirib. Nəticədə tərəflər arasında ciddi narazılıq yaranıb. Sonda Əli Kərimli Həsən Kərimovu müdafiə edib. Bu isə gənc müavinin qərarını qətiləşdirməyə səbəb olub.

İkinci mənbənin məlumatında da hər iki şəxsin arasında olan dava və Əli Kərimlinin Həsən Kərimovu müdafiə etdiyi faktı təsdiqlənib. Üçüncü mənbənin fikirləri ilə əvvəlki iki mənbənin dedikləri arasında isə fərqli və oxşar cəhətlər var. Doğrudur, hər iki partiya funksioneri arasında olan dava təsdiqlənir. Amma H.Kərimovun gənc müavinə qarşı əlində screenlərin olduğu və həmin screenləri Ə.Kərimliyə verdiyi deyilir. Bundan sonra bütün etimadları itirən gənc müavinin istefaya getməyə məcbur olduğu deyilir. Göründüyü kimi, hər üç mənbə dava faktını təsdiqləyir. Deməli, istefada bu izlər daha inandırıcı görünür.

Qeyd edək ki, Ə.Qurbanlının istefasından sonra "Azadlıq" qəzetinin 30 oktyabr 2014-cü il sayında getmiş "Əbülfəz Qurbanlı izlənilir" başlıqlı yazı diqqəti daha çox cəlb edib. Yazıda Ə.Qurbanlının Milli Şuranın üzvü Eldəniz Quliyevin məhkəməsindən sonra avtomobilinin "Nissan Sani" markalı 90 MH 268 nömrə nişanlı avtomobil tərəfindən izləndiyi qeyd olunurdu. Ə.Qurbanlı da faktı təsdiq etmişdi. Onun izlənilməsi ilə bağlı fikirlərində bu hissəyə diqqət çəkməmək mümkün deyil.

Həmin hissəni təqdim edirik: **"Bu maşın günlərlə 20-ci sahədə bizim evin yaxınlığındakı avtomobil dayanacağında dayanıb gözləyirdi. İçində tanıdığım bir nəfərdən əlavə, iki-üç nəfər olurdu. Mən o zaman Səbayel şöbəsinin sədri Saqif bəylə o maşının niyə günlərlə eyni yerdə dayanması haqda danışdım. Belə xəbər var idi ki, sələfi təriqətinə məxsus şəxsləri izləyirlər.**



Ağaşirin Tanrıverdioğlu

**Cəmi iki-üç gün sonra bizim yaxınlığımızda yaşayan Fərəc Kərimlinin və qardaşının həbsi xəbəri yayıldı. Fərəc Kərimlinin "20-ci sahə" dairəsinə yolu həmin avtodayanacaqdan keçirdi. Bu gün məni izləyən maşın həmin maşındır, əlavə "Hunday" markalı bir maşın da onlarla bərabər hərəkət edir".**

Bu fikirlərdən sonra AXCP sədrinin gənc müavininin hədə-qorxulara görə də istefaya getdiyi ehtimal oluna bilər. Müsavat başqanının müavinini izləyən və sonradan həbs olunmasına səbəb olan avtomobil Ə.Qurbanlını izləsin, lakin proses nəticəsiz qalsın. Səbəb? Demək, burada müəmmalar var. Fərəc Kərimli Müsavatı seçdi, əqidəsinə sona qədər sadiq qaldı və sonluğu hər kəsə məlumdur. Hazırda demir barmaqlıqlar arxasındadır. Həyat elədir ki, insan bəzən qorxularına da satılır. Bu nöqteyi-nəzərdən Ə.Qurbanlının pafoslu çıxışlarında dedikləri, mübarizəsini, əqidədaşlarını qəfil gedişə dəyişməsi bir sıra mətləblərdən xəbər verir. Zaman bütün həqiqətlərin açarıdır. Bu istefanın da səbəbləri çözüləcək.

Ə.Qurbanlının istefasından sonra bir məqam daha çox diqqət çəkib. Belə ki, "Azadlıq" qəzeti və saytı, eləcə də AzadlıqRadiosu istefa ilə bağlı bir xəbər də verməyib. Vaxtilə Müsavatdakı prosesləri maraqla izləyən, xəbərləri tirajlayan, az qala sıravi üzvün facebook statusunu qəzetin manşetinə daşıyan "Azadlıq" nədənsə indi susur. Bütün bunlar "Azadlıq"ın Əli Kərimlinin tribunası olduğunu bir daha təsdiq edir.

"Yeni Müsavat"a boykot elan edən, müsahibə verənləri aşağılayan partiyanın iç üzü burada açılır. Doğru xəbəri isə verməyən bir mətbuat orqanının qəzetçilikdən daha çox siyasi maraqlara, tapşırıqlara əməl etdiyi aydındır.

AXCP-dən çıxarılan və istefa verənlərin bu məsələyə mövqelərini aldıq.

**Əli Kərimlinin müavinlikdən azad etdiyi və sonradan partiyadan istefa verən Razi Nurullayev sualımıza qısa cavab verdi:** "Sadəcə, təəssüfləndiyimi deyə bilərəm. Ümumiyyətlə, AXCP-də baş verənlərə təəssüf edirəm. Mən partiyanın keçmiş üzvü və Azərbaycanda müxalifətin nümayəndəsi kimi, ümumi xalqın maraqlarından çıxış edərək, bu kimi hallara təəssüflənirəm".

**Əli Kərimlinin müşavirlikdən azad etdiyi və partiyadan istefa verən Zərifə Mehdinova sosial şəbəkələrdə vaxtı ilə müdafiə olunmaması ilə bağlı qınaq dolu status paylaşıb:** "Bax onda, o məqamda, mənim haqqım tapdalananda , yersiz şər-böhtana məruz qalanda susdunuz ... Hərçənd ki, haminiz əsl həqiqətin nədən ibarət olduğunu, mənim kimlərin ambisiyasının qurbanı olduğumu bilirdiniz . Amma haqqın yanında ola bilmədiniz. Uzun çəkmədi, vicdanın sızlayır ... bilirəm".

**AXCP-dən çıxarılan sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlu Ə.Qurbanlını dəstəklədiyini bildirdi:** "AXCP-də və digər qurumlarda vurulan qanadlar sonda gəncliyin ətrafında birləşəcək. Bugünlərdə Əbülfəzdən sonra Rəyasət Heyətinin daha bir tanınmış üzvü istefa verəcək. Hamı bu istefadan şoka düşəcək. Sizin qəzetiniz vasitəsilə demişdim ki, bir-iki aydan sonra Əli Kərimliyə sual versələr ki, Rəyasət Heyətinin neçə üzvü var, bilməyəcək. Partiya o vəziyyətdədir ki, insanlar kənardan kömək axtarırlar. Hamı bütün iyrənclikləri görüb. Qurultayda Müsavatın qərargahının zalı da Əli Kərimliyə böyük gələcək. Açıq şəkildə bəyan etmişəm ki, Əbülfəzə dəstək olacam. Əlinin "zombi"ləri onu top atəşinə tutsalar, yanında olacağam. O, Əlinin yelkənsiz gəmisində batmaq istəmədi. Tənəzzülə doğru gedən partiyada qalmağın mənası yoxdur. Əbülfəz Əlinin küyünə gedib həyatını məhv elədi. 26 ilimi qurban verdim. Artıq başa düşmüşəm ki, Əli uğrunda imiş bu mübarizə. Əbülfəzin bu yaşında gerçəkləri görməsini qəhrəmanlıq sayıram. O, istefasında bəzi eyhamlar vurub. Deyib ki, çox şeylər edə bilərdim, amma imkan vermədilər. Bunu düz deyir. O, gəncliyi ilə çox şeylər edə bilərdi. Əli hakimiyyətə gəlmək üçün mübarizə aparmır. Partiyadan biznes kimi istifadə edir. Sadəcə, partiyanı gündəmdə saxlamaq üçün 5-10 "zombi"dən istifadə edir. Dəridən-qabıqdan çıxaraq, mandat uğrunda mübarizə aparır. Oğlu həbs olunanda deyirdi ki, əqidə, amallar uğrunda mübarizə aparıram, hakimiyyəti dəyişmək uğrunda yox. Niyə? Çünki oğlu həbsxanada idi. İndi mübariz gənclik həbsdədir. İndi yazmır ki, biz əqidə uğrunda vuruşuruq. Oğlunun 25 günlük həbsinə görə az qaldı siyasətdən getsin. 7-8 il iş alan gənclərin talelərini hansı vicdanınıza sığışdırırsınız?"

Cavanşir ABBASLI

# Neftin qiyməti ilə bağlı növbəti bədbin proqnoz

## İlham Şaban: "Bu il Azərbaycanın neft gəlirləri ötən ilə nisbətən 50 faiz azalacaq"

**Neftin qiymətinin 40 dollara qədər ucuzlaşması və nəticədə manatın kəskin devalvasiyasının sadə insanların cibinə də birbaşa təsir etdiyi sübut olundu. Bu baxımdan, mediada yayılan hər "neft ucuzlaşır" xəbəri insanlarda bir ümidsizlik yaradır.**

Bəs görəsən, ilin sonuna qədər neftin qiyməti hansı həddə ola bilər? İlin ikinci yarısında neftin qiyməti Azərbaycan iqtisadiyyatına nə vəd edir?

Musavat.com-un suallarını cavablandıran **Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, neftin ucuzlaşması hazırda bir sıra beynəlxalq faktorlarla bağlıdır: "Neftin ucuzlaşmasına təsir edən beynəlxalq iqtisadi-siyasi amillər əsasən İran, Yunanıstan və Çin faktorudur. Çinin iqtisadiyyatındakı geriləmə, fond birjalarındakı çökmə və ölkə iqtisadiyyatında proqnozdan aşağı göstəricilər neftin qiyməti ilə bağlı da mənfi təzahürlərə gətirib çıxardı. Dünya bazarında may və iyun aylarında neftin qiyməti stabil oldu və təxminən 65 dollar ətrafında dəyişdi. Ayın sonlarına doğru kəskin qiymət dəyişmələri oldu. Çünki neft birjalarına hər gün həm siyasi, həm də iqtisadi amillərlə bağlı informasiyaların gəlməsi neftin qiymətinin hətta gün ərzində bir neçə dəfə dəyişməsinə səbəb oldu.

Təsəvvür edin ki, neftin qiyməti gün ərzində 60 dollardan 55 dollara düşür və 55 dollardan 57, 8 dollara qədər artır. Bu hadisə də göstərdi ki, həqiqətən bazarda bir çalxalanma, təlatüm var. Qarşıdan daha böhranlı bir vəziyyət gəlir.

Son məlumatlara görə, iyul ayının 13-nə kimi Yunanıstan banklarında, ümumiyyətlə, nağd pul olmayacaq. İkinci tərəfdən, Avropa Birliyi (AB) Yunanıstana cümə gününün sonuna kimi vaxt verib ki, əgər reformlarla bağlı iş ortaya qoyulmasa, bu ölkə Avropa Birliyindən kənarlaşdırılacaq. Vəziyyət onu göstərir ki, bu mürəkkəb iqtisadi şərait müsbət heç nə vəd etmir. Obrazlı şəkildə desək, tunelin ucunda nəinki işıq görünmür, ümumiyyətlə, tunelin ucunda işıq yoxdur. Belə bir şəraitdə neftin qiymətinin artması ilə bağlı ümidlər əsassızdır. Biz ilin birinci yarısını 61 dollarla yekunlaşdırdıq. İlin ikinci yarısı üçün də proqnozlar o idi ki, orta qiymət 61-62 dollar olacaq. Orta illik qiymət isə 62 dollar ətrafında qərarlaşacaq. Ancaq hazırkı siyasi-iqtisadi faktorlar onu göstərir ki, buna ümid etməyə əsas yoxdur".



**Neftin qarşıdaki aylarda da ucuzlaşacağını proqnozlaşdıran ekspert bunu əsas neft istehsalçısı və istehlakçısı olan ölkələrdə baş verən proseslərlə əlaqələndirdi:** "Bu il İran da bazara neft ixracını 600 min barel artırmağı planlaşdırır. Bu, tam şəkildə baş tutmasa, İran 600 min barelin 400 min barelini artırmağa nail olsa belə, bazara yetərincə ciddi təsir edəcək. Bundan əlavə, real faktorlardan biri də odur ki, Avropa zonasında iqtisadi çöküş gedir. İkinci bir tərəfdən, ən böyük neft istehlakçısı olan Çin neft istehlakını azaldıb, ümumidaxili məhsulu 8 faizdən 5 faizə qədər azaltmağa çalışsa, dünya bazarında neftə olan tələbat da azalacaq və ilin ikinci yarısında neftin qiyməti 55 dollar civarında formalaşacaq. Bu isə Azərbaycan üçün heç də yaxşı nəticələr vəd etmir".

**İlham Şaban bu il neft gəlirlərinin 50 faizdən çox azalacağını da vurğuladı:** "Əgər neftin ikinci yarım ildəki qiymətini təqribən 58-59 dollardan hesablasaq, görərik ki, ötən il Azərbaycan neftinin orta qiyməti 101 dollar olub. Bu, o deməkdir ki, 1 il ərzində neftin qiyməti 40 faizdən artıq azalıb. Adekvat olaraq, gəlirlər də 50 faizdən artıq aşağı düşəcək. Çünki qiymət azalmasına paralel olaraq, hasilatın da azalması baş verir. Azərbaycan hökumətinin açıqlamasına görə, təkcə Azəri-Çıraq-Günəşli neft yatağında təqribən 700 min tona yaxın azalma baş verəcək. Azəri-Çıraq-Günəşli-dən Neft Fonduna gələn mənfəət 92 faizə qədərdir. Bu isə o deməkdir ki, bu neft yatağından təqribən 7 milyard manat civarında mənfəət belə toplanmayacaq. Ancaq ötən il Azəri-Çıraq-Günəşli neft yatağından 15,1 milyard manat Neft Fonduna mənfəət daxil olmuşdu. Bu isə o deməkdir ki, qiymət azalmaları Azərbaycanın neft gəlirlərinə kəskin təsir edir".

❑ **Nərgiz LİFTİYEVA**



# İngilis səfirliyi Saakyanın səfərinə aydınlq gətirdi

**"Bako Saakyan Britaniya parlamentinə hökumət tərəfindən dəvət olunmayıb". Bunu APA-ya Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən bildiriblər.**

Açıqlamada deyilir ki, B. Saakyan Böyük Britaniyaya müstəqil şəkildə səfər edib və Britaniya hökumətinin bu səfərdə heç bir rolu yoxdur: "Parlamentarlar kimi parlamentə dəvət edəcəklərinə özləri qərar verirlər. Böyük Britaniyanın mövqeyi dəyişməzdir. Biz qondarma "Dağlıq Qarabağ Respublikası"nın "müstəqilliyini" tanımırıq".

# WikiLeaks Azərbaycanla bağlı məxfi yazışmaları ələ keçirib

## Sayt Səudiyyə Ərəbistanı Xarici İşlər Nazirliyinin dünyanın hər yerindəki səfirlikləri və xarici ölkələrlə məxfi diplomatik yazışmalarını yaydı

**WikiLeaks saytı bir-birinin ardınca dünyanın iri dövlətlərinin sirlərini açıb tökməkdə davam edir. Xəbər verildiyi kimi, sayt artıq ABŞ-ın Milli Kəşfiyyat Agentliyinin Almaniya kansleri Angela Merkelin və digər dövlət rəsmilərinin şəxsi telefonlarını dinlədiyinə dair faylları yayıb.**

Həmçinin ABŞ kəşfiyyatının Braziliya prezidenti Dilma Rusefin və digər bəzi xarici ölkə liderlərinin telefon danışıqlarını dinlədiyi də WikiLeaks saytının sayəsində dünyaya məlum olub.

Virtualaz.org saytı xəbər verir ki, WikiLeaks saytı Səudiyyə Ərəbistanı Xarici İşlər Nazirliyinin dünyanın hər yerindəki Səudiyyə səfirlikləri və xarici ölkələrlə məxfi diplomatik yazışmalarını da ələ keçirib.

Sayt Səudiyyə Ərəbistanı XİN-in 1,5 milyona yaxın məxfi sənədini iyun ayında yayıb. Bu sənədlər arasında Səudiyyə Ərəbistanının digər dövlət institutlarına, o cümlədən Daxili İşlər Nazirliyinə və Baş Kəşfiyyat Xidmətinə göndərilən məxfi sənədlər də var.

Məlum olub ki, WikiLeaks saytının "The Saudi cables" adı altında yaydığı sənədlərin arasında Azərbaycan Xarici İşlər Nazirliyinin və Səudiyyə Ərəbistanının Bakıdakı səfirliyinin, habelə Azərbaycanın bu ölkədəki səfirliyinin sənədləri, o cümlədən Səudiyyənin BMT yanındakı daimi nümayəndəliyi ilə Azərbaycan arasında bəzi yazışmalar yer alır.



Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyi

Permanent Mission of the Republic of Azerbaijan to the United Nations

866 United Nations Plaza, Suite 560, New York, N.Y. 10017
Tel.: (212) 371-2559; Fax: (212) 371-2784

AZ/ 0031 /13

The Permanent Mission of the Republic of Azerbaijan to the United Nations presents its compliments to the Permanent Mission of Saudi Arabia to the United Nations and has the honor to convey the letter of the Minister of Culture and Tourism of the Republic of Azerbaijan addressed to the President of Saudi Commission for Tourism and Antiques.

The Permanent Mission of the Republic of Azerbaijan would highly appreciate if the aforementioned letter would be transmitted in due course to the high destination.

The Permanent Mission of the Republic of Azerbaijan to the United Nations avails itself of this opportunity to renew to the Permanent Mission of Saudi Arabia the assurances of its highest consideration.

New York, January 04, 2013

Permanent Mission of Saudi Arabia
to the United Nations
New York

JAN 0 7 2013

Doğrudur, Azərbaycana aid "The Saudi cables"də yer alan sənədlər məzmun baxımından hansısa mühüm sirri özündə əks etdirmir. Bunlar beynəlxalq tədbirlərdə iştiraka dəvət, cari diplomatik yazışmalar və digər məzmunlu sənədlərdir. Bir çox sənədlər isə ərəb dilindədir.

❑ **Vìrtualaz.org**

# Rus milyonerin arvadı Qarabağda moda evi açır

**Dağlıq Qarabağa köçən rusiyalı milyoner German Sterliqov nə üçün bura köçdüyünü açıqlayıb. Avropa.info xəbər verir ki, Sterliqov arvadının vətəndə olduğu kimi burada da moda evi açacağını bildirib. Özü isə kənd təsərrüfatı yaradacaq. O deyib ki, hər şey qaydasındadır və Rusiyadakı təsərrüfatını satmaq fikrində deyil. "Torpaq satılmayacaq, atlar satılmayacaq. Mal-qaranın və texnikanın təcili satışı ölkədən xaricdə qalmağıma görədir" deyə, Sterliqov bildirib.**

Dağlıq Qarabağın təbiəti biznesmenin çox xoşuna gəlib. O, buranı çiçək açan bağça ilə müqayisə edib. Dağlıq Qarabağda olmasına baxmayaraq, Sterliqov uzaq gələcəkdə Rusiyaya qayıtmağı düşünür. Bunun nə vaxt baş verəcəyini isə o deməyib.

Sterliqovu axtaran jurnalistlər isə onun Qarabağda bir neçə hotel dəyişdirdiyini öyrəniblər. 23 iyunda o, "Shoushi Grand Hotel"də qalıb. Sterliqov ailəsi ilə orada 28 iyun tarixinədək yaşayıb. Hoteldə bir gecənin qiyməti 7233 rubldur. Daha sonra o, Şuşada "Avan Shoushi Plaza" hotelinə köçüb. Hazırda onun Şuşada olduğu bildirilir. Biznesmenin bir qızı, üç oğlu var.

Milyoner deyib ki, onu Rusiyadan getməyə məcbur edən banditlər yox, daha "yuxarı"da oturanlardır.

# Azərbaycana qarşı "hibrid separatçılıq"



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Dünyadan, beynəlxalq birlikdən, fövqəldövlətlərdən mütləq ədalət ummaq doğrudan da bihudə iş imiş. Bu da isti nümunə: iki gün öncə BMT-də Rusiya və Çin veto hüququndan istifadə edərək Serebrenitsadakı qətliamın soyqırım kimi tanınmasının qarşısını alıb. Halbuki 1995-ci ildə 8 min boşnak müsəlman kişi və oğlan uşaqlarının serblər tərəfindən qətlə yetirilməsinə artıq Beynəlxalq Məhkəmə elə bu cür də hüquqi qiymət verib - soyqırım.**

Ruslar bu addımı təbii ki, din-dil qardaşları olan serblərə görə atıblar. Söz yox ki, Serebrinitsada öldürülən sakinlər xristian, üstəlik, pravoslavlar olsaydı, Rusiya yüzdə yüz qətnaməni dəstəkləyəcəkdi. Necə ki, tarixdə olmayan bir genosidi Moskva xristian ermənilərə görə "soyqırım" kimi tanıyıb və aprelin 24-də Putin şəxsən uydurma məsələnin 100 illiyinə görə İrəvanda olub. İkili standart?

İkili standart. Çin də Rusiya kimi bəşəri dəyərlərlə idarə olunmadığından Pekinin mövqeyi də təəccüb doğurmur. Uyğur türklərinin başına olmazın müsibətlər gətirən, onlara qarşı Ramazan ayında belə diskriminasiya və repressiya siyasətinə ara verməyən bir buddist dövlətin Bosniya müsəlmanlarına qarşı vandallığı soyqırım kimi tanımaması anlaşılandır.

Fəqət, Qərbin özü də "süddən çıxan ağ qaşıq" deyil, əfsus ki. Misal üçün, Serebrenitsa qırğınından cəmi 3 il önə Xocalıda soyqırım törədilmiş, erməni yırtıcıları yüzlərlə günahsız sakini, qocaları, qadınları, uşaqları yalnız müsəlman-türk olduqları üçün amansızlıqla öldürüblər. Di gəl, beynəlxalq birlik, Qərb hələ də bu antibəşəri cinayətə layiqli hüquqi-siyasi qiymət verməyib, caniləri haqq etdiyi cəzasına çatdırmayıb.

Azərbaycana qarşı Qərbin ikinci ədalətsizliyi Qarabağa münasibətdə özünü göstərməkdədir. Elə BMT-dəki səsvermə günü Dağlıq Qarabağdakı separatçı rejimin başçısı, "KQB tulası" Bako Saakyan Londona, titullu "Chatham House" - Kral Beynəlxalq Münasibətlər İnstitutuna mıəruzı oxumaq üçün gəlmişdi - əlbəttə ki, Lontondan göndərilən dəvət əsasında. Halbuki, nə Abxaziya və Cənubi Osetiyanın, nə Krım və Dnestryanı bölgənin, nə də Donbasın separatçı liderlərinə heç vaxt belə lüks tanınmayıb. Əksinə, onların Avropa ölkələrinə girişi yasaqlanıb, bank hesablarına həbs qoyulub.

Özü də Saakyana dəvət o ölkədən göndərilib ki, onun Azərbaycanla geniş əlaqələri var. Söhbət İngiltərədən və onun bp şirkətindən gedir. Düzdür, Britaniya səfirliyi bəyan edib ki, bu - özəl bir səfərdir, hökumət üzvlərindən heç kim onunla görüşməyəcək və London Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

Amma və lakin "Chatham House" yetərincə nüfuzlu, brend xarakterli institutdur və ora adətən tanınmış dünya liderləri, siyasilər, ekspertlər dəvət olunur. Saakyan bu kateqoriyalın hansına uyğun gəlir görəsən? Əcəba, bu separatçının Azərbaycana strateji yaxın bir ölkənin "beyin mərkəzi"ndə nə iti azıb, onun fikirləri ingilislər üçün doğrudanmı böyük önəm kəsb edir? "KQB tulası" onlar üçün gerçəkdənmi qızıl xırdalayacaq?

Yox, təbii ki. Bəs səbəb?

Bəzi siyasi müşahidəçilərə görə, Qərb özünün qabaqcıl institutlarının əli ilə separatçılara belə reveranslar etməklə əslində son vaxtlar onun çağırışlarına məhəl qoymayan Azərbaycan hakimiyyətindən qisas alır. İstisna eləmirik. Amma ümumi bir tendensiya da sezilməkdədir. Bu da odur ki, ölkəmizə qarşı sanki bir "hibrid separatçılıq" siyasəti (ssenarisi) yürüdülür. Yəni rəsmən Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi deyilsə də, Qarabağda separatçılığa, separatçılara da haqq qazandırılır, ancaq boyunlarına almırlar. Necə ki, Rusiya Ukraynada məhz "hibrid müharibə" aparır - həm Ukraynanın içindədir, həm də orada hərbi qüvvələrinin olduğunu danır.

Odur ki, sual yaranır: Qarabağ vasitəçiliyində patronajlıq tamamən Moskvadan Qərbə keçsə, Azərbaycan "yağışdan çıxıb yağmura düzməz" ki? Və Azərbaycan demokratiya yolu tutsa, ona qarşı "hibrid separatçılıq" yenə davam edərmi? Hər necə olmasa, hansısa ölkədə insan haqları sahəsində problemlər o ölkənin bir hissəsinin ərazisinin işğalına haqq qazandıra bilməz. Çünki hakimiyyətlər gəldi-gedər, xalqlar, dövlətlər isə qalıcıdır. Hakimiyyətlərə görə xalqlara pislik etməzlər.

Ancaq qoyulan suallar ətrafında rəsmi Bakını da düşündürməli çox şey var - əgər onun üçün Azərbaycan, Qarabağ həqiqətən hakimiyyətdən əzizdirsə. Yoxsa günün birində Dağlıq Qarabağın de-yure itirilməsi faktı ilə də üz-üzə qoyularıq. Hələ vaxt var.

YENİ MÜSAVAT
N 149 (6177) 10 iyul 2015



# Bu yay dünya siyasəti niyə qaynayır - (siyasi şərh)

Hüseynbala SƏLİMOV

**İranla ABŞ arasında iyunun sonlarında nüvə razılaşması ilə bağlı sazişin imzalanacağı deyilsə də, hələ də danışıqlar gedir. İndi ayın 10-dan etibarən bu danışıqların davam edəcəyi gözlənir...**

Əsas fikir ayrılığı yaradan məqam da odur ki, İran özünə qarşı bütün sanksiyaların götürülməsini israr edir. Təbii ki, elə belə də gözləmək lazım idi, çünki İranın nüvə layihəsini Sem dayıya sadəcə, hədiyyə edəcəyini düşünmək əbəs olardı...

Hətta ehtimal edirik ki, danışıqlar ən azı bir az da uzanacaq. Ona görə ki, həm İran, həm də ABŞ bir əlində iki qarpız tutmaq istəyir...

Ən qəribəsi bilirsiniz nədir? Yay olsa da dünya siyasəti qaynayır. Maraqlısı da budur ki, Qərbin qarşısına bu və ya başqa dərəcədə bəlli geosiyasi ox üzərindəki problemlər çıxıb. Bu oxa Moskva-Afina-Tehran oxu da deyirdilər və arabir Yerevanı da ora əlavə edirdilər...

Özünüz baxın. Afina Avropa üçün əsl başağrısıdır. Moskva haqqında isə heç danışmağa dəyməz. Tehran da ki, heç...

Afina siyasətçiləri tez-tez Rusiyaya, paytaxt Moskvaya baş çəkirlər. İran üçün atom stansiyasını inşa edən də Moskva oldu. Qərəz, Moskva lap əsl tilsimə çevrilib, nəyi qaldırırsan, altından o, çıxır...

Güman, oxucu əvvəl düşündü ki, mən Tehran haqqında yazacam. Bu haqda indiyə qədər çox yazdığımdan bir daha bu mövzunu eşələməyəcəm...

Sadəcə, bəlli geosiyasi oxa işarə etdim. Əvvəllər qalın jurnallarda bu haqda çox yazırdılar. İndi bir az səngiyib. Amma istiqamət hələ həminki istiqamətdi.

Afina təbii ki, Avropdadı. Hətta referendumdan da sonra onun Avropadan uzaqlaşacağı güman edilmir. Bəli, bir daha deyirik ki, Yunanıstan Avropadır. Amma Türkiyəyə qarşı inamsızlıq, hətta deyərdik ki, kor ədavət onu arabir Avropa hüdudlarından kənarda da müttəfiq axtarmağa vadar edir...

Həm də əvvəllər bu xətt, yəni Afina-Tehran-Moskva-Yerevan xətti bölgədə türk birliyinə qarşı duracaq əsas ittifaq kimi nəzərdən keçirilirdi...

Təbii ki, mən bunun yüzdə-yüz belə olduğunu israr etməkdən uzağam. Amma çox güclü geopolitiklərin yazdıqlarını təkzib etmək üçün də əlimdə tutarlı arqumentlərim yoxdur. Və mən də belə hesab edirəm ki, adı çəkilən geosiyasi ox heç də siyasi çoğrafiyaçıların beyinlərinin məhsulu deyil...

Baxın. Rusiya İrana artıq öz xidmətini edib. İndi Afinaya təklif edir. Digər bir ölkə-Ermənistan da bəlli məsələ...

Tehranın türk amilindən necə və niyə ehtiyat etməsi aydın məsələdir. Moskva hələ də xəyallarla yaşayır və orada arabir birinci Pyotrun yazdıqlarını oxuyub riqqətə gəlirlər. Ona görə də onların da dərdi məlum...

Yunanıstana gəldikdə, onun da Türkiyəyə münasibəti heç bir analiz-filan tələb etmir, kifayət qədər anlaşıqlıdır...

Deməli, ortada çox möhkəm olmasa da, hər halda, xəyali olmayan bir bağlılıq mövcuddur...

Demirik bu ox Qərbə-Avropaya qarşı da yönəlib. Amma o, Avropanın və əsasən də ABŞ-ın maraqlarından kənara çıxa biləcək reallıqlar da diqtə edə bilər...

İndi sözsüz ki, böhranlı Yunanıstan Avropanı problemidi. Moskva və Tehran isə ABŞ-ın...

Onları eyniləşdirmək elə də asan deyil, çünki əgər Yunanıstan Avropa üçün "kasıb qardaş" problemidirsə, Moskva və Tehran ABŞ üçün hərbi problemdir... Di gəl, biz bunları eyniləşdirməyə çətinlik çəksək də bir də görürsən ki, həyatın özü onları birləşdirir - Afinanın və ya Tehranın "itmiş" siyasətçilərini tez-tez Moskvada tapmaq olur. Orada nə edirlər və nə axtarırlar, bunu artıq yalnız özləri bilirlər...

Bizə isə bir az gözləmək lazım gəlir. Qoy, yananlar düçar olduqları böhranın səbəblərini "Kapital"da axtarsınlar, hərçənd ki, onu orada tapa bilməyəcəklər və daha yaxşı olardı arabir A.Smitin də kitablarına baxsınlar...

Qoy, Tehran da danışıqlarda özü üçün maksimum güzəşt qoparmağa çalışsın. Biz heç bunun da əleyhinə deyilik...

Qərblə İranın münasibətlərinin yoluna qoyulması müəyyən mənada Azərbaycanın da maraqlarına cavab verir-o mənada ki, bu halda daha onlar İranla soyuq münasibətləri şərt kimi irəli sürməyəcəklər...

Elə Rusiyaya qarşı beynəlxalq sanksiyaların tətbiq olunması da dünyanın maliyyə atmosferini heç də az korlamır...

Təbii ki, bizim də bir ölkə, millət və regional münasibətlərin iştirakçısı kimi maraqlarımız var. Amma bu haqda bir azacıq sonra...

# Qalmaqallı səfir "Yeni Müsavat"a danışdı

## Arif Məmmədov: "Hakimiyyətdəki mühafizəkarlar indiyə kimi mənə bunu bağışlaya bilmirlər"

**Bir müddət əvvəl qalmaqallı çıxışlarından sonra İslam Konfransı Təşkilatının Avropa İttifaqı yanındakı nümayəndə heyətinin rəhbəri vəzifəsindən uzaqlaşdırılan Arif Məmmədov "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

**- Müxalifətə keçməyinizlə bağlı bəyanatınızdan sonra bir qədər susqunluğunuzun səbəbi nədir?**

- Tam düz qeyd etdiniz ki, məsələnin sakitləşməsi görüntüsü yaranıb. Amma həqiqət fərqlidir. Mənə qarşı təşkil olunmuş kampaniya daha kəskin və ilginc formada davam etdirilir. Mənim hakimiyyətin addımlarından tam xəbərim var və bununla bağlı müvafiq tədbirlər görürəm. Mənim mövqeyimə və fəaliyyətimə gəlincə, deməl istərdim ki, həddindən çox görüşlər keçirirəm. Bir sıra önəmli beynəlxalq tədbirlərə dəvət olunuram. Mən 20 ildə kifayət qədər ad və dost qazanmış bir insanam və vəzifədə olmağım və ya olmamağım mənə heç bir problem yaratmır. Elə indinin özündə də Norveçdə təşkil olunmuş sülhün təminatı və preventiv diplomatiya sahəsində təlimdə iştirak edirəm. Son bir ayda bir sıra maraqlı iş təklifləri də almışam. Bir az düşünmək və təhlil etmək vaxtıdır.

**- Azərbaycana nə zaman gəlmək niyyətiniz var?**

- Doğma vətənə gəlmək mənim üçün hər zaman ən böyük sevinc olub. Bildiyiniz səbəblərə görə indiki vaxtda bu mümkün deyil. Amma ən böyük arzum olaraq qalır və inanıram yaxınlarda qayıdacağam.

**- Avropa Oyunları bitdi. Cəmiyyət üçün hansısa narahatedici hadisə gözləyirsinizmi?**

- Avropa Oyunlarında bizim idmançılarımız ən yüksək nəticələr göstərdilər və mən hər bir azərbaycanlı kimi buna çox sevinirəm və qürur duyuram. Eyni zamanda cəmiyyətdə bu oyunlarla və xərclənən vəsaitlərlə bağlı açıq və cavablandırılmayam suallar qalır. Hesab edirəm ki, hökumət cəmiyyətdə toplanan bu suallara şəffaf şəkildə cavablar verməlidir. Bu, normal bir haldır və bütün cəmiyyətlərdə qəbul edilmiş qaydadır. Cəmiyyət suallara düzgün və şəffaf cavablar alarsa, narahatedici hadisə də olmaz.

**- Parlament seçkiləri qabağı cəmiyyətdə hər hansı aktivlik olacaqmı? Sizin müşahidələriniz nədən ibarətdir?**

- Açıq aktivlik hələ görünmur, amma daxildə ciddi çaxnaşmaların olduğu sirr deyil. YAP-ın son bəyanatı və bəyanatın təcili təkzibi bunun göstəricisi ola bilər. Eyni zamanda təəssüf ki, əvvəlki seçkilərdə olduğu kimi, bəzilərinin "müxalifətçi donunda" hakimiyyətlə razılaşma edərək deputat mandatlarını "qazanmaq" cəhdləri də göz qabağındadır.



**"Tofiq Yaqublu hərbi addımını dəyişməyərək həbsxanadan yas mağarına getməsi ilə xalqımızın ən güclü kişi obrazının daşıyıcısı oldu"**

**- Cəmiyyətdə müəyyən kəsim bu fikirdədir ki, uzun illər iqtidar düşərgəsində olan insanların üz döndərdikdən sonra müxalifət tərəfindən xilaskar kimi qəbul edilməsi doğru deyil. Siz bunun əksi olaraq nə deyə bilərsiniz?**

- Mən bir diplomat kimi hər zaman ölkəmin və millətimin maraqlarını beynəlxalq qurumlarda qorumuşam. Özümü heç bir vaxt hansısa düşərgəyə qatmamışam. Bir peşəkar kimi öz funksiyalarımı icra etmişəm. Mən Azərbaycanın Avropa Birliyinin yanında səfiri işlədiyim vaxt ölkəmizin bu təşkilatla münasibətləri ən yüksək səviyyədə idi. Biz Avropa Birliyi ilə inteqrasiya məsələlərində həm Ermənistandan, həm Gürcüstandan, həm Moldovadan və həm də Ukraynadan daha irəlidəyik. Biz təşkilatın qapılarından qürur hissi ilə girirdik. Münasibətlərə xələl gətirmək istəyən mühafizəkarların cəhdlərini də hər zaman puç etmişəm və müdaxilələrə imkan verməmişəm. Hakimiyyətdəki mühafizəkarlar indiyə kimi mənə bunu bağışlaya bilmirlər. Mən əvvəllər yazmışdım ki, elə mənə qarşı təşkil olunmuş kampaniyanın kökləri də bu məsələdən irəli gəlir.

**- Siz AXCP-yə və Milli Şuraya inanmağa çağırış etmisiz. Bəzən belə suallar da yaranır ki, məsələn, siz Müsavat başqanının həbsdəki müavinləri Tofiq Yaqubluya və ya Yadigar Sadıqova inanmırsınız?**

- Həm Tofiq bəy, həm Yadigar bəy xalqımızın cəsarətli oğullarıdır, onlara və onlar kimi minlərlə müsavatçılara mən tam olaraq inanıram. Tofiq bəydən bizim gənc nəslimiz, hərbçilərimiz nümunə götürməlidirlər. Tofiq Yaqublu Qarabağ döyüşçüsü kimi, bəlkə ilk dəfə kövrələrək, ancaq hərbi addımını dəyişməyərək həbsxanadan yas mağarına getməsi ilə xalqımızın ən güclü kişi obrazının daşıyıcısı oldu. Hansısa rəssam bu qəhrəman türk oğlunun rəsmini çəksəydi, bu dünyada bəlkə ən güclü kişi obrazının təcəssümü olardı. Allah bütün qardaşlarımızın qapılarını tezliklə açsın, doğma və yaxınları ilə tezliklə birləşsinlər. İnanın, Nərgiz Yaqublunun vəfatı məni çox sarsıtdı. Nərgiz əsl gözəl və mübariz Azərbaycan qızının simvolu oldu. Nərgizin ad gününün Azərbaycan qadınlar günü kimi qeyd edilməsini təklif edərdim. Yaxud Nərgizin ad gününü Azərbaycan gənclər günü kimi qeyd etmək yaxşı olardı.

❑ Röya RƏFİYEVA

# Eldar Namazov Azərbaycanı tərk etdi

**Vaxtilə Milli Şuranın əsas liderlərindən olan EL hərəkatının sədri Eldar Namazov xeyli vaxtdır xarici ölkələrin birində yaşayır. Prezident seçkilərindən sonra siyasi proseslərdən kənarda qalan Namazovun Azərbaycanı tərk etmək niyyətində olduğu bildirilir.**

Onun bu məqsədlə Avropa ölkələrindən siyasi sığınacaq alıb-almayacağı isə sual altındadır.

Ölkəni tərk etməsi ilə bağlı deyilənlərə münasibət bildirən E.Namazov azvision.az-a açıqlamasında Azərbaycanda olmadığını təsdiqləyib. Xeyli vaxtdır xaricdə olduğunu deyən Namazov ölkəyə qayıtmaq barədə hələ düşünmədiyini bildirib.

"Hazırda ölkədə deyiləm. Ola bilsin ki, sentyabr ayından sonra Azərbaycana qayıdım. Hələ ki xaricdəyəm" - deyə siyasətçi vurğulayıb.



YENİ MÜSAVAT
N 149 (6177) 10 iyul 2015

Azərbaycan-Amerika Alyansı rəhbərinin növbəti provalı



# Ziya Məmmədovun "lobbist" oğlunun fiaskosu

**ABŞ-ın 16 senatoru Azərbaycan prezidenti İlham Əliyevə məktub yazıb. Kifayət qədər sərt tonda olan məktub həm də hakimiyyətə ittihamedici notlar üzərində qurulub və rəsmi Bakı faktiki surətdə ölkədə repressiyaları, avtoritarizmi gücləndirməkdə suçlanıb.**

## ABŞ-ın 16 senatorunun prezident İlham Əliyevə sərt tonda məktubu ən çox Anar Məmmədovun ayağına yazılmalıdır; Amerikada iqtidarın lobbiçiliyi üçün fantastik paralar xərcləmiş gənc oliqarxdan hesab sorulacaqmı?



Məktubun girişində deyilir ki, senatorlar müraciəti Azərbaycanda vətəndaş cəmiyyəti və mətbuat azadlığı üçün məkanın daralmasına görə getdikcə artan narahatlıq hissi ilə yazıblar. Sitat: "Avqustda bir neçəmiz sizə yazaraq siyasi motivli həbslərin artmasından narahatlıq ifadə etdik. Həmin məktubda Anar Məmmədli, Leyla və Arif Yunuslar və İntiqam Əliyevin saxlanmasından bəhs olunurdu. Məktubdan sonra Rəsul Cəfərov, xeyli sayda insan haqları fəalı və jurnalist ya həbs olunub, ya da ölkədən çıxışlarına qadağa qoyulub. Bundan başqa, Azərbaycanın üzv olduğu Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) ofisinin bağlanması, "Amnesty International" beynəlxalq insan haqları təşkilatı təmsilçilərinin ölkəyə girişinə qadağa qoyulması barədə eşitmişik".

**Senatorlar daha sonra bəyan ediblər ki, Azərbaycan hökuməti konkret işlər görməklə ABŞ-Azərbaycan münasibətlərinin güclənməsi yolunda mühüm maneəni aradan qaldırmış olar. Müraciətdə AzadlıqRadiosunun Bakı ofisinin fəaliyyətinin dayandırılmasından da söz açılır:** "Ötən dekabrda hakimiyyət AzadlıqRadiosunun Bakı bürosunu möhürləyib. Bu, açıq-aşkar mətbuat azadlığını boğmaq məqsədilə, şübhəli ittihamlarla edilib. Ofisin açılması üçün bir neçə aylıq danışıqlardan sonra radio bu yaxınlarda ofisini tamamilə bağladığını elan edib. AzadlıqRadiosunun missiyası əhaliyə azad informasiya və xəbər axını çatdırmaqdır, əks halda, əhalinin yalnız rəsmi mediaya çıxışı qalır".

Qeyd edək ki, məktub senator Richard Durbinin təşəbbüsü ilə hazırlanaraq göndərilib və aşağıdakı senatorlar tərəfindən imzalanıb: Barbara Boxer, Benjamin Cardin, Dianne Feinstein Ron Johnson, Mark Kirk, Patrick Leahy, Markey, John McCain, Robert Menendez, Chris Murphy, Gary Peters, Jack Reed, Marco Rubio, Jean Shaheen və Sheldon Whitehouse.

Əlavə edək ki, ABŞ-ın "Freedom Now" insan haqları təşkilatı da senatorların bu təşəbbüsünü alqışlayıb.

***

Göründüyü kimi, məktubda Azərbaycan hakimiyyəti beynəlxalq qınaqları və çağırışları ciddiyə almamaqda da günahlandırılır. Müraciət eyni zamanda rəsmi Bakı ilə Vaşinqton arasında soyuq ruzigarların əsdiyi dönəmə təsadüf eləməsi ilə diqqət çəkir. Bütün hallarda onun Azərbaycan rəhbərliyində yumşaq desək, məmnunluq yaratmayacağı dəqiqdir.

Ümumiyyətlə, ABŞ Konqresi hakimiyyətə münasibətdə Ağ Ev administrasiyasından *(hökumətdən)* fərqli olaraq, bir qayda olaraq, qat-qat sərt mövqeyi və ritorikası ilə seçilib. Ancaq məsələ ondadır ki, iqtidar bu ritorikanı yumşaltmaq üçün necə vaxtdır Birləşmiş Ştatlarda, o cümlədən Konqres üzvləri arasında məsul elədiyi adamları vasitəsilə lobbiçilik fəaliyyəti aparır.

Söhbət öncəliklə nəqliyyat naziri Ziya Məmmədovun oğlu, Azərbaycan-Amerika Alyansının rəhbəri Anar Məmmədovdan gedir. Bu barədə bir neçə dəfə yazmışıq və yeri gəlib bir daha yada salmağa zərurət var ki, Anar Məmmədov amerikalı konqresmenlər və senatorlara lobbiçilik adı altında fantastik paralar xərcləməsi ilə, onlara, həmçinin diplomatlara və qəzet redaktorlarına Azərbaycan pulları hesabına bahalı ziyafətlər, qonaqlıqlar təşkil eləməsi ilə vaxtaşırı həm Azərbaycan, həm də ABŞ mətbuatının diqqətinə gəlib.

Bir sıra konqresmenlər və senatorlar da daxil, 500 amerikalı üçün sonuncu belə havayı yeyib-içmək məclisi Vaşinqtonda təşkil olunmuşdu. Belə bahalı ziyafətlərin reallaşması üçün "Fabiani & Company" lobbi şirkətinə təkcə son illərdə üst-üstə 5 milyon dollar pul ödənib. Deyilənlərə görə, qeyri-rəsmi məbləğ daha çoxdur.

Bəs nəticə? Nəticə niyə yoxdur? Bu paraların hesabı sorulacaqmı?

***

Deyilə bilər ki, bu qəbildən müraciətlər indiyədək də olub, bu da onlardan biri. Bəzi müşahidəçilərə görə isə bu məktub da o birilər kimi Azərbaycanda insan haqlarının durumuna görə narahatlıqdan daha çox, Əliyev hökumətindən nələrisə, hansısa siyasi güzəştləri qoparmağa hesablanıb. Nələri?

Yəqin ki, bunu zaman göstərəcək. Bir şey dəqiqdir ki, Ziya Məmmədovun "lobbist" oğlunun növbəti fiaskosu ortadadır.

❑ **Siyasət şöbəsi**

# "Dönməz" oğlanların döngəsi...



**Samir SARI**

**Dünən dost və qardaş saytlardan birində çalışan ağıllı və qəşəng bacılardan biri şəxsimə böylə bir sual ünvanlamışdı: ""Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu mətbuata açıqlamasında müsavatçı jurnalistlərin qərarı ilə bağlı suala belə cavab verib: "Özləri bilərlər. Mən bir neçə ay öncə onlara "qalın" deyə xahiş etdim. Çünki təşkilatda vəziyyət fərqli idi. İndi kimsəyə "gedin" deməyəcəyəm. Hər kəs özü qərar verəcək". Bununla bağlı nə deyə bilərsiniz?"...**

Mən bu suala səmimi, ağıllı, hətta, təvazokarlıqdan Dərnəgüldəki "Kəmalə-Nərmin" şadlıq evi qədər uzaq olsa da, deyim ki, müdrik cavab verdim. Yazdım: "Bir neçə ay öncə doğrudan da siyasi fəaliyyətimi, yəni partiya üzvlüyümü dondurmaq istəyirdim. Bu, partiyadan çıxmaq, istefa vermək anlamına gəlməsə də, söz-söhbətə səbəb olacaqdı deyə məsləhət olmadı, Rauf bəylə məsləhətləşdik ki, daha uyğun zamana qədər belə addım atmayım. Ancaq indi Rauf Arifoğlu bu addımı atmaqda qərarlı və israrlıdırsa, onda gərək mən daha uyğun zamanı gözləyim. Yoxsa kampaniya səciyyəsi daşıyar, doğma, əziz partiyamıza zərbə olar".

İndi həmin o "daha uyğun zaman" nə vaxt gələcək, bilmirəm. Bəlkə heç yerli-dibli gəlmədi. Hətta ola bilər ki, o zaman gəlsin, amma bu sətirlərin müəllifi yenə məsləhətə qulaq assın, radikal addım atmasın, sinninin bu vədəsində, ölkədəki ictimai-siyasi durumun belə bir dövründə təzədən durub partiya-partiya oyunu oynamaq istəməsin. Ondan da keçən yerdə, hazırda siyasi fəaliyyəti donmuş halda olan müəllif belə bir bəyanat versə, nə olacaq, verməsə, nə olacaq.

Bir də dost var, düşmən var, "Filankəs partiyasından istefa verdi" tipli xəbərlər birinciləri kədərləndirir, ikinciləri isə sevindirir. Kədərlənənlər salamı kəsirlər, ikincilər isə bu cür xəbərlərə görə elə sevinirlər ki, az qalırlar çırtıq çalıb oynasınlar. Dombalaq aşmaq istəyənlər də olur, sadəcə, ya arlanıb aşmırlar, ya da aralanıb aşırlar.

İndiyəcən yüzlərlə partiyasından istefa verənin xəbərini yazmışıq, müzakirəsini aparmışıq. Çoxu öz doğma, əziz partiyasından çıxarkən partiyadaşları ilə dalaşıb çıxıb, qarşılıqlı söyüşlərin qiymətində kəskin ucuzlaşma, defolt yaradıblar. Sonra da tuşlu-tuşundan dağılışıb gediblər öz kəsbkarlıqlarının dalınca.

İllərdir adama demokratiya dərsi keçən, partiyaya, müxalifət düşərgəsinə, haqq yoluna, əqidəyə, prinsiplərə sədaqətdən dəm vuran, bu sayaq ülvi şeylərdən danışa-danışa onsuz da tükü seyrəlməkdə olan başımızı keçəl eləyən onlarla "fədakar", "əzabkeş", "dönməz", "satılmaz" funksioner olub, bir gün, türkün sözü, basıblar imzalarını bəyanata, gediblər - biri xaricə mühacirətə, biri iqtidar düşərgəsində xırda bir vəzifəyə, biri iqtidaryanlı təşkilatda baş dolandırmağa və sair və ilaxır.

Adama deyərlər, lotular, yolunuzdan dönəcəkdinizsə, liderinizə, partiyanıza vəfalı olmayacaqdınızsa, ta bizi niyə terror edirdiniz. Budur, biz burdayıq, amma siz ilk döngədə dönüb aradan çıxdınız. Həm də gedəndə sakitcə gedə bilərdiniz, elə gedərdiniz ki, getməyinizi kimsə bilməzdi, tozanaq qoparmazdınız.

İndi AXCP sədrinin gənc müavini istefa verib, peşəkar və sosial mediada bu geniş müzakirə olunur. Açıb qəzetlərə, saytlara baxıram, hərə bir versiya irəli sürüb, amma "Azadlıq" qəzeti bu xüsusda kəlmə də yazmayıb. Heç elə bil bu partiyada belə bir adam yox imiş. Dünənə qədər qəzetin səhifələrindən düşməyən, "möhtəşəm mitinq"lərin aparıcısı olan siyasi funksionerin belə bir mühüm addımından necə yazmamaq olar? Bəs peşəkarlıq? Bəs xəbər siyasəti? Bəs oxucu marağı? Xalq hər şeyi bilməlidir axı...

Bizim vecimizə də deyil. Hansı partiyadan nə qədər adam çıxır, çıxsın, yazırıq. Artıq belə şeylərə görə inciyib-eləyən də yoxdur. Çünki bilirlər ki, cidanı (xəbəri) çuvalda gizlətmək mümkün deyil, ortada yayılası xəbər varsa, o mütləq yayılacaq. Kosmos, peyk, internet, Facebook əsridir, xəbər də damardan çıxası qan kimi şeydir, mütləq çıxacaq.

Lap axırda bir vacib xüsusatı qeyd edək: əgər biz nə vaxtsa partiyamızdan çıxsaq, atışma, qırğın gözləyənlər buna ümid olmasınlar, elə şey olmayacaq, umsuq olacaqlar. Partiyadaşlıq olmasa da, dostluq, yoldaşlıq əbədidir, dönməzdir, sarsılmazdır. Onu da unutmayın ki, körpü yolun bir hissəsidir.

***P.S.** Körpü söhbətini yozmaq istəyənlər sərbəstdir.*



# Dəniz həsrəti

Zamin HACI
zaminhaci@gmail.com

(Abşeron çimərliyində girov götürülən Məmmədqulunun evə məktubu)

"Clavus clavo pellitur"

**(Latın ata sözü, tərcüməsi "Pazı pazla çıxararlar")**

**"Salam, arvad... Üzr istəyirəm, hörmətli məktub. Əgər biz tərəfin halını bilmək istəyirsənsə vəziyyətimiz çox pisdir, sizin də pis günə düşməyinizi o bir Allahdan arzu edirəm. Yaz görüm sizdə havalar necədir, biz burda günün altında bişirik.**

Hamısını eləyən sənin əmin oğlun Səftər oldu. Əsgərlikdən gələndən direşmişdi ki, Mamed dayı, nə olar, dranqleti xodda, gedək bir dənizə dəyək. Mən bilirdim dəniz çoxdan hasara alınıb, gizli yolla suya girmək istəyənləri də "İstiqlal" snayperiynən qaşqasından vurub uydururlar. Düzdür, bir neçə dəfə mən gecələr dənizə getməyi bacarmışdım, bunun "yutub"da videoları da var, uşaqlara denən darıxanda açsınlar, bax. Qaranlıqdır, ancaq suyu şappıldatmağımın səsi aydın düşüb. Hətta bir dəfə gedəndə 20 il qabaq nişanlı vaxtımızda plyajda səninlə yediyimiz qarğıdalının cecəyini tapmışdım, elə kövrəlmişdim az qala hıçqırtımı duyub məni tutmuşdular, Allah saxladı. Biz gəlməyəndən buranın qumu da palçıq olub. Günəşi qaraltmır, göyərdir. Balıqları itə dönüb, yosunları ipə. Dənizin suyu bizdən küsüb, içindən nəcis iyi gəlir.

Ancaq Səftərlə gedəndə bir az sayıqlığı itirdim, qumluqda nazirə ilişdik. Mən cığırı tanıyıram, lakin Səftər xam olduğu üçün burnuna qədər quma girmiş naziri görmədi. Qaçmağa başladıq, bu vaxt da şezlonq kolluğunun arasından bir neçə icra başçısı, prokuror və polis rəisi çıxdı. Səftərə dedim, adə, mən bunların başını qatacam, sən aradan çıx, nəslimizdə bir başıpapaqlı qalsın. Lakin Səftər qəhrəmancasına bir ovuc qum götürüb nazirin gözünə atdı, onu elə ordaca vurdular. Kənddə hamıya onun bu qəhrəmanlığı haqda danışarsan, bəlkə domino oynadığımız çayxanaya Səftərin adını verdilər.

Məni də gətiriblər, neçə gündür boğazıma qədər quma basdırıblar. Hər gün qurama, dırnaqarası istintaq gedir, nazirlər məndən soruşurlar ki, nə üçün onların dənizinə, qumluğuna girmişəm. Guya bu dəniz onların ulu babası Danabaş kişidən qalmışdır. Başıma qarpız qabığı keçirib işgəncə verirlər, tələb edirlər "Dəniz nazirlərindir, Məmmədqulu kilkədir!" şüarını qışqırım. Mən isə mətanətlə işgəncəyə dözürəm.

O qədər yalançı, alçaq tayfadır ki, deyirlər guya biz Səftərlə oğru kimi, qeyri-qanuni bunların dənizinə girəndə qumda uzanmış kənd təsərrüfatı nazirinin qarnını ayaqlamışıq, nəticədə nazir bala salıb, çünki hamilə imiş. Guya biz plyajda qril yeyəndə toyuğun dümbül sümüyünü yerə atmışıq, sümük girib mədəniyyət nazirinin ayağına, infeksiya düşüb, kişinin ayağını dirsəkdən kəsiblər. Ya da biləkdən - dəqiq yadımda deyil. Guya Səftər suda üzəndə bunun darbalaq tumanı gömrük nazirinin başına keçib, nazir çırpınıb, lakin tordan çıxa bilməyərək ölmüşdür. Hətta özlərinə villa qayırmaq üçün apardıqları qumu da bizim oğurlamağımız adıyla afor-mit eləyiblər.

Evdəkiləri mənim əvəzimdən öpərsən: Mətişin ağzından, Fətişin alnından, Sədişin gözündən, Bədişin qulağından. Məmişin harasından olsa öpgünən, denən itin balası, dədəvin burnu səndən ötrü göynəyir. Bəlkə o yerlərə bir də gəlmədim, plyaj, salamat qal, şezlonq, qan ağla!

Məktubu Qrasnı Qrestnən göndərdim, bəzi yerləri qara-qura ola bilər, vacib deyil. Məktubu gətirən uşaqlara balaca gədəmizin sünnətindən qalan ayın-oyunlardan bir düyünçə bağlayıb verərsən, el adətidir, gərək məktub gətirən əl boş qayıtmasın.

Di salamat qalın, məndən çoxlu narahat olun.

Ərin Məmmədqulu".

# ASAN Xidmət-in sədrinin 1-ci müavininin işdən çıxarılmasında Aslan Aslanov "izi"

## Rəşad Abbasov sabiq nazir müavininin əmlaklarını başqalarının adına rəsmiləşdirməkdə yardımçı olmasının güdazına gedib

**Xəbər verdiyimiz kimi, prezident İlham Əliyevin sərəncamı ilə Rəşad Abbasov ASAN Xidmət sədrinin birinci müavini vəzifəsindən azad edilib. Sədr müavininin işdən çıxarılması haqda sərəncam iyunun 9-da imzalansa da, bu haqda ictimaiyyət iyulun 1-də məlumatlandırılıb.**

Lakin yayılan məlumatlarda 2012-ci il sentyabrın 7-də bu vəzifəyə təyin olunmuş R.Abbasovun işdən çıxarılmasının səbəbi göstərilməyib. Ümumiyyətlə, vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edən bu qurumdan - ASAN Xidmətdən kiminsə prezidentin sərəncamı ilə vəzifəsindən azad olunması ilk dəfə baş verib deyə bunun səbəbi də həddən artıq maraq doğurur.

Redaksiyamıza rəis müavininin işdən çıxarılmasının ilginc səbəbi haqda məlumat daxil olub. Həmin məlumatda deyilir ki, R.Abbasovun tutduğu vəzifədən azad edilməsi Şəmkirin keçmiş icra başçısı, sonradan kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovla əlaqəlidir. R.Abbasovun A.Aslanova sənədləşmə məsələlərində qeyri-rəsmi yardım etməsi onun tutduğu postla vidalaşmasına gətirib çıxarıb. Qaynağımız R.Abbasovla A.Aslanovun qohumluq əlaqələrinin olduğunu da deyib. Onun sözlərinə görə, R.Abbasov "Azərneftyağ" İstehsalat Birliyinin baş direktoru olmuş mərhum Ramiz Mirzəyevin kürəkənidir. A.Aslanovun bacısı isə Ramiz Mirzəyevin həyat yoldaşıdır. Onlar yeznə-qayın olsalar da, münasibətləri gərgin olub. R.Mirzəyev dünyasını dəyişənə qədər onların gediş-gəlişləri belə olmayıb. R.Mirzəyev dünyasını dəyişəndən sonra A.Aslanovla onun ailəsi arasında yenidən münasibətlər yaranıb. Hətta 2012-ci ildə R.Abbasovun namizədliyinin irəli sürülməsində A.Aslanovun rolu-



nun olması haqda da məlumat var.

R.Abbasovun A.Aslanova hansı sənədləri düzəltməkdə yardımçı olması haqda məlumat yoxdur. Amma belə ehtimallar var ki, R.Abbasov A.Aslanova 2013-cü ildə tutduğu vəzifədən çıxarılandan sonra özünün və ailə üzvlərinin adına olan əmlakları digər şəxslərin adına rəsmiləşdirməkdə yardım göstərib.

Belə bir fakt barəsində "Yeni Müsavat"ın 20 mart 2015-ci il tarixli sayında dərc olunan "Aslan Aslanovun oğlunun adı yeni qalmaqalda" sərlövhəli yazıda yer almışdı.

Yazıda A.Aslanov tutduğu postdan uzaqlaşdırıldıqdan sonra əmlaklarını vaxtilə R.Mirzəyevin sürücüsü olmuş Valeh Ramazan oğlu Allahverdiyevin adına rəsmiləşdirməsi qeyd olunurdu. Böyük ehtimalla bu məsələlərdə R.Abbasov A.Aslanova yaxından kömək edib. Yada salaq ki, sürücü Valeh Ramazan oğlu Allahverdiyevin adı ilk dəfə mətbuatın gündəminə A.Aslanovun Ədliyyə Nazirliyində çalışan oğlu Turqay Aslanovun "avtoş"luğa görə saxlanılmasından sonra gəlmişdi. 2015-ci il fevralın 20-də gecə 1 radələrində Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polis İdarəsinin əməkdaşları Nəsimi rayonu ərazisində kobud qayda pozuntusu törədən bahalı "Bentley" markalı maşını saxlayıblar. Az 10 DO 007 dövlət nömrə nişanlı bu avtomobilin sürücüsünün sərxoş olduğu, eyni zamanda sənədlərin qaydasında olmadığı müəyyənləşmişdi. Buna görə də avtomobil 3-cü mikrorayonda yerləşən cərimə meydançasına aparılmışdı. Sonradan məlum olmuşdu ki, avtomobili idarə edən şəxs Aslan Aslanovun oğlu Turqay Aslanovdur. Həmin avtomobil 2008-2013-cü illərdə Turqay Aslanovun adına olsa da, 2013-cü ildə Allahverdiyev Valeh Ramazan oğluna etibarnamə verilib. Amma sayı məhdud, təxminən 300 min dollar dəyərində olan ağ rəngli "Bentley" daim Turqay Aslanov tərəfindən idarə olunub. "Bentley" və digər bir bahalı maşını - "Mercedes Gelenvagen"i hazırda A.Aslanovun "Vorovski"də, Daxili Qoşunların Baş İdarəsi ilə üz-üzə olan 33 nömrəli, 3 mərtəbəli villasının qarajında saxlanır. Yeri gəlmişkən, qeyd edək ki, A.Aslanovun həyat yoldaşının adına olan həmin villanı 5 milyon manata satışa çıxarması haqda məlumat da vardı. Bildirilirdi ki, bu əmlaklar da, T.Aslanovun "KİA" markalı avtomobili də "Bentley" kimi, Valeh Ramazan oğlu Allahverdiyevin adınadır.

**E.HÜSEYNOV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Şamaxının yol polisinin rəisi işdən çıxarıldı

**Şamaxının yol polis rəisi Mübariz Fətəliyev tutduğu vəzifədən azad olunub. DİN-in mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov az-vision.az-a açıqlamasında bildirib ki, polis rəisi daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən bölmənin xidməti fəaliyyətində yol verdiyi nöqsanlara görə vəzifədən azad olunub və sərəncama götürülüb.**

DİN rəsmisi bildirib ki, həmin idarədə çalışan bir neçə



əməkdaş da inzibati qaydada cəzalandırılıb.

E.Zahidov onu da qeyd edib ki, bəzi mətbuat orqanlarında polis rəisinin işdən çıxarılmasına göstərilən səbəblərin hamısı uydurmadır.

Qeyd edək ki, mətbuatda yayılan məlumatlarda Mübariz Fətəliyevin işdən çıxarılmasının səbəbi Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənovla əlaqələndirilib.

İddia olunub ki, bugünlərdə Şamaxıya gedən Kərəm Həsənovun avtomobili yerli yol polisləri tərəfindən saxlanılıb. Kərəm Həsənovu tanımayan polislər onunla kobud danışıblar. Sonradan maşınını saxladıqları şəxsin yüksək vəzifəli məmur olduğunu bildikdə üzrxahlıq ediblər. Lakin Kərəm Həsənov bununla kifayətlənməyib. O, yol polisləri barədə DİN rəhbərliyinə şikayət edib. Bundan sonra Mübariz Fətəliyev işdən çıxarılıb.

YENİ MÜSAVAT
N 149 (6177) 10 iyul 2015

# Prezidentin İtaliyaya səfərinin pərdəarxası

**Avropanın qaz bazarı uğrunda Rusiya ilə Qərb arasında gedən mübarizənin getdikcə açıq qarşıdurmaya, bu layihələrdə iştirak etmək istəyən ölkələrin hökumətləri üçün isə ciddi problemə çevriləcəyi barədə proqnozlar tam doğruldu. Azərbaycanın da iştirakçısı olduğu Trans-Adriatik Təbii Qaz Boru Xəttinə (TAP) qarşı Rusiyanın "Türk axını" layihəsini reallaşdırmaq istəyi son aylar bu gərginliyi nəzərəçarpacaq həddə artırmışdı.**




# Putinin "Türk axını" durduruldu, Bakı önə çıxdı...

"Qazprom" şirkəti qaz kəmərinin ilk qolunun inşasına dair müqaviləni ləğv etdi, Türkiyədən "Rusiya ilə hər hansı bir nəticə əldə olunmayıb" bəyanatı verildi; Kreml bu məğlubiyyətdən çox qəzəblənəcək və Qarabağda vəziyyəti daha da gərginləşdirə bilər; Azərbaycan prezidenti TAP-ın strateji ölkəsinə niyə gedib?

Qərb "Cənub axını" layihəsini Bolqarıstanın imtinası ilə nöqtələdikdən sonra Rusiya ötən il dekabrın 1-də Vladimir Putinin Ankaraya səfərində "Türk axını" layihəsini elan etmişdi. "Türk axını" ildə 63 milyard kubmetr Rusiya qazının Türkiyə vasitəsilə Yunanıstan sərhədinə çıxarılmasını nəzərdə tuturdu.

**Yunanlar indi "Türk axını"nın hayında deyil, Serbiya "gözüçıxmış" qardaşından dərs götürdü**

Yunanıstanın Avropa Birliyi ilə gərgin münasibətləri səbəbindən üzünü "Türk axını"na tutması və Rusiyaya dəstəyi xüsusilə ABŞ-ı ciddi narahat edirdi. Balkanlarda Makedoniyanın və Serbiyanın da Putinin projesinə qoşulmaqla bağlı mesajlarından sonra Qərb qəti hərəkətə keçdi. ABŞ bu ölkədəki səfirlikləri vasitəsilə hökumət rəhbərlərini "Türk axını"na deyil, TAP-a dəstək olmağa çağırdı. Vaşinqton TAP layihəsini ləngidən, Rusiyanın "Türk axını" layihəsinə qoşulmağa qərarlı olan Afinaya mayda xüsusi elçisini göndərdi. ABŞ Dövlət Departamentinin enerji resursları bürosunun xüsusi nümayəndəsi Amos Hoxşteyn Afinada Yunanıstanın energetika və təbii ehtiyatlar naziri Panaiyotis Lafazanislə danışıqlar apardı. Danışıqlardan sonra amerikalı diplomat açıq bildirdi ki, ABŞ Yunanıstanı "Türk axını" layihəsindən imtina etməyə çağırıb. Diplomat bunun əvəzində Yunanıstana Azərbaycan qazını Avropaya nəql edəcək TAP kəməri layihəsini dəstəkləməyi təklif edib. Diplomat demişdi ki, "Türk axını" iqtisadi əsası olan layihə deyil və açıq-aşkar siyasi mahiyyət kəsb edir.

Yunanıstan isə Kremlin vəd etdiyi güzəştlərə və kreditə arxayın olaraq ABŞ-ın, eləcə də Avropa Birliyinin xəbərdarlıqlarını qulaqardına vurdu. Yunanıstanın dikbaş hökuməti indi uçurumun bir addımlığındadır və "Türk axını" heç yadına belə düşmür.

Makedoniyanın baş naziri Nikola Qruevski isə ölkəsində Amerikaya yaxın olan müxalifətin başladığı aksiyalardan sonra "Türk axını" ilə bağlı qərarlılığını arxa plana keçirdi. Serbiya prezidenti Tomislav Nikoliç isə "gözüçıxmış qardaşlar"dan nəticə çıxararaq Moskvada 9 may paradında dediklərini təkzib etdi. T.Nikoliç "Avropa İttifaqı "Cənub axını" kəmərinin Bolqarıstan ərazisindən keçməsinə mane oldusa, "Türk axını" kəmərinin digər Avropa ölkələrinin, o cümlədən Yunanıstanın ərazisindən keçməsinə necə imkan verəcək? Deməli, burada bir çox qaranlıq nüanslar var. Ona görə də gözləyək görək necə olacaq" deyərək, prosesdən çəkildiklərinə açıq mesaj verdi.

Avropa Oyunlarının açılışında iştirak etmək üçün Bakıya gələn Vladimir Putinlə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı bir neçə saatlıq qapalı görüşdən sonra verilən sönük açıqlamalar "Türk axını"nın perspektivini ciddi şübhə altına aldı. Son üç gündə Moskvadan və Ankaradan gələn xəbərlər Qərbin Putinin böyük ümid bəslədiyi "Türk axını" layihəsini dayandırdığı qənaətini yaradır.

**Rusiya da "yox" dedi, Türkiyə də ...**

Əvvəlcə məlum olub ki, "Qazprom" şirkəti İtaliyanın "Saipem" şirkəti ilə "Türk axını" dəniz qaz kəmərinin ilk qolunun inşasına dair müqaviləni ləğv edir. TASS-ın bu barədə yaydığı xəbərində deyilir ki, bu qərara səbəb "Türk axını" layihəsinin həyata keçirilməsi istiqamətində bir çox iş və kommersiya məsələləri üzrə razılığın əldə edilməməsidir. "Qazprom" "Türk axını"nın ilk qolunun inşasını 2016-cı ilin sonunda başa çatdırmağı planlaşdırırdı.

**""Türk axını" ilə bağlı hələlik hər hansı bir nəticə əldə olunmayıb".** Bu sözləri isə Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldız deyib. Nazir deyib ki, hələlik layihədə hər hansı bir nəticə əldə olunmayıb və bəzi məqamlar tamamilə aradan qaldırılmayıb. **"Amma biz buna ümidliyik"** deyə, Taner Yıldız vurğulayıb.

"Bloomberg" agentliyi də "Qazprom" və Türkiyənin "BOTAŞ" şirkətləri arasında qazın qiyməti mövzusunda 6 aydır davam edən müzakirələrdən nəticə əldə olunmadığını xəbər verib. "Bloomberg"dən verilən məlumata əsasən, qazın qiyməti ilə bağlı aparılan müzakirələr zamanı tərəflər arasında yaranan anlaşılmazlıq səbəbindən "Türk axını" layihəsi imzalanmasının ən azı oktyabr ayına qədər təxirə salınıb.

Qeyd edək ki, "Türk axını" layihə üzrə ilk qaz nəqlinin 2016-cı ilin dekabrında həyata keçirilməsi planlaşdırılırdı. Amma indidən aydındır ki, əgər hər hansı razılaşma olsa belə, ilk qaz nəqlinin gələn ilin dekabrına nəqli qeyri-mümkündür.

"Türk axını"nın faktiki durdurulması diqqəti bu il martın 17-də Türkiyənin Qars vilayətində Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin iştirakı ilə TAP-ın davamı kimi nəzərdə tutulmuş TANAP-a yönəldir. Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirəcək bu layihə 7 milyard ABŞ dollarına başa gələcək. Layihənin ilk mərhələsi 2018-ci ildə yekunlaşacaq, 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti 16 milyard kubmetrə, 2023-cü ildə 24 milyard kubmetrə, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. Onu da deyək ki, ilk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr "Şahdəniz" qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. TANAP çərçivəsində Türkiyəyə ilk qazın nəqlinə 2018-ci ildə başlanması planlaşdırılır. 1850 kilometrlik TANAP xətti 2020-ci ilin əvvəlindən etibarən TAP-a bağlanaraq, Cənubi Qafqaz boru xətti vasitəsilə alacağı təbii qazı Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdıracaq.





**Prezidentin səfəri və Kremlin qəzəbi...**

Rusiya Azərbaycan qazının Avropa bazarına çıxışını əngəlləməyə çalışır. "Türk axını"nın faktiki dondurulmasından sonra Rusiyanın aqressiyasının artacağı gözləniləndir. Mümkündür ki, Kreml Qərbdən acığını çıxmaq üçün TAP-da iştirakçı dövlətləri, ən əsası Azərbaycanı müxtəlif vasitələrlə təhdid etsin. Hətta acıqlı Rusiya Qarabağda cəbhə bölgəsində vəziyyəti gərginləşdirmək istəyə də bilər.

Qeyd edək ki, Respublika günü ilə bağlı keçirilən tədbirdə prezident İlham Əliyev də ilk dəfə TAP layihəsinin həyata keçirilməsində problem yarandığına işarə edib. "Ümid edirəm ki, TAP qarşısında hər hansı süni manea meydana çıxmayacaq, ancaq belə əngəllər meydana çıxsa, əlbəttə ki, bundan udan tərəf olmayacaq" deyə, prezident xəbərdarlıq da etdi.

"Türk axını"nın qaranlıq taleyinin müzakirə edildiyi bir vaxtda Azərbaycan rəhbərinin İtaliyaya işgüzar səfəri diqqət çəkir.

Məlumdur ki, İtaliya TAP layihəsinə ciddi önəm verən ölkələrdəndir. İtaliyada boru kəmərinin quru hissəsinin tikintisi üzrə ilkin seçim mərhələsi artıq elan edilib. Terminal İtaliyanın "Snam Rete Gas" qaz nəqli şəbəkəsinə qoşulacaq.

İtaliya TAP-ın təqdim etdiyi ekoloji layihə haqqında sənədi də artıq imzalayıb. Bu o deməkdir ki, rəsmi Roma TAP-ın reallaşmasına ciddi maraq göstərməklə yanaşı, artıq bu planın gerçəkləşməsi üçün ilkin addımları atıb. Böyük ehtimalla prezidentin İtaliya rəsmiləri ilə görüşündə əsas müzakirə mövzusu TAP-la bağlı olacaq.

Maraqlıdır ki, energetika naziri Natiq Əliyev ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta ilə iyunun 8-dəki görüşündə "Türk axını" və TAP-la bağlı danışıb. N.Əliyev deyib ki,TAP-ın reallaşdırılması istiqamətində işlər qrafikə uyğun aparılır. Nazir TAP ətrafında müşahidə olunan problemlərdən də söz açaraq ABŞ-ın bu məsələdə mövqeyini yüksək qiymətləndirib: **"BTC nümunəsi də təsdiqləyir ki, iri enerji layihələrinin həyata keçirilməsi üçün siyasi dəstək çox vacibdir. TAP-ın reallaşması üçün də belə dəstək mühüm əhəmiyyət kəsb edir".**

ABŞ səfiri R.Sekuta isə bildirib ki, rəsmi Vaşinqton qazın hasilatı və nəqlində Azərbaycana köməyini bundan sonra da davam etdirəcək.

"Türk axını" ilə bağlı vəziyyət Qərblə Rusiya arasında gərginliyi daha da artıracaq ki, bu Azərbaycana da təsirsiz ötüşməyəcək...

❑ **"Yeni Müsavat"**






YENİ MÜSAVAT
N 149 (6177) 10 iyul 2015



# Rusiya agent şəbəkəsini ləğv edir?

Azər RƏŞİDOĞLU

**Rusiyanın əsas təbliğatçılarından olan "Milyarderlər İttifaqı"nın özünü buraxması çoxsaylı suallar doğurdu. Əsas sual isə hələ açıq qalır - Rusiya Azərbaycanda yenə də hakimiyyət dəyişikliyi həyata keçirmək istəyirmi, yoxsa artıq bu fikrindən daşındı?**

Son illər cərəyan edən proseslər Kremlin belə bir niyyəti olduğunu deməyə əsas verir. Belə bir məqsəd Rusiya üçün geosiyasi maraqlarına çatmaqdan ötrü lazım ola bilərdi. Lakin ən maraqlı sual da elə buradan meydana çıxır - tutaq ki, Azərbaycanda iqtidar dəyişikliyi baş verdi, ölkə diplomatiyasının kursu da dəyişəcəkmi?

Bu suala cavab verə bilməkdən ötrü 1993-cü ildəki hakimiyyət dəyişikliyini xatırlamaq kifayət edir. O zaman da çoxları ehtimal edirdilər ki, qısa bir zamanda Bakı Moskvanın forpostuna çevriləcək. Lakin Azərbaycan MDB üzvü olmaqla kifayətləndi, kiçik manevrlərdən sonra birmənalı şəkildə Qərbə yönəlik siyasət yürütdü və "Əsrin müqaviləsi"nə imza atdı.

Elə o zaman bəlli idi ki, Azərbaycan bir daha Rusiyanın forpostuna çevrilməyəcək. Artıq o zaman təhlilçilər əmin idilər ki, Rusiya bölgədən çıxmağa başlayıb, bu, qarşısıalınmaz prosesdir. Nə Qarabağ probleminin həlli məsələsində, nə də ki digər mühüm məsələlərdə Rusiya əsas oyunçuya çevrilə bilməyəcək. Proqnozlar özünü doğrultdu. Lakin yenə də Azərbaycanda "rus təhlükəsi" barədə nağıllar populyarlıq qazanır.

Bir tərəfdən deyilənlərdə həqiqət payı da mövcuddur.

Bu gün sanki V.Putin olduqca qəzəbli görünür və Azərbaycan Avrasiya İttifaqına daxil olmayacaqsa, hakimiyyət dəyişikliyinin reallaşa biləcəyini nümayiş etdirir.

Lakin burada bir məsələyə toxunmaq lazım gəlir. Hətta Rusiya öz namizədi olan baş nazirin sabiq müavini Abbas Abbasovu açıq şəkildə dəstəkləsə belə, geri çəkilməli olur. Bu gün "Milyarderlər İttifaqı" özünü buraxır, lakin problemlər həll olunmamış qalır. Rusiyadan Azərbaycana milyonlarla soydaşımızın qayıdışı və bunun fonunda Kremlin parlament seçkilərində revanş götürmək ehtimalı var. Bu ehtimal reallaşsa belə, yenə də Kremlin ofsayda düşməsi ehtimalı az deyil.

Xatırlatmaq yerinə düşərdi ki, Gürcüstanda Rusiyanın birmənalı agenti olan B. İvanişvili yeni baş naziri olduqdan sonra Tiflis daha çox qərbpərəst kurs sərgilədi. Elə bircə bu addım onu deməyə kifayət edir ki, hakimiyyət dəyişikliyi baş versə belə, bu, xarici siyasət kursunun dəyişməsi ilə sonuclanmaya da bilər.

Azərbaycanda da hətta ən ruspərəst bir sima iqtidara gələrsə, mövcud diplomatik kursun qorunub saxlanacağı ehtimalı xeyli dərəcədə böyükdür. Elə bu səbəbdən Kreml bu gün Azərbaycan hakimiyyətini laxlatmağa, zəifləmtməyə cəhd göstərməklə yanaşı, onu devirməkdə qətiyyən maraqlı görünmür. Hazırkı qeyri-müəyyən bir dövrdə Rusiyaya mövcud Azərbaycan hakimiyyəti ilə əməkdaşlıq daha cəlbedici görünə bilər. Lakin bu da parlament seçkisinin taleyinin tam mənada həll olunması anlamına gəlmir. Seçkilərə hələ var. Qarşıda gərgin mübarizə dayana bilər...

# Seçkilər öncəsi mitinqlər olacaqmı?

**Bu ilin noyabrında Azərbaycanda parlament seçkiləri keçiriləcək. Hazırda gündəmdə olan əsas məsələlərdən biri kütləvi aksiyaların keçirilməsidir. Hər seçki öncəsi artan fəallıq nəticəsində bu cür aksiyaların şahidi oluruq. Amma hələ ki seçkilərə üç aydan bir qədər artıq zaman qalmasına baxmayaraq, bu hal müşahidə olunmur.**

Çoxları bu susqunluğu oruclUq və yay fəsli ilə əlaqələndirirlər.

**Müsavat başqanının müavini Elman Fəttah** sərbəst toplaşmaq azadlığına yaradılan manelərdən danışdı: "Hazırda seçkilər çərçivəsində namizədlərin müəyyən edilməsi, daha çox sənədləşmə işləri zaman alır. Həm də yay fəslidir, Ramazan ayıdır. Üzvlərin çoxu rayonlardadır. Hər halda, Ramazanda üzvlərin səhhətini nəzərə almaq lazımdır. Ramazandan sonra aksiyalarla bağlı məsələlər müzakirə olunacaq. Seçki öncəsi kütləvi aksiyaların keçirilməsi mütləqdir. Ümumiyyətlə, ölkəmizdə sərbəst toplaşmaq azadlığına ciddi manelər var. Müsavat Partiyasının yürüşünə icazə verilməməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti ilə məhkəməsi davam edir. Növbəti proses iyulun 18-nə təyin edilib. Azərbaycan hakimiyyəti Müsavat Partiyasını mitinqlər üçün ətrafı çarpazlanmış, darvazalardan ibarət stadiona məhkum edib. İlk növbədə biz bunun sərhədlərin genişləndirilməsi uğrunda mübarizə aparacağıq. Real olaraq sərbəst toplaşmaq azadlığına nail olacağıq. Hüquqi və siyasi müstəvidə mübarizə davam edəcək. Yürüş-mitinqlərin keçirilməsi məsələsi daim gündəmdədir.



**Elman Fəttah:** "Seçki öncəsi kütləvi aksiyaların keçirilməsi mütləqdir"



**Əhməd Oruc:** "Hələ ki aksiya ilə bağlı yekun qərar yoxdur"

Xüsusilə seçki öncəsi bu istiqamətdə qərarlarımız olacaq".

**Başqan müavini qarşıdakı aylarda təkcə seçki ilə bağlı mitinq keçirməyəcəklərini qeyd etdi:** "Bizim üçün əsas məsələ siyasi məhbuslardır. Onların azad olunması istiqamətində atacağımız addımlar müzakirə olunur. Bu problemin həll olunmasına nail olacağıq. Beynəlxalq insan haqları təşkilatları ilə müzakirə və əlaqələrimiz davam edəcək. Hakimiyyətdən tələblərimiz var. Təəssüflər olsun ki, mesajlarımıza hakimiyyət hədsiz dərəcədə aqressiv yanaşır. Mesajlardan ibrət almaq əvəzinə hücum kampaniyası təşkil edir. Amma bütün hallarda aksiyaların keçirilməsi gündəmdədir".

**Qarşıdakı ayda "Azadlıq-2015" seçki blokunun aksiyası da planlaşdırılır. Quruma daxil olan Azadlıq Partiyasının sədri Əhməd Oruc keçirəcəkləri aksiya ilə bağlı bunları dedi:** "Aksiya keçirmək hər bir siyasi qurumun hüququdur. İstənilən blok, partiya aksiya keçirə bilər. Blokda bu məsələ geniş müzakirə olunub. Amma hələ ki aksiya ilə bağlı yekun qərar yoxdur. Seçkilər öncəsi bu tipli aksiyalar tərəfdarlarla görüş keçirmək baxımından vacibdir. Bu baxımdan aksiyalarımız qaçılmazdır".

❑ Cavanşir ABBASLI

# 12 siyasi partiyanın dövlət qeydiyyatı ləğv oluna bilər

**2014-cü ilin illik maliyyə hesabatını təqdim etməyən 12 siyasi partiya ilə bağlı Mərkəzi Seçki Komissiyası (MSK) Ədliyyə Nazirliyinə müraciət edib. APA-nın məlumatına görə, bu barədə MSK sədrinin müavini Natiq Məmmədov bildirib.**

Maliyyə hesabatı təqdim etməyən partiyaların adını açıqlamayan N. Məmmədov Azərbaycanda dövlət qeydiyyatına alınmış 55 siyasi partiyadan 33-nün keçən ilin maliyyə hesabatını MSK-ya təqdim etdiyini, hazırda hesabatların araşdırıldığını qeyd edib: "Təqdim edilən hesabatlarda müəyyən nöqsanlar var. Bu nöqsanların bir qismi MSK-ya maliyyə hesabatlarının siyasi partiyalar tərəfindən ilk dəfə təqdim olunması təcrübəsi, bir qismi partiyaların öz mövqeyi, bir qismi isə partiyaların fəaliyyətinin keyfiyyət xarakteri ilə bağlıdır. Amma bunlara baxmayaraq, hesab edirəm ki, ictimaiyyət müəyyən edilən müddətdə MSK-nın saytında yaradılan xüsusi bölmədə yerləşdiriləcək siyasi partiyaların hesabatı ilə tanış ola biləcək".

Qeyd edək ki, 2014-cü il oktyabrın 1-də Milli Məclis "Siyasi partiyalar haqqında" Qanuna dəyişikliklər edib. Əvvəllər siyasi partiyalar illik maliyyə hesabatlarını hesabat dövrü başa çatdıqdan sonra növbəti ilin aprel ayının 1-dən gec olmayaraq Maliyyə Nazirliyinə təqdim edirdilər.

Dəyişikliyə əsasən siyasi partiyalar bu ildən başlayaraq illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq, MSK-ya təqdim etməlidir. Eyni zamanda MSK bu barədə məlumatları internet saytında yerləşdirməli və ictimaiyyət məlumatlandırılmalıdır. Ədliyyə Nazirliyinin maliyyə hesabatlarını təqdim etməyən siyasi partiyaların dövlət qeydiyyatını ləğv etmək səlahiyyəti var. Ancaq MSK-nın aprelin 7-də keçirilən iclasında MSK katibi Arifə Muxtarova qanunvericilikdə nəzərdə tutulmuş müddətdə, yəni aprelin 1-dək dövlət qeydiyyatına alınmış 55 siyasi partiyadan yalnız 22-sinin illik maliyyə hesabatını MSK-ya təqdim etdiyini açıqlamışdı.

MSK sədri Məzahir Pənahov da MSK-nın aprelin 7-də keçirilən iclasında bildirmişdi ki, indiyə qədər siyasi partiyaların fəaliyyəti Ədliyyə Nazirliyi tərəfindən dayandırılmayıb. M. Pənahov vurğulamışdı ki, istəmirlər ki, maliyyə hesabatı təqdim etməyən partiyalarla bağlı MSK Ədliyyə Nazirliyinə müraciət etsin, Ədliyyə Nazirliyi də MSK-nın fəaliyyəti nəticəsində siyasi partiyaların fəaliyyətini dayandırsın. Buna görə də MSK aprelin 1-dən sonra da siyasi partiyaların illik maliyyə hesabatlarını qəbul etməyə davam edib.

# Akif Nağı Gürcüstan rəhbərliyinə müraciət etdi

**Qarabağ Azadlıq Təşkilatının sədri (QAT) Akif Nağı artıq bir ildir ki, Gürcüstana girişinə qadağa qoyulması ilə bağlı bu ölkənin prezidenti və baş nazirinə məktub göndərib. Qurumdan aldığımız məlumata görə, məktublarda deyilir: "Mən bu qadağa ilə 2014-cü il iyunun 5-də üzləşmişəm. Həmin vaxt Türkiyədən qayıdarkən Sərpi keçid-sərhəd məntəqəsində saxlanılaraq geri qaytarılmışam.**

Həmin gündən bir ildən çox vaxt keçib. Lakin bu günə qədər mənə bu qadağanın səbəbini izah etməyiblər. Mən bir neçə dəfə Gürcüstanın Xarici İşlər Nazirliyinə, Gürcüstanın Azərbaycandakı səfirliyinə müraciət etmişəm, lakin heç bir aydın cavab almamışam". A.Nağı qeyd edib ki, 2013-2014-cü illərdə bir neçə dəfə Gürcüstanda olub, qeyri-hökumət təşkilatları, universitet rəhbərləri və tələbələri, Abxaziya və Cənubi Osetiyadan olan məcburi köçkünlər və digər nümayəndələrlə görüşüb: "Biz Azərbaycan və Gürcüstan arasındakı ictimai əlaqələrin inkişafı, münaqişələrlə bağlı informasiya mübadiləsi, işğala və separatizmə qarşı birgə fəaliyyət istiqamətlərinə dair müzakirələr aparmışıq. Mən hər yerdə Azərbaycan və Gürcüstan xalqları və dövlətlərinin dostluğunu, əməkdaşlığının vacibliyini təbliğ etmişəm. Ona görə də mənim Gürcüstana girişimə qadağa qoyulması başa düşülən deyil və yalnız anlaşılmazlıq, ya da təxribat ola bilər.



Akif Nağı

Xahiş edirəm, bu məsələyə müdaxilə edəsiniz və mənim barəmdə verilmiş bu yanlış qərarın ləğv olunmasına və yaxud günahım varsa, onun açıqlanmasına yardımcı olasınız".

Xatırladaq ki, Gürcüstanın Azərbaycandakı səfirliyində də A.Nağının məsələsini araşdıracaqlarını desələr də, bu günə qədər qadağanın səbəbi izah edilməyib. Səfirliklə əlaqə saxlamaq cəhdimiz alınmadı.

❑ Vüqar MURAD

YENİ MÜSAVAT
N 149 (6177) 10 iyul 2015

# Qida zəhərlənmələri niyə artıb?

## Adil Qeybulla: “Qidaları təmiz halda və gecikdirmədən yemək lazımdır”
## Eyyub Hüseynov: “Azərbaycanda təmiz qarpızların çəkisi 5-6 kiloqramdan artıq olmur, qarpıza bıçaq vuran kimi partlamalıdır...”

**Son vaxtlar qida zəhərlənmələrinin sayı artıb. Bəzən yay mövsümünü həm də qida zəhərlənməsi mövsümü də adlandırırlar. Çünki isti aylarda baş verən qida zəhərlənmələri daha çox olur. Həm temperatur şəraiti, həm də istidə bakteriyaların sürətlə yayılması zəhərlənməni qaçılmaz edən səbəblərdəndir.**

Bəzi məhsullar daha tez-tez hallarda qida zəhərlənmələrinə səbəb olur. Bu qidaların arasında müxtəlif “fast-fud” qidaları - dönər, qamburqer, pirojki, qutab və sairə var. Əksər hallarda bu qidalar çöldə satılır və hətta bişirilir. Bu isə onları olduqca təhlükəli edir. Ümumiyyətlə, bu ilin yanvar-iyun aylarında 331 qida zəhərlənməsi baş verib. Səhiyyə Nazirliyindən virtualaz.org saytına verilən məlumatda deyilir ki, bu zaman 418 nəfər zəhərlənib, 14 nəfər botulizmlə xəstələnib.

Botulizm xəstəliyinin başvermə səbəbləri ev şəraitində konservləşdirilmiş məhsullar, digər zəhərlənmələrə səbəb isə məişət şəraitində hazırlanmış kulinariya məhsulları, kremli tortlar, müxtəlif salatlar və digər məhsullar olub.

Bəs zəhərlənmələrin qarşısını almaq üçün nə etməliyik? **Tibb elmləri doktoru, professor Adil Qeybulla** bildirdi ki, bunun üçün qidaları təmiz halda və gecikdirmədən yemək lazımdır: “Zəhərlənmə bütövlükdə götürəndə nə orqanizmdən, nə də istidən asılıdır. Sadəcə olaraq, qida zəhərlənmələrinin yay aylarında daha çox baş verməsi meyvənin daha çox istehlakının yay aylarına düşməsi ilə bağlıdır. Həm də yay aylarında qidaların saxlama qaydaları bəzən pozulur. Ümumiyyətlə, qida zəhərlənmələri çoxsaylıdır. Hər bir qida əksər mikroblar üçün qida vasitəsidir. Ona görə də qida düzgün saxlanılmazsa, temperatur rejimi düzgün seçilməzsə zəhərlənmə halı baş verir. Xüsusilə də ət bulyonları, tərkibində ət olan yeməklər mikroblar üçün qida bazasına çevrilir”.

**A.Qeybulla ən qorxulu zəhərlənmənin ev şəraitində baş verən botulizm olduğunu və bunun əksər vaxtlarda ölümlə nəticələndiyini dedi:** “Botulizm adətən ölümlə nəticələnən qida zəhərlənməsinə gətirib çıxarır. Buna görə də boyat qidaları uzun müddət saxlamaq məqsədə uyğun deyil. Qidaları daha çox təmiz halda və gecikdirmədən, yəni boyatmadan yemək lazımdır. İkinci tərəfdən də yetişən meyvələrin içərisində olan müxtəlif maddələr, xüsusilə də vaxtından əvvəl istixanalarda, xüsusi süni şəraitdə yetişdirilən və becərilən tərəvəzlərdə bəzi parazitlərlə mübarizə üçün tələb olunan maddələrin, gübrələrin toplanması baş verir. Bunun özü də toksik zəhərlənməyə gətirib çıxara bilər. Ona görə də yaxşı olardı ki, tərəvəzlərin təbii yetişmə dövründə ondan istifadə edək. Yəni may ayında təbii ki, qarpız yetişmir. Bu, iyul, avqust aylarında yetişir və bunu öz vaxtında yemək lazımdır. Tərəvəz istifadə etmədən əvvəl yaxşıca yuyulmalıdır. Aldığımız tərəvəzin təzə olmasına əmin olmaq lazımdır. İnsanlar bu şərtlərə əməl etsələr, yəqin ki, zəhərlənmə halları da minimum olar”.



**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov zəhərlənmələrin həm də dövlət orqanlarının zəif nəzarəti nəticəsində baş verdiyini dedi:** “Azərbaycanda qida zəhərlənməsi ümumdünya göstəricisindən 250 dəfə az göstərilir. Bunun da səbəbləri var. Çünki Səhiyyə Nazirliyi həm əhalinin sağlamlığının keşiyində durur, həm də sertifikat üçün hər şeyi guya ki, yoxlayır. Lakin nisbi götürəndə zəhərlənmə hallarında artma var. Bu onunla bağlıdır ki, bu il qarpız erkən çıxdı. Güman olunur ki, bu istixanalarda yetişən qarpızlardır. Kifayət qədər toksitlərdən, nitratlardan istifadə edilir. Əlbəttə, isti yay aylarında insanların qarpızlara olan tələbatı da zəhərlənmələrin artma səbəblərindən biridir. Həmçinin zəhərlənmələr dövlət orqanlarının zəif nəzarəti, Kənd Təsərrüfatı Nazirliyinin kəndçilərin yanında bostanda məhsulları yoxlamır, gəlib Bakıda satılan yerdə yoxlaması kimi istehlakçı hüquqlarının zəif qurulması məsələlərindən doğur. Əhali bilməlidir ki, insan gün ərzində 200-300 milli qram miqdarında nitrit qəbul etsə, bu təhlükəli deyil. Gün ərzində 600-700 milliqram nitrit qəbulu artıq zəhərlənmə dozasıdır. Əgər qarpızda nitritlərin miqdarı 1 kiloqramda 350 milliqramdırsa, buradan başa düşmək lazımdır ki, insan 2 kiloqramdan artıq qarpız yediyi təqdirdə zəhərlənə bilər. Mən bu hesablamaları ona görə dedim ki, az yeyilsə, zəhərlənmə olmaya bilər. İnsanlar qarpız seçən zaman bilməlidir ki, Azərbaycanda təmiz qarpızların çəkisi 5-6 kiloqramdan artıq olmur. Qarpızın qabığının qalınlığı yarım millimetrdən artıq olmalıdır. Onu kəsəndə al qırmızı rəngdə olmalıdır. Çəhrayı rəngdə olan qarpız şirin olsa da onun tərkibində çoxlu nitritlər olur və insanları zəhərləyir. Qarpıza bıçaq vuran kimi partlamalıdır. Bu amillərə fikir vermək lazımdır”.

❑ Günel MANAFLI

## 600 kq qarpız-yemiş satışdan çıxarıldı

**Bazarlarda satılan yemiş və qarpızların yoxlanış monitorinqləri zamanı təxminən 600 kq qarpız və yemiş satışdan çıxarılıb. Bunu lent.az-a açıqlamasında Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin Respublika Nəzarət-Toksikologiya Laboratoriyasının rəhbəri Yaqub İbrahimov deyib.**

Y. İbrahimovun sözlərinə görə, mövsümlə əlaqədar bazarlarda satılan yemiş və qarpızlarda gübrələrin miqdarının yoxlanılması tədbirləri davam etdirilir. Tərkibində nitratın miqdarı yüksək olan qarpız, yemiş bitkiləri artıq satışdan çıxarılıb: “Bakıda yerləşən bazar və pərakəndə satış obyektlərində yoxlama aparmışıq. Tərkibində nitrat miqdarı çox olan qarpız, yemişlər satışdan çıxarılıb. Yoxlama prosesini bölgələrdə davam etdirməyi də planlaşdırırıq”.

Yol kənarlarında satılan qarpız, yemişləri almaq isə doğru deyil. Y. İbrahimov bu bitkilərin yoxlanmadığını deyib: “İnsanlar doğru olmasa da, daha çox yol kənarlarındakı qarpız, yemişləri alıb yeyirlər. Biz əsasən iri bazar və pərakəndə satış obyektlərində yoxlama apardığımız üçün yol kənarlarında satılan qarpız, yemişlərə görə məsuliyyət daşımırıq. Ancaq bu problemin həlli üçün gələcəkdə qarpız, yemiş bitkilərinin birbaşa sahədə yoxlanması üçün səyyar laboratoriyaların təşkili nəzərdə tutulur ”.

Qarpız yemək üçün avqust ayını gözləməyi məsləhət görən Y. İbrahimovun sözlərinə görə, iyul ayının sonu, avqust ayının əvvəlində qarpızın tərkibindəki nitratın miqdarın normaya uyğun olduğu üçün onu rahatlıqla yemək olar.




# Ruslar da Azərbaycan dilindən “2” aldı, bizimkilər də...

## Ana dilinə sayğısızlığın səbəbləri nədir?

**Azərbaycanda 42 mindən çox şagird Ana dilindən “2" alıb. Biabırçı nəticə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) 2, 6, 11, 16 iyunda ölkənin bütün orta ümumtəhsil müəssisələrində mərkəzləşdirilmiş qaydada keçirdiyi buraxılış imtahanlarının nəticələrinə dair yaydığı statistik məlumatda açıqlanıb.**

Belə ki, nəticəyə görə ümumi orta təhsil bazasında (9 illik) keçirilən buraxılış imtahanlarında 25 329 nəfər, XI sinif üzrə isə 17 089 nəfər Ana dilindən “2" qiyməti alıb.

Bu nəticə orta təhsil məktəblərində Ana dilinə olan saygısızlıqdan xəbər verir. Bəs görəsən, bu, nədən irəli gəlir?

**Filologiya elmləri doktoru, professor, AMEA-nın üzvü Sayalı Sadıqova** bu barədə “Yeni Müsavat”a danışarkən bildirdi ki, məktəblərdə ana dilinin aşağı səviyyədə olmasında Təhsil Nazirliyini qınamaq lazımdır: “Şagirdlərin imtahanlarda göstərdiyi nəticə bizim üçün ultimatum olmalıdır. İngilis dilindən şagirdlər yüksək bal toplayır, lakin ana dili üçün olan nəticə çox aşağı səviyyədədir. İngilis dilindən öncə ana dilimiz yüksək səviyyədə tədris olunmalıdır. Ana dili üçün mükəmməl dərsliklər tərtib edilib. Qalır o dərsliklərin şagirdlərə yüksək səviyyədə tədris edilməsi. Lakin onun necə tədris olunması göz qabağındadır. Bir filoloq kimi bütün dərsliklərdən razıyam, burda Azərbaycan dilinin bütün sahələri öz əksini tapıb. Qeyd edim ki, həmin dərsliklərdə heç bir akademik proqram yoxdur, hamısı demək olar ki, orta məktəb səviyyəsindədir. Dövlətin də bu sahədəki siyasəti təqdirəlayiqdir. Belə ki, ölkə prezidentinin 2012-ci il 23 may tarixli ”Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamı var. Və bu sərəncamdan irəli gələn vəzifələri həyata keçirmək üçün orta məktəb müəllimlərinin üzərinə ciddi məsuliyyət düşür. Təhsil Nazirliyi bu barədə daha ciddi tədbirlər görməlidir".



Məlahət Mürşüdlü

## Məlahət Mürşüdlü: “Dərsliklər də çox aşağı səviyyədədir”

**Təhsil eksperti Məlahət Mürşüdlü isə ana dili dərsliklərinin lazımi səviyyədə olmadığını deyib:** “Deməzdim ki, ölkədə ana dilinə qarşı saygısızlıq var. Onun öyrənilməsi, təbliğ edilməsi həm Təhsil Nazirliyi səviyyəsində, həm də hüquqi müstəvidə öz əsasını tapıb. Bu dərsliyin proqramı ildən-ilə dəyişir, lakin müəllimlər köhnə qaydalardan əl çəkmək, dəyişmək istəmirlər. Dərsliklər də çox aşağı səviyyədir. Ana dili tədris proqramlarında bəzi elementlər aradan götürülüb. Məsələn, rabitəli nitqin inkişafı üçün əlavə məşğələlər var idi ki, hazırda onlar dərsliklərdən çıxarılıb”.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 149 (6177) 10 iyul 2015

# Efirimizdəki üzqaraldan qalmaqallar

## Azərbaycanın milli efirində bu günə qədər baş verən qalmaqalların qısa xülasəsi: təhqir, savaş...

**Son günlər milli efirdə baş verən qalmaqallar ictimaiyyətin nəzərindədir. Verilişlərdə aparıcı və qonaqların ağzından çıxan qəfil söyüşlər, əxlaqsız ifadələr müzakirə mövzusudur. Məlum, bu qalmaqalların bəzisinə görə verilişlər qapanıb, bəzilərinin aparıcısı dəyişdirilib. Hətta telekanal rəhbərliyindən Milli Teleradio Şurası rəhbərliyindən üzr istəyənlər və izahat məktubu yazanlar da olub. Və bu proseslər baş verən zaman tamaşaçıları, xüsusən də bu barədə yazan medianı daha çox məlum sual düşündürüb: niyə son günlər telekanallar bu qədər əndazəni aşıb, qalmaqallar hansı səbəbdən bu qədər çoxalıb?**












Amma "Yeni Müsavat" son illərin telegüzgüsünə nəzər salıb, bu qalmaqalların intensiv olduğunu görüb. Bunların gündəmə bu qədər çıxmamasının səbəbi isə insanların onu şişirtməməsi və ya çox maraq doğurmamasıdır. Amma sən demə, tez-tez efirdə medianın gündəminə gəlməyən, müzakirəsinə səbəb olmayan belə dava-dalaş, təhqir-söyüş xarakterli verilişlər baş veribmiş. Onların bir neçəsini sizə təqdim edib, tarixə "ekskursiya" edək. Unutmayaq, unutdurmayaq: bizim efir hər zaman belə olub, indi məsum körpələr kimi təəccüblənməyin mənası yoxdur.

### Stolun üstündəki əşyaları jurnalistin başına atan müğənni...

2014-cü ilin aprelində "Düz üzünə" verilişinin qonağı olan əməkdar artist Şəbnəm Tapdıq bir rəfiqəsinin onun haqqında süjetdə səsləndirdiyi sözlərə olduqca sərt reaksiya verib. Xanım Şəbnəm Tapdığın gənclik illəri ilə bağlı gizli sirrini üzə çıxarıb. Deyib ki, Şəbnəm xanım 90-cı illərdə Türkiyədə bir neçə əməliyyat keçirib. Süjetdə səsləndirilən fikirlər Şəbnəm xanımın xeyli əsəbiləşməsinə və aqressivləşməsinə səbəb olub. Süjetdən dərhal sonra jurnalist Alim Nəbioğlunun Şəbnəm xanıma verdiyi sual isə müğənnini lap özündən çıxarıb. Əsəbiləşən xanım jurnalistə stolun üzərindəki əşyaları ataraq, onu hədələyib və nalayiq söyüşlərlə təhqir edib.

Verilişin yaradıcı heyəti mübahisəni aradan qaldırmaq və Şəbnəm xanımın əsəblərinin sakitləşdirilməsi üçün xeyli çalışmalı olub. Jurnalist Alim Nəbioğlunun xanımdan heç bir qəbahəti olmasa da, üzr istəməsinə baxmayaraq, Şəbnəm xanım təkidlə jurnalistin verilişdə iştirak etməməsini istəyib. Alim Nəbioğlu verilişi tərk etməli olub.

### "Ayağımı ayağımın üstünə aşırmışam, əcəb eləmişəm"

2014-cü il aprelin 7-də ANS-in efirində aktrisa Fidan Axundovanı pərt ediblər. "Bazar səhəri Rövşənə ilə" verilişində qonaq olarkən müəllif aktrisaya gələn SMS-i oxuyub: **"Xanımlıqdan danışır, amma utanmır, ayağını ayağının üstünə aşırıb".**

Mesajdan özünü itirən aktrisa əsəblərini cilovlaya bilməyib: **"Mən uzun əlbisə geyinmişəm və buna görə ayağımı ayağımın üstünə aşırmışam. Belə də ki, lap əcəb eləmişəm".**

ATV-də yayımlanan "Azərbaycanın səsi" verilişində xoşagəlməz hal yaşanıb. Aparıcı Günay Firudinqızının yarışmada münsif kürsüsündə əyləşən əməkdar artist Elza Seyidcahanı "Elza" deyə təqdim etməsi qarşı tərəfi özündən çıxarıb. E.Seyidcahan səhnəyə gələrək etirazını bildirib və ona "əməkdar artist" deyilməsini tələb edib: **"Sən Günay xanımsansa, mən də Elza Seyidcahan - əməkdar artistəm. Mənə bu adı dövlət verib. Məni o cür təqdim edin. "Elza" deyəndə məni qaldırıb, özünü salırsan. Siz bizə ad-soyadla müraciət etməyin. Bizdən tərbiyə alanlar səhvlərə yol verməsinlər. Kobudluq eləmirəm, Günay sənətimi dəyərləndirən biri olub. Ad xəstəsi də deyiləm. Tamaşaçılar baxır. O boyda Nərgiz Cəlilova insanları qazandığı adla çağırır".**

**E.Seyidcahana "Qəribədir, siz hər dəfə yarışma başlayanda belə edirsiniz. 14-15 ildir bu sahədəyəm, təcrübəm var. Bu vaxta qədər hər zaman verilişlərimdə sizə "Elza" və "Elza Seyidcahan" deyə müraciət etmişəm. Etiraz bildirməmisiniz. İndi bunu şou xatirinə edirsiniz. Sizin bu hərəkətinizi mənfi qiymətləndirirəm"** deyən Günay müğənninin mikrofonunun söndürülməsini tələb edib.

### Canlı yayımı tərk et... yox, sən tərk et!

Space TV-də teleaparıcı Mikayıl Güləddinoğlunun təqdimatında yayımlanan "Səvimli şou" verilişinin sonuna yaxın baş verən hadisə də qalmaqala səbəb olub. Hər şey içində məktub olan gül dəstəsinin canlı yayıma göndərilməsindən sonra baş verib. Tanınmış ifaçılar - Zöhrə Abdullayeva, Qədir Qızılsəslə birlikdə qonaq olan estrada müğənnisi Günel Ələkbərova öncə inanmaq istəməyib ki, bu hədiyyə məhz onun adına studiyaya gətirilib.

Teleaparıcının israrı məsələnin heç də zarafat olmadığını ortaya qoyub. Hər vəchlə məktubu açmağa çalışan Mikayıl istəyini gerçəkləşdirə bilməyib. Günel cəld tərpənib qızılgül dəstəsini Zöhrə xanıma bağışlayıb və verilişin bitməsini gözləmədən zərfi də götürüb canlı yayımı tərk edib.

Prodüser Tolik və aparıcı Cavid Gül arasında canlı yayımda qalmaqal yaşanıb. Prodüser "Kimdir nömrə 1?"in aparıcısı Cavid Gülün ünvanına xoşagəlməz sözlər söyləyib. O, aparıcını maraqsız insan adlandıraraq, onu tamaşaçıların tanımadıqlarını iddia edib: **"İnsanlar məni tanıyırlar, amma səni yox. Baxmayaraq ki, özünü Murad Boza, Tarkana oxşatmaq istəyirsən... Bu ölkədə bəzi aparıcıları və müğənniləri tanımaqdansa, məni tanısınlar. Xalqın gözü tərəzidir. "Tolik" desən hamı biləcək prodüserəm. 20 illik xalq artisti Brilliant Dadaşova səni tanımırsa, nə deyim? Korifey sənətkarlar, Arif Babayev, dəyərli bəstəkarlar, şairlər bu verilişə zəng ediblər, məni tanıyıblar. Amma səni yox. Bu da sənin günahındır ki, maraqsız olmusan. Bu verilişdə oturmuşamsa, demək, sözümü demiş prodüserəm".** C.Gül "Brilliant Dadaşova məni tanımaya bilər. Burada nə var ki? Mən efirdən həqiqətən də gedirəm", - deyərək canlı yayımı tərk edib. "Cavid Gül burada kapriz göstərəcəksə, heç nə alınmaz. Mən getdim", - deyən Tolik də studiyadan gedib. Studiyada tək qalan aparıcı Afaq Gəncəli bunu özünə qarşı hörmətsizlik adlandırıb: **"Bu, mənə qarşı hörmətsizlik idi. Qadın kimi məni studiyada tək qoyub getmək lazım deyildi. Toliki başa düşərəm, onun sağı-solu bəlli deyil. Ən azından Cavid qayıtsın. Mənə qarşı hörmətsizlik varsa, mən də studiyadan gedəcəm".** Daha sonra Tolik və C.Gül efirə qayıdıblar.

### "Onu bundan da pis günə qoyduracam" - canlı yayımda hədə....

Əməkdar artist Mehriban Xanlarovanın meyxanaçı Namiq Qaraçuxurlunu hədələməsi də milli efirdə baş verən olaylardan biridir. "Ümid var" proqramında qonaq olan aktrisa aparıcı Zaur Baxşəliyev tərəfindən gözlənilməz addımla qarşılaşıb. Proqramın yaradıcı heyəti N. Qaraçuxurlu ilə telefon əlaqəsi yaradaraq baş verən insidentə münasibət öyrəniblər. Meyxanaçı aktrisa tərəfindən hədələndiyini təsdiqləyib.

Amma döyülməsi barədə yayılan xəbəri inkar edib. Efirdə gedən telefon söhbətindən sonra Mehriban Xanlarova pis vəziyyətə düşərək Baxşəliyevə irad bildirib. Mövzunun efirə çıxarılmasından narazı qalan aktrisa studiyanı tərk edib. Getməzdən əvvəl isə Zaura tamaşaçıların şahidliyi ilə Qaraçuxurlu üçün "onu ondan da pis günə qoyduracam. Bunun cinayət olduğunu bilirəm, cəzamı da çəkməyə hazıram"-deyə Namiqi bir daha hədələyib.

### Canlı yayında "nənə söhbəti" və "cavan ər" qalmaqalı

ATV telekanalında yayımlanan "Ümid var" verilişinin eksperti Mehriban Xanlarova müğənni Səidə Sultanı kəskin tənqid edib.

Bu sözlərə əsəbiləşən Səidə verilişə qoşularaq aktrisanı biabır edib: **"Mehriban xanım, Bakı balaca şəhərdi. Hamı-hamını yaxşı tanıyır, insanların başqasının quyruğundan xəbəri var. Bunu eşidin və bilin. Bütün Azərbaycan sizi tanıyır. Əgər nənən sənin başına bu oyunu açsaydı, nə edərdin? Hər kəs öz quyruğunu bilsin və nəticə çıxarsın. O qadın məni biabır edib, onu necə qəbul edim? Hadisəyə düzgün yanaşmağı bacarmaq lazımdır. Efir xatirinə rola girmək olmaz. Əgər elə yaxşı insandırsa, Mehriban xanım götürsün onu özü saxlasın".**

Müğənninin sözlərindən halı pisləşən əməkdar artist dərman içmək məqsədilə efiri tərk edib.

Daha öncə Səidənin nənəsi onu evdə başqa biriylə yaxaladığı haqda açıqlama verməşdi.

Xalq artisti Brilliant Dadaşovanın bacısı müğənni Lalə Dadaşova və meyxanaçı Samirə arasındakı qalmaqal da canlı yayımda baş verib. İki sənətçi "Ümid var"da görüntülənib.

Qalmaqala səbəb Samirə xanımın Lalə Dadaşovanın ərinin ondan yaşca kiçik olması barədə açıq-açığa danışması olub. Bu sözdən qəzəblənən müğənni meyxanaçı barədə bu sözləri səsləndirib: **"O əxlaqsız qadına deyin mənim adımdan danışmasın. O adam mənim tayım deyil. Düzdü, birlikdə işləmişik. Amma mən biləndə o əxlaqsızdı, ondan ayrıldım. Mən onun kimi 20 yaşlı oğlanlarla gəzməmişəm. Düzdü, həyat yoldaşım məndən yaşda balaca olub, ancaq oğlum yaşda biri deyildi... Elçin məgər mənim oğlum yaşdadır? O necə söyüşlər söyür, necə əxlaqsızdır siz bilmirsiniz. Mənim onun kimi aşnalarım yoxdu".**

Bu sözləri eşidib şoka düşən meyxanaçı açıqlamasında qeyd edib:

**"Əxlaqsız onun özüdür. Yəqin öz adını deyib. Mənim adım Samirədir, əxlaqsız yox... Lalə mənim anam yaşındadır. 61 Lalənin yaşıdı, 65 yaş isə mənim anamın... Ayıb olsun ona. O, dediyi sözləri sübuta yetirsin. Mən tərbiyəli ailədən çıxmışam. O haradan çıxıb, deyə bilmərəm. Mənim 6-7 banka borcum var. Aşnalarım olsaydı, banklara borclu olmazdım. 1997-ci ildə ərim ölüb, vəssalam. 2 yetim böyüdürəm. Mənim çoxsaylı aşnalarım yoxdu".**

### Qonaqlardan biri o birinə görə öz başına döyüb

Bir zamanların ən qalmaqallı müğənnilərindən olan Maral Tahirqızı da çox canlı yayımları "ağlar" qoyub. Həmkarları ilə "Günaydın" verilişinin qonağı olan Maralla birgə studiyaya gələnlərdən biri də müğənni Əli Miriyev olub. Tənqidlərindən geri qalmayan müğənni, Maral Tahirqızının oxumağına dözə bilməyib, canlı yayımda başına-başına döyməyə başlayıb.

❑ **Hazırladı Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 149 (6177) 10 iyul 2015

**Ötən saylarımızdan birində "Parabank"dakı intihar və həbslə bağlı sensasion məktub" sərlövhəli yazı dərc etmişdik. Sumqayıt sakini Vəzihə Cəbrayılovanın məktubuna əsasən hazırlanan yazıda "Parabank"da "Kia Motors Az" MMC-nin hesabatlarda yer almayan vəsaitlərinin saxlanıldığı haqda xəbərlər yer alırdı. Məktub müəllifi prezidentə müraciətlə bildirirdi ki, nəvəsi Ülvi Kazımov 2010-cu ilin sentyabrından 2012-ci ilin oktyabrınadək "Parabank" ASC-nin "Nəsimi" filialında xəzinədar vəzifəsində işləyib.**

# "Parabank"dakı intihar və 40 milyon "qara pul" haqda yeni məlumatlar

## İddia: ""Nəsimi" filialına faktiki rəhbərlik edən Əşrəf Səfərov xoşu gəlməyən adamlarla özünün qoçu dəstəsi ilə haqq-hesab çəkməyi xoşlayır"

Filialda işə başladığı gündən filialın xəzinəsinin bunkerində banka məxsus qanuni pul vəsaitləri ilə yanaşı, "Kia Motors Az" MMC-yə məxsus bankın mühasibat uçotuna daxil edilməyən, dövlətdən gizlədilmiş 35-40 milyon manat gizli yolla saxlanılıb. V.Cəbrayılova gizli pul saxlanılmasında MMC-nin faktiki rəhbəri Səxavət Səfərovun olduğunu, onun etibarlı şəxsi Fərhad Abbasovun həmin məbləğin 1 milyon manata yaxınını gizli yolla götürərək xərclədiyini iddia edirdi. Qeyd edirdi ki, məsələnin üstü açılandan sonra F.Abbasov intihar edib və onun əvəzinə nəvəsini həbs ediblər. "Kia Motors Az" bu məlumatları təkzib edən rəsmi açıqlama yaysa da, məsələ səngiməyib. Aznews.az saytı yazır ki, "Kia Motors Az" dövlətdən 40 milyona yaxın pul gizlədib və pullar "Parabank"ın "Nəsimi" filialında qeyri-qanuni şəkildə saxlanılıb.

"Bir neçə il davam edən bu proses pulun 1 milyona yaxın hissəsinin yoxa çıxmasından və "Kia Motors AZ" MMC-nin rəhbəri Səxavət Səfərovun "Parabank"da həmin pullara nəzarət edən etibarlı adamı - Fərhad Abbasovun 2012-ci ilin yayında müəmmalı şəkildə ölümündən sonra ifşa olunub. Fərhad Abbasovun ölümü ilə bağlı Binəqədi rayonunda 2012-ci ildə başladılan və sonradan bağlanan cinayət işi olub. Hazırda Bakı Şəhər Prokurorluğunun müstəntiqi Emin Nəsibov tərəfindən yenidən araşdırılan bu cinayət işinin materiallarında bir çox məqamlar ortaya çıxıb. İlk növbədə Fərhad Abbasovun guya özünə 8 bıçaq zərbəsi vurması versiyasının kifayət qədər şübhəli olduğu, çox güman ki, onun özünə qəsd etmədiyi, kim və ya kimlərsə tərəfindən qətlə yetirildiyi məsələsi gündəmə gəlib. Elə kifayət qədər əsaslı şübhələr olduğundandır ki, 2012-ci ildə xitam verilən iş Bakı Şəhər Prokurorluğu tərəfindən yenidən araşdırılmağa başlanıb. Və elə iş materiallarına baxış zamanı çox ciddi şübhəli məqamlar ortaya çıxıb. Müstəntiqin diqqətini çəkən əsas məsələlərdən biri Fərhad Abbasovun özünə 8 bıçaq vurmasıdır. Təcrübəyə əsasən, intihar edən şəxs özünə 3 bıçaq zərbəsindən artıq vura bilmir. Bu isə özünə 8 bıçaq zərbəsi vurub(?) Eyni zamanda müstəntiq ekspert rəyinə baxarkən daha bir maraqlı məqamda "ilişib". Məlum olub ki, bıçağın birincisi mərhumun köynəyinin üstündən, digərləri isə köynək yuxarı qaldırıldıqdan sonra vurulub. Bu "səliqəli" hərəkət, əlbəttə, intihar edən adamın öz "əli işi" ola bilməz. Maraqlıdır ki, bu və onlarla belə şübhəli məqamlar Binəqədi Prokurorluğunun diqqətini çəkməyib, tez-bazar işi xətm ediblər..." deyə, saytın yazısında qeyd olunur.



**Sayt ölüm işi ilə bağlı şahid ifadələrinə istinadən yazır ki, olay daha çox qətlə bənzəyib:** "Məsələ ilə bağlı dindirilən şahidlərin ifadələri isə Fərhad Abbasovun öldürülməsi şübhəsini qətiləşdirir. Belə ki, bankda yoxa çıxan 1 milyona yaxın pula görə həbsə alınan "Parabank"ın "Nəsimi" filialının xəzinədarı olmuş Ülvi Elçin oğlu Kazımovun məsələ ilə bağlı ifadəsi maraqlıdır. O bildirir ki, Fərhad Abbasov ölümündən əvvəl Səxavət Səfərovun onu hədələdiyini, öldürəcəyini deyirmiş.

Eyni zamanda S.Səfərovun oğlu Əşrəf Səfərov tərəfindən təhdidlərə məruz qaldığını bildirirmiş. Ülvinin ifadəsinə görə, mərhum hadisədən bir neçə gün əvvəl S.Səfərov tərəfindən harasa çağırılıb və ona son dəfə xəbərdarlıq edildiyini bildirib. Bundan başqa, məlum olub ki, S.Səfərovun oğlu Əşrəf Səfərov 10 yaxın idmançı görkəmli şəxslə onu "söhbətə" çağırıb və döyüblər. Yeri gəlmişkən, "Parabank"ın "Nəsimi" filialına faktiki rəhbərlik edən Ə.Səfərov kriminala yaxın şəxs hesab edilir. O, xoşu gəlməyən adamlarla özünün qoçu dəstəsi ilə haqq-hesab çəkməyi xoşlayır.

Bu fikirlər hazırda həbsdə olan Ülvinin anası Maya Kazımovanın prezident İlham Əliyevə və ölkənin birinci xanımına ünvanlandığı məktubda da yer alır. Müraciətdə bildirilir ki, o, qoçu dəstəsinə böyük oğlu Ehtiram Kazımovu döydürüb və ümumi dəyəri 130 min manat olan əmlaklarını *(Xırdalanda iki otaqlı mənzil, avtomobil və.s.)* əllərindən aldırıb. Bu faktların aşkarlanmasının ilə kimlərin cəzalanacağı bəlli olmasa da, "Parabank"ın "Nəsimi" filialında "Kia Motors AZ" MMC-nin müştərək fırıldağı ilə dövlətdən gizlədilən pulun təftişinə artıq başlanılıb. Məsələ ictimailəşəndən sonra hər iki qurumda Vergilər Nazirliyi böyük yoxlamalara başlayıb və doğrudan da milyonlarla vəsaitin vergidən yayındırılması, daxil olmalarla bağlı sənədlərin saxtlaşdırılması və başqa cinayət əməlləri aşkarlanıb".

**Sayt "KİA"dan verilən təkzibdə şübhəli, sual doğuran məqamlara diqqət çəkərək yazır:** ""KİA" və "Parabank" informasiyaları təkzib eləməyə çalışır. Qurumlardan mətbuata göndərilən məktublarda bildirilir ki, "KİA"-nın "Parabank"da 40 milyon manat deyil, 2 milyon 140 min manatı olub və bankın saxlanc anbarında bu pulun 689 min 132 manatı əskik gəlib.

**1.** Oğurlanan 689 min manat 2 milyonun təxminən üçdə bir hissəsidir. Necə ola bilər ki, qoyulan pulların üçdə biri yoxa çıxsın və uzun müddət bundan heç kimin xəbəri olmasın? Həbsə salınan Ülvi Kazımovun ifadələrindən görünür ki, banka qoyulan 40 milyon pullar adi qutulara yığılıbmış və uzun müddət sayılmayıb. 40 milyon civarında pulun 689 min manatı oğurlananda gözə görünməyə bilər. Amma əmanətin doğrudan da üçdə biri yoxdursa, yəqin o, dərhal diqqət çəkərdi. Görünür, "KİA"-nın açıqladığı 2 milyon bankda rəsmiləşdirdiyi puldur.

**2.** Amma bir məqam da var ki, vergi yoxlamaları zamanı məlum olub ki, bankın "Nəsimi" filialı 200 mindən artıq pul saxlaya və ya dövriyyəyə buraxa bilməz. Yəni bankda hətta 2 milyon 140 min manatın saxlanılması da qanunsuzdur. Bunun üçün bank filialında nə bunker, nə də inkassasiya maşını var.

Elə isə bank bu milyonları necə saxlayıb? Təkcə bu faktın özü deyir ki, bank filialının rəhbəri istəsə belə həmin pulları rəsmiləşdirə bilməz.

Amma nəzərə alsaq ki, filiala oğul Səfərov rəhbərlik edir, onda ata Səfərovun pullarının necə yerləşdirilməsi, onun dövlətdən necə gizlədilməsi və qeyri-qanuni yolla dövriyyəyə buraxılması kimi halların necə baş verməsi o qədər də təəccüblü deyil.

Təəccüblü olanı isə bu milyonların dövriyyəsi, Mərkəzi Bankın, Vergilər Nazirliyinin və digər qurumların gözündən necə yayınmasıdır..."

**Qarşı tərəfin də mövqeyini dinləməyə hazırıq.**

**❑ E.HÜSEYNOV**

# "Orada üsyan dalğası yetişir"

## Əvəz Zeynallı "Sədərək"də gördüklərindən və eşitdiklərindən dəhşətə gəlib




**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının sosial şəbəkələrdə "Sədərək" ticarət mərkəzi ilə bağlı paylaşdığı status geniş müzakirələrə yol açıb. Baş redaktorun statusunda "Sədərək"də baş verən qanunsuzluqlar, icarə haqqının bahalığı, ticarətçilərin dözülməz şəraiti haqda söz açılır.**

Ə.Zeynallı "Sədərək"də insan ləyaqətinə hörmət edilmədiyini statusda diqqətə çatdırıb: "Son 2 gündür "Sədərək" cəhənnəmindəyəm. Burada insan ləyaqətinə hörmət deyilən şey yoxdur. Həbsxanalarda belə buradakı şəraitdən yaxşıdır vəziyyət. Bir az araşdırdım. Ən azı 10.000 obyekt var. 500 manatdan 1500-2000 manata qədər icarəhaqqı verirlər. Obyektlərin hər xərcini obyekt sahibləri çəkir. Danışmaq, soruşmaq istədim, başıma toplaşdılar. Dərd dolu idilər. Hətta Ekologiya və Təbii Sərvətlər Nazirliyi burada bazar yaradılmasına etiraz bildirib. Keçmiş SSRİ-nin ən radiasiyalı sahələrindən biri imiş buralar. Əcaib-qəraib tullantılar basdırıblar".

**"Xural"ın redaktoru "Sədərək" sahiblərini də tənqid atəşinə tutub:** "Burada 10 mindən çox iş yeri var. İcarə haqları çox baha, xidmət yox. Mən daha əziyyət çəkib icarəni hesablamadım. Yusiflə Kəbirənin pullarını saymaq mənəmi qalıb? Amma sovetdənqalma bir deyimi xatırladım, insanlar danışdıqca. Tüfeyli kimi pul qazanmaq, zəhmətsiz gəlir buna deyirlər. Heç bir iş görmə, dövlətin torpağını hasarla, onu balaca-balaca hissələrə böl, camaata icarə ver və heç nə etmədən milyonlarla pul qapazla. Millət də qırılsın..."



Əvəz Zeynallı

**"Yeni Müsavat"a açıqlamasında Ə.Zeynallı iki gün ərzində "Sədərək"də gördüklərindən dəhşətə gəldiyini təsdiqlədi:** "Heç bir araşdırma məqsədim yox idi. Sadəcə, işim var idi. İnsanların vəziyyətini gördüm. Dəhşət məni bürüdü. Çox ağır vəziyyətdir. Qərara aldım ki, araşdırma aparım. Bircə sual verdim ki, burada nə qədər obyekt var? Dedilər ki, 10 min. İcarə haqqını soruşdum. 1500, 2000, hətta 3000 belə deyən oldu. Hətta öz yeri olub, gündə 30 manat belə verənlər var. İstidən nəfəs almaq mümkün deyil. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tikintiyə icazə verməyib. Gündə ora on minlərlə adam gəlir, işləyir. Bəs bu insanların taleyi? İnsanlar zərərli yerlərdə niyə işləməlidir? Dövlətin ərazisini hasarlayıb, yüksək məbləğdə kirayə verirlər. Bəs milyonlarla pul hara sovrulur? SSRİ dövründə zəhmətsiz pul qazananlar cinayət məsuliyyətinə cəlb olunurdular. Sadəcə, gördüklərimlə bağlı düşüncələrimi paylaşdım".

**Baş redaktor araşdırmaların davam edəcəyini söylədi:** "Dövlətin müəyyən qurumlarına sorğular göndərəcəm. İnsanları belə vəziyyətdə işlətmək gizli genosiddir. Bu millətə belə etmək olmaz. On minlərlə insan orada dövlətin heç bir köməyi olmadan həyat mücadiləsi verirlər. Bir-iki kəlmə söz soruşdum. Sanki insanlar himə bənd idilər. Belə hallarda bəzən insanlar qorxur. Amma onlar dərdlərini açıq söylədilər. Orada üsyan dalğası yetişir. İnsanların enerjisi sonda ciddi partlayışa səbəb ola bilər. Ən əsası odur ki, insanlar qorxmadan dərdlərini dilə gətirə bilirlər".

**Ə.Zeynallı araşdırmalarının ona təhlükə yaradacağından çəkinmədiyini dedi:** "Anadan doğulandan təhlükələr içərisindəyəm. Ömrümüz belə keçib. Azad mətbuatın sərhədləri daralıb. Araşdırmalarımdan vaz keçməyəcəyəm. Pul qazanırlar, öz işləridir. Amma insanlara diqqət etmək lazımdır. "Sədərək"də işləyənlər bu məmləkətin insanlarıdır. Onlar yazıqdır. Onların hesabına "Sədərək" rəhbəri pul qazanır. Hitlerin əsir düşərgələrində belə insanlara bu cür münasibət bəslənməyib. Hamı çalışır ki, bu millət qorxaq, iradəsiz olsun. İnsanların layiq olduğu şəraiti yaratmaq lazımdır. Həbsxanada olmuşam. Ləyaqətli cəza çəkmək hüququm uğrunda çarpışmışam. İnsanlar hər yerdə insan ləyaqətinə uyğun yaşamalıdırlar. "Sədərək" və "Binə"də insan ləyaqəti alçaldılır. Həbsxana oradan yaxşıdır. Bu millət bir gün haqqını tələb edəcək".

**❑ Cavanşir ABBASLI**




# Qüds günü - dostu-düşməni tanımaq, fitrətə qayıtmaq günü

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Ramazan ayının son cüməsinə uyğunlanmış, son cüməsində nəzərdə tutulmuş bir tarix var ki, sanki bu ayın mübarək fəlsəfəsini özündə əks etdirir. Bu tarix özlüyündə xüsusi nemət səciyyəsi daşıyır. Həmd olsun Allaha ki, Onun lütfü və inayəti ilə bizlərə bu tarixi dərk etmək tofiqatı verilib.**

Dinimizin ana xətlərindən biri İlahi dəyərlər müstəvisində dostluq və düşmənçilik, sevgi və nifrət mövzularıdır. Yəni mahiyyət etibarilə, insanın digər insanlarla münasibəti, məhəbbət, mehribançılıq, səmimilik kimi dəyərlərin tətbiqi - onların həqiqi durumu, o cümlədən zülm edib-etməməsi, haqq basıb-basmaması, iyrənc əməllərə aludə olub-olmaması ilə bağlıdır. Axı necə sevməmək olar əziz Allah Elçisini (s) və ümumiyyətlə, kamal daşıyıcılarını? Və necə sevmək olar eybəcərlik daşıyıcılarını? Allah-Təbarəkə və Təala bizləri də, cəmi insanları da dostunu-düşmənini tanıyanlardan qərar versin, inşallah!

**Bu gün - Qüds Günüdür.** Qüds günü dostu-düşməni tanımaq günüdür. Bu günü dərk etmək, fərqinə varmaq, həyatımızda yaşatmaq çox mühüm mövzudur. İslami kimliyi olan hər bir insana aid olan mövzudur. Qüds günü haqqında çox söz demək olar. Amma Qüds günü haqqında ən dolğun ibarə böyük İslam mütəfəkkirlərinin bəyan etdiyi tezisdir ki, Qüds günü - İslam günüdür. Bu sözdə hər şey əhatə olunub - misal üçün, deyilə bilərdi İslamın hansısa cəhəti, hansısa xüsusiyyəti. Deyilə bilərdi: Qüds günü - oyanışdır, dirçəlişdir. Qüds günü - təvəlla-təbərradır. Allaha dost olanlarla - dost, düşmən olanlarla - düşmən olmaq deməkdir. Bunlar hamısı deyilə bilərdi və mahiyyətcə düzgündür. Amma deyil: **"İslam günüdür".** Dəqiq, tam və hərtərəfli tərif verilib. Bu tərif açıqlayır Qüds günü nədir. İslam günü. Yəni İslam adına nə varsa, hansı cəhət, hansı xüsusiyyət varsa, burada mövcuddur. İslam adına hansı etiqadlılıq, hansı əqidəlilik varsa - burada mövcuddur. Bunların hamısı Qüds gününə daxildir.

**"Qüds günü - İslam günüdür"** sözündə bir artırma yoxdur, mübaliğə yoxdur. Ümumi xarakterli bir çatdırış deyil. Tam mənasında İslam günüdür.

Mübarək dinimiz olan İslam, nəzəri və əməli tərəflərdən ibarət olduğu kimi, Qüds günü də o cürdür. Dərkdən, etiqaddan, anlamaqdan ibarət nəzəri hissəsi var, əməli hissə isə bu fenomeni yaşatmaqdan ibarətdir.

## Üsulid-din günü

Bu mənada, biz bu gün İslam gününüdəyik. Bu gün - İslamın həm nəzəri, həm əməli tərəfinin yaşadılması günüdür. İslam günü olduğundan, Qüds günü - Tövhid günüdür, təkallahlığa etiqad günüdür. Bütpərəstlikdən, digər məxluqlara tapınmaqdan qurtulma günüdür. Hər yerə bağlantıdan qırılıb, "Lə iləhə illəllah"ı iqrar etmək günüdür. Maddi və qeyri-maddi bütlərə "yox!" deyib, bu bütləri dağıdıb, tək olan Allaha bəndə olmaq günüdür.



**Qüds günü** - nübuvvət günüdür. Həzrət Muhəmmədin (s) Allah Təalanın sonuncu rəsulu olmasına etiqad bəsləmək günüdür.

**Qüds günü** - imamət günüdür. Peyğəmbərimizin (s) 12 İlahi canişininin yolgöstərən olaraq qəbul edilməsi günüdür.

**Qüds günü** - ədl günüdür. İlahi ədalətə etiqad bəsləmək günüdür. Hər bir xeyrin Allahdan olmasına, hər bir şərin insanın mənfi əməlinin nəticəsi olmasına etiqad bəsləmək günüdür.

**Qüds günü** - məad günüdür. İnsanın Qiyamət günündə öz əməllərinə görə sorgu-suala çəkiləcəyinə, əməllərinin əvəzi olaraq, müvafiq surətdə savab və ya cəza almasına etiqad etmək günüdür.

## Füruid-din günü

**Qüds günü** - namaz günüdür. Çünki o namazın ki, Qüds günü rəngi yoxdur, həmin namaz öz yerində olmayacaq. Ən azı qəlbində hər bir insan bu günlə həmahəngliyi yaşatmalıdır.

**Qüds günü** - oruc günüdür. Əslində oruc nədir? Pəhrizə öyrədən bir ayindir. Edilməməlilərdən çəkinməni, edilməliləri yerinə yetirməyi təlqin edən, qəlbi tərbiyə edən bir ayindir. Qüds günü də insanların nələri etmək və nələrdən çəkinməklə bağlı daha geniş bəyan edildiyi bir gündür.

**Qüds günü** - zəkat günüdür, xüms günüdür. Qəlbin zəkatı, həmdərdliyin zəkatı günü. İnsaniyyətin zəkatı günüdür.

**Qüds günü** - cihaddır. Laqeydlikdən qurtulma cihadı. Bütləri sındırmaq cihadı. Mənəvi buxovlardan azad olma cihadı.

**Qüds günü** - həccdir. Qüds günü - təvəlla-təbərradır. Mövqeyini izhar etmək günüdür. Həccə gedənlər həcc işlərini yerinə yetirdikdən sonra "bəraəti-müşrikin" əməlini - dostları, düşmənləri bəlli etmək və bunu əqlani olaraq, şüurlu olaraq etmək əməlini yerinə yetirməsə, həccləri o qədər də keyfiyyətli olmaz. Yüksək standartlara cavab verməz. Və imanlı insanlar böyük şövq və intizarla həcdə həmin əməlin yerinə yetirilməsini gözləyirlər. Allah-Təalanın dini ilə beyətlərini təzələmək, zəlilliyə "yox!" demək fürsətini gözləyirlər. Məzlumların yanında olmaq fürsətini gözləyirlər. Hacılar həcdə təvaf edirlər, səy əməlini yerinə yetirirlər, digər vacibi ayinləri icra edirlər. Amma "bəraəti-müşrikin" əməli bunlara bir növ ruh verir, bu ayinlərdə olan simvolluğu dərin məna ilə təsbit edir. Yerinə yetirilən əməllərin mahiyyətinə, fəlsəfəsinə varmağa imkan yaradır. Şüurla, agahlıqla edilməsinə rövnəq verir. Bu mənada görürük ki, imanlı insan həcc əməllərini tam kamilləşdirmək üçün "bəraəti-müşrikin" əməlini intizarla gözləyir və böyük şövqlə yerinə yetirir.

Mübarək Ramazan ayı da belədir. Ay boyu insan günün müəyyən hissəsini ac qalır, susuz qalır, digər işlərdən çəkinir. Bunlar insanda bir mənəvi hal yaradır. Bütün yaşayış vəziyyətində tək maddi deyil, qeyri-maddi məsələlərdə edilməliləri edir və edilməməliləri etmir. Və bu ayın sonuncu cüməsində "Qüds günü"nü qeyd edir. Bu, mübarək İlahi ziyafətin xüsusi rəngidir, çalarıdır. Xüsusən də, əhyalardan sonra olması da bu ruhi yüksəlişi bir növ yeni tərkiblə zənginləşdirir.

**Qüds günü** - əmr-be-məruf və nəhy-əz-münkər günüdür - yaxşılıqlara dəvətin və pisliklərdən çəkindirmənin günüdür. Əslində, əmr-be-məruf və nəhy-əz-münkərin zirvəsidir. Ən bariz formalarındandır.

## Rəmz günü

**Qüds günü** - hər bir müsəlmanın, islami kimliyə malik olan kəsin günü deməkdir.

**Qüds günü** - hər bir İlahi aşiqin sevgi dolu intizarda olması deməkdir.

**Qüds günü** - Qarabağ, Kəşmir, Suriya, İraq, Əfqanıstan və digər islami yaraların dərdinin fərqinə varmaq deməkdir.

**Qüds günü** yalnız bir coğrafi anlama aid deyil. Qüds günü - Vətən günüdür. Darül-İslam günüdür.

**Qüds günü** - bütün işğal olunmuş torpaqların bir rəmzidir.

Hər şey öz yerinə qayıdacaq. Bir gün Qüds də müsəlmanlara qayıdacaq. Bir gün Qarabağ da müsəlmanlara qayıdacaq. Bu, birmənalıdır. Nə vaxt qayıdacaq? Bu, bizlərdən asılıdır. Bizlərmi şərəflənəcəyik bu yolda, bizdən sonrakılarmı? Biz gərək üzərimizə düşən vəzifələri yerinə yetirək. Ağılla, dərrakə ilə, düşüncə ilə, Allaha bəndəliyə yönəlik nəzərlərlə. Xüsusən də bugünümüzdə. Qarabağla bağlı əksər insanlar pessimist ovqatda olanda, ruh yüksəkliyi ilə, inamla gələcəyə baxıb, vəzifəni icra etmək çox mühümdür.

Ən ağrıdıcı sual budur ki, bəs necə oldu Qüds işğal olundu, Qarabağ işğal olundu, digər torpaqlar işğala məruz qaldı? Necə oldu ki, bu zəlillik baş verdi? Nədən vəhdətdən uzaq, kamillikdən, üstün dəyərlər daşıyıcılığından, bəşəriyyətə bir cəm olaraq ən üstün nümunə olmaq durumundan uzaq düşmüşük? Fərdlərlə işimiz yox, müsəlman ümmətinin içərisində elə dühalar var, elə böyük şəxsiyyətlər olub və var ki, misli tapılmaz. Amma ümumilikdə camiənin durumu nədən bu gün belə acıdır? Axı Allahın bəşəriyyətə hidayət üçün göndərdiyi Müqəddəs Kitabda, "Ali-İmran" surəsinin 110-cu ayəsində Rəbbimiz bildirir: **"Siz (müsəlmanlar), (Allah tərəfindən dünyanın) insanlara zahir olmuş ən yaxşı ümmətisiniz, bəyənilən işə əmr edir (dəvət edir) və çirkin işdən çəkindirirsiniz. Və Allaha (nazil etdiyi şeylərdə) iman gətirirsiniz".**

Nələri unutdu, nələrə riayət etmədi ümmət ki, Rəbbi tərəfindən müəyyən edilmiş bu cür yüksək standartlara yiyə dura bilmədi? Nəyə çox qısa müddətdə dünyanın böyük hissəsini öz mənəviyyat nuru ilə işıqlandırmış böyük bir ümmət bu duruma düşdü? Özü də bəzi təxribatçıların bildirdiyi və bəzi cahillərin təkrar etdiyi kimi "qılınc gücünə" yox, məhz zatında olan böyük göndərişləri, insan şəxsiyyət və ləyaqətinə verdiyi qiyməti, dəryalar tək elmi, bərabərlik, ədalət, hüquqların toxunulmazlığı kimi yenilməz nurani həqiqətlər hesabına yayılmışdır İslam! Yüz illər keçməsinə, qanlı-qadalı olayların cərəyan etməsinə baxmayaraq, Peyğəmbərimizin (s) göstərdiyi yolla yayılan İslamın yolunda olan insanlar əqidəsindən nəinki dönmür, hətta inanc əhlinin sayı günü-gündən artmaqdadır. İslam torpaqları deyil, qəlbləri fəth edib, edir və edəcək.

## Ümmətlərin ən üstünü necə olmaq?

Yaxşı, bəs nədən milyonların qəlbini fəth edən bu mübarək təlimin bugünkü daşıyıcıları Həzrət Peyğəmbər (s) və Əhli-beytinə (ə) xas yüksək sifətləri özündə əks etdirmək durumundan bu qədər fasilə vermişlər? Əziz Rəbbimiz tərəfindən belə yüksək qiymətləndirilmiş bir ümmət nədən bu gün belə acınacaqlı duruma düşmüşdür?

Cavabı ayənin özündə görürük. Diqqət yetirsək, ayədə göstərilmiş çox yüksək məqama yetişməyin çox mübarək şərtləri göstərilir: yaxşılıqlara dəvət etmək və pisliklərdən çəkindirmək. Məhz kamilləşmə proqramının ümdə şərtlərini həyata keçirməyin bəhrəsi olaraq, bu gözəl əməllər sayəsində ən yüksək səviyyəyə yetişmək olar. Müsəlman ümməti o zaman ən üstün dərəcəyə yetişir ki, toplumun içərisində gözəl xüsusiyyətlərə dəvət var, çağırış var və pis, rəzil keyfiyyətlərin ifşası var, bunlardan çəkindirmək var. Laqeyd toplumlarda, insanların özlərini və ətrafdakıları islah etmək istəyi ilə tarazlanmamış toplumlarda yüksək standartlardan danışmaq gərək olmur.

Eyni zamanda bu əməlləri həyata keçirməyin bünövrəsi də göstərilir: Allaha iman gətirmək. Əməllərin hamısının yalnız o zaman mənası var ki, bunlar imanın yenilməz əsasındadır. Allaha bağlılıq olmayan yerdə vücudi islahat yoxdur. Belə islahat olmayan yerdə isə ən üstün ümmət olmaqdan söhbət gedə bilməz. Deməli, dinimiz tərəfindən təqdim edilmiş ümmətlərin ən üstünü olmaq qiymətinə yalnız o zaman yetişmək olar ki, burada Allaha qəlbən iman gətirilsin, bu imanın təzahürü olaraq dəyərlər yaşadılsın və bu dəyərlər ictimada təbliğ edilsin. Bununla yanaşı, cəmiyyətdə pisliklərin qarşısını almaq üçün işlək mexanizmlər, institusional əsaslar düzənlənsin. İctimai qınaq, ictimai etiraz kimi vasitələr hesabına cəmiyyətdə eybəcərliklərin, haqq pozmalarının yer almasına imkan verilməsin. Və çox əhəmiyyətlidir ki, bu proses dinamik və mütəmadi olsun, kampaniya xarakteri daşımasın.

Lakin mübarək dinimiz sadəcə yolu bəyan etməklə kifayətlənməyib. Bu yola gətirən əməli reseptləri yetərincə təqdim edib. Belə mübarək reseptlərdən birini Peyğəmbərimizdən (s) nəql edilən hədisdə görürük: **"Mənim ümmətimin ən yaxşıları - onların dünyaya daha etinasızları və axirətə daha çox can atanları, axirət arzusunda olanlarıdır".**

Dinimiz dünyaya az bağlılığı olan insanları ümmətin ən yaxşıları hesab edir. Burada dərin fəlsəfə açıqlanır: dünyanın müvəqqətiliyinin fərqinə varanlar, dünya həyatının sınaq xarakterli olmasını dərk edənlər həqiqi dəyərləri anlayanlardır. Rasional yanaşma ötəriyə etinasızlığı və əbədiyə diqqəti tələb edir. Kim edə bilər ki, imtahan məkanına dərin bağlanma nümayiş etdirsin? Ancaq durumunu, haradan gəldiyini, harada olduğunu, haraya getdiyini təhlil etməyən insan. Düşünən insan ötəri, müvəqqəti kateqoriyalardan yapışıb, həqiqətdə diqqət yetirməli olduğu işlərə səhlənkar yanaşmaz.

Qırmızı xətləri keçməyən, haramlara aludə olmayan, əsas hədəfi - insani missiyasını unutmayan şəxs, nicat tapacaq.

## Müsəlmanın xüsusiyyətləri

Həzrət Rəsulullahdan (s) nəql edilən digər bir hədisdə dinimiz nicata yetişməyin, xeyirdə olmağın universal metodologiyasını təqdim edir: **"Mənim ümmətim nə qədər ki, bir-birini sevir, əmanəti (sahibinə) qaytarır, haramdan çəkinir, qonağı əziz tutur, namaz qılır və zəkat verir - həmişə xeyir içində olacaq".**

Gördüyümüz kimi, ümmətin gözəl durumunun mövcudiyyatı bir neçə şərtdən keçir: burada insanlar arasında qarşılıqlı məhəbbətin, səmimiliyin olması, cəmiyyətdə etimad ab-havasının hakim kəsilməsi, qırmızı xətlərin gözlənilməsi, ünsiyyət və əlaqələrin yaşadılması, əliaçıqlıq və səxavət kimi keyfiyyətlərin qiymətləndirilməsi, kasıbların, ehtiyacılıların xeyrinə zəkat verilməsi və ən ümdəsi - bütün bunların, gündəlik ibadət kimi insanı Allaha bağlayan möhkəm bünövrənin üzərində bərqərar olunması - mübarək şərt olaraq göstərilir.

Və o zaman ki, İslam ümmətinin böyük hissəsi Allahı, imanı, həqiqi dəyəri, kamalı deyil, ötəri şeyləri öz məhəbbətinin hədəfi seçdi - əzəmətini itirmiş oldu. Həzrət Peyğəmbərdən (s) nəql edirlər: **"Mənim ümmətim dünyanı böyük bilən zaman Allah İslamın əzəmətini ondan alar!"**

## Bəs nədədir nicat? İnancına sahib çıxmalıdır ümmət!

12-ci İmamın (ə.f) qeybi dövründə yaşayırıq. Müsəlman anlamalıdır intizar fəlsəfəsini yaşamalıdır bu dəyərlərlə!

Peyğəmbərimizdən (s) nəql edirlər: **"Mənim ümmətimin ən üstün işi - fərəc intizarında olmaq və Allahdan onun baş verməsini istəməkdir".**

İntizar - dayanaqlıq, durğunluq, sükut deyil. İntizar - hərəkətdir, insanın bütün vücudu ilə haqqın bəyanıdır, insanın iradəvi, şüurlu surətdə haqqı diləməsidir.

Həzərt Rəsulullahdan (s) nəql edirlər: **"Məni haqq olaraq müjdəçi kimi göndərənə (Allaha) and olsun ki, o (12-ci İmam) qeybdə olanda onun İmam olması əqidəsində möhkəm duranlar qırmızı kükürddən də az tapılar".**

**Çox ayıldıcı bir xəbərdarlıqdır! Allah-Təala bütün iman əhlini həqiqi müntəzirlərdən qərar versin, inşallah!**

**Allah Təala tofiqat əta etsin ki, bu həqiqətlər insanlarımızın yaşam tərzində öz yerini tutsun. Tezliklə Qarabağ və Qüdsdə azan səsləri eşidilsin. Tezliklə millətimiz, ümmətimiz öz yüksək durumunu bərpa edə bilsin. Amin!**

# "Bakubus"da "təmizləmə", həbslər də gözlənilir...

## Həbsdəki sürücünün oğlu "Atletlər kəndi"ndəki qəza ilə bağlı "Yeni Müsavat"a yeni faktlar açıqladı

**I Avropa Oyunları başlamamışdan öncə "Atletlər kəndi"ndə baş vermiş xoşagəlməz olayın - avtobusun 3 atletin üzərindən keçməsi mətbuatın gündəmindən düşmür. İstintaqın ilkin nəticələri haqda məlumatların olmaması olay haqda ən müxtəlif versiyaların yayılmasına gətirib çıxarır.**

Azpolitika.info saytı özəl mənbələr vasitəsilə əldə etdiyi bilgilərə görə məlum qəza ilə bağlı "Bakubus" MMC-də "təmizləmələr" həyata keçirilib.

**Saytın yazdıqlarından sitat:** "Belə ki, "Bakubus" MMC-nin bir neçə vəzifəli şəxsi işdən çıxarılıb, bəziləri isə məsuliyyətə cəlb olunub. İstintaqın sonunda həbs edilənlərin olacağı gözlənilir. "Bakubus" MMC-yə rəhbərlik edən şəxs də işdən kənarlaşdırılıb. Yol-nəqliyyat hadisəsini törətdiyi üçün həbsə alınmış avtobusun sürücüsü Vəli Əhmədovla ("Kürd Vəli") bağlı da maraqlı məlumatlar əldə etmişik. Məlumata görə, "Bakubus" MMC-də işə götürülənlərin hər birinin şəxsi işi Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən yoxlanılıb. Ancaq buna baxmayaraq, əvvəllər həbsdə olan Vəli Əhmədov "Bakubus" MMC-də sürücü kimi işə qəbul edilib. Hazırda həbsdə olan Vəli Əhmədovun psixikasında problemlərin yarandığı da bizə verilən məlumatlar sırasındadır".

**V.Əhmədovun oğlu Orxan Əhmədov isə "Yeni Müsavat"a deyib ki, atasının əvvəllər həbsdə olması haqda məlumatlar doğru deyil:** "Psixoloji problemi olan insanı ora işə götürərlər? Hərə bir söz deyir. Biri deyir, "prava"sı yoxdur, amma ingilis dilini bilir deyə işə götürüblər". Mənim atamı tanıyanlar tanıyır. 25 ildir ki, sürücüdür, hamı da tanıyır, bilir ki, necə şoferdir, necə avtobus idarə edir. Bəlkə də onun kimi avtobusu idarə edən 5 sürücü yoxdur".

O.Əhmədov əminliklə bildirir ki, qəza təsadüf nəticəsində baş verib. İsrarla deyir ki, qəza ilə bağlı yayılan videoda qəzanın təsadüfən törədilməsini sübut edən detallar var.

Məlumat üçün deyək ki, qəza ilə bağlı yayılan 24 saniyəlik videodan görünür ki, avtobus beton əsaslı 2 yol nişanının üstünə çıxaraq yolun sağ zolağına tərəf dönmə manevri edir və orada hərəkətdə olan piyadaların bir neçəsinin üstündən keçməklə yoluna davam edir.

O.Əhmədov həmin videoda hansı məqamı nəzərdə tutduğunu dəqiqləşdirmir. Sadəcə, israr edir ki, videoya baxan hər kəs o qəzanın təsadüfən törədilməsini sübut edən detalları görə bilər.

"Mənim atam avtobusda tək olmayıb, orada nə baş verdiyini görənlər olub. Avtobusda nasazlıq olub. Əgər terror olsaydı, indi mən sizinlə danışmazdım" deyə, O.Əhmədov bildirib.

Yada salaq ki, baş vermiş olayla bağlı Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatda qeyd olunurdu ki, 2015-ci il iyun ayının 11-də, saat 8.30-da, I Avropa Oyunlarının "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviçə və Luna Pacerə bədən xəsarətləri yetirib. Adları çəkilən idmançılar dərhal xəstəxanaya yerləşdirilərək onlara bütün zəruri tibbi yardımlar göstərilib, sonradan isə müalicələrini davam etdirmələri üçün Azərbaycan hökuməti tərəfindən Vyana şəhərinə göndərilmələri təmin edilib. Fakt üzrə Cinayət Məcəlləsinin 263.1-1-ci maddəsi (ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) ilə cinayət işi başlanıb.

❑ **E.MƏMMƏDƏLİYEV**







## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Yuxusuzluq və yuxu pozuntuları**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
- **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
- **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
- Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**


# Şəhid atası iki məmura müraciət etdi

**Şəhid Rövşən Məmmədovun atası Zakir Məmmədov Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərova və baş prokuror Zakir Qaralova müraciət edərək onu qəbul edib dinləmələrini istəyir. "Yeni Müsavat"a müraciət edən şəhid atası bildirib ki, özü və ailəsi ədalətsik, şər və böhtanla üz-üzə qalıblar:**

"Başımıza gələn faciə dərdimizin üstünə dərd gətirib. Mətbuat vasitəsilə hadisəni Fuad Ələsgərovun, Zakir Qaralovun diqqətinə çatdırmaqda bir insan kimi əzab çəkirəm. Çünki bizim mənavi, əxlaqi dəyərlərimiz, milli mentalitetimiz var. Şəhid atası olaraq dövlətimizdən, ölkə başçısı İlham Əliyevdən hər zaman diqqət və qayğı görmüşəm. Yəqin ki, Fuad Ələsgərov və Zakir Qaralovda şəhid atasına diqqət ayıracaq. Ona görə Fuad Ələsgərovdan və Zakir Qaralovdan şəhid atası kimi xahiş edirəm məni təcili şəkildə qəbul etsinlər. Yoxsa bir şəhid ailəsi böyük faciə yaşaya bilər".

Qeyd edək ki, R.Məmmədov 1994-cü ildə Qarabağ uğrunda gedən döyüşlərdə Füzuli rayonu ərazisində şəhid olub.

❑ **E.HÜSEYNOV**

# Azərbaycanın axtardığı şəxs Rusiyada həbs edildi

**İjevsk şəhərində Rusiya Daxili İşlər Nazirliyinin Udmurt Respublikası üzrə mühafizə polisi əməkdaşları 44 yaşlı Azərbaycan vətəndaşını saxlayıblar. Bu barədə "Report" Rusiyanın Udmurt Respublikası üzrə Daxili İşlər Nazirliyi mətbuat xidmətinə istinadən məlumat verir.**

Məlumata əsasən, həmin şəxs 2015-ci ilin mayından AR Cinayət Məcəlləsinin 157-ci (mənzil toxunulmazlığını pozma) maddəsi ilə cinayət törətməkdə şübhəli bilinərək hüquq-mühafizə orqanları tərəfindən axtarışda olub.

Hazırda onun ekstradisiya olunması məsələsinə baxılır.

# İtkin düşən həkim qadının meyiti Xızıda yandırılmış halda tapıldı

**Xızı rayonunun ərazisində meyit tapılıb. Xızı Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, Bakı şəhər sakini, 1981-ci il təvəllüdlü Natəvan Əliyevanın yanmış cəsədi rayonun Yeni Yaşma qəsəbəsi ərazisində aşkar edilib.**

Meyitə ilkin baxış zamanı N. Əliyevanın qətlə yetirildiyi məlum olub.

Polisdən N. Əliyevanın bu il iyun ayının 25-dən 26-na keçən gecə paytaxtın Xətai rayonunda itkin düşməsi barədə ərizə daxil olduğu bildirilib.

Qeyd edək ki, N. Əliyeva paytaxtda fəaliyyət göstərən xəstəxanaların birində həkim işləyib, üç övladı var.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

# Ağdamda 17 yaşlı qız özünü asdı

**Ağdamda intihar hadisəsi qeydə alınıb. APA-nın xəbərinə görə, özünə qəsd edən şəxs rayonun işğal olunmuş Mərzili kəndindən olan məcburi köçkün, Ergi köçkün şəhərciyində məskunlaşmış 1998-ci il təvəllüdlü Şirinova Ətrabə Əsgər qızıdır.**

Qız özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri məlum deyil.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.

# Həkim xəstəxananın həyətindəki hovuzda boğuldu

**Göyçay Mərkəzi Rayon Xəstəxanasının (MRX) ərazisində meyit tapılıb. Göyçay şəhəri, Sabir küçəsi 16 saylı ünvanda yaşayan, 1961-ci il təvəllüdlü Mehman Arif oğlu Məmmədov iyulun 8-də gecə saatlarında xəstəxananın həyətindəki su hovuzuna düşərək köməksiz vəziyyətdə qalıb və boğularaq ölüb. APA-nın məlumatına görə, Göyçay MRX-də və Bioloji Təbabət Klinikasının Göyçay filialında həkim rentgenoloq işləyən Mehman Məmmədovun meyiti iyulun 9-da səhər saatlarında suda aşkar olunaraq çıxarılıb.**

Meyit Respublika Məhkəmə Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin Göyçay rayon şöbəsinə aparılıb. Suda boğulan həkimin üzərində ilkin yoxlama zamanı zorakılıq əlamətləri aşkar edilməyib. İki uşaq atası olan, 20 ildən çox Göyçay MRX-də həkim işləyən Mehman Məmmədovun ölümünün dəqiq səbəbi ekspertizanın rəyindən sonra məlum olacaq.

❑ **E.HÜSEYNOV**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
Son səhifə
N 149 (6177) 10 iyul 2015

# Küçük kimi aldı, ayı çıxdı...

Çinin Yunnan əyalətindəki bir kənddə yaşayan Vanq Kayuinin iki il əvvəl satın aldığı iki küçüyün əslində ayı olduğu üzə çıxıb. Çinin Vyetnamla sərhədində banan yetişdirməklə məşğul olan bir adamdan küçükləri satın alan Vanq heyvanlar böyüdükcə onların itə oxşamadığının fərqinə varıb. Küçüklərin çox sürətli şəkildə çəki almasını onların yaxşı qidalanması ilə əlaqələndirən Vanq hətta bundan xoşbəxt də olub. Amma "küçüklərin" bağçadakı toyuqları yeməyə başladıqlarını görəndə hər şeyin fərqinə varıb. Baytara apardığı heyvanların isə nəsli tükənməkdə olan bir ayı növünə aid olduğu üzə çıxıb. Baytar ona heyvanları yetkililərə aparmağı tövsiyə edib. Heyvanlar vəhşi heyvanları qoruma mərkəzinə verilib.






## Çox qəribə məsləyi var, amma ayda 6 min qazanır

Türkiyənin ağ ət və yumurta istehsalı mərkəzlərindən Balıkəsirin Bandırma bölgəsində 29 yaşındakı Okan Kavlakın peşəsi olduqca qəribədir. Yumurtadan çıxandan sonrakı 1 saatda cücələrin cinsiyyətini müəyyənləşdirən seksor adlandırılan peşəni icra edən Kavlak özü barədə bunları danışır: "Biz dünyada çox az kişiyik. Bir saat ərzində maksimum 800 ilə 1200 cücənin cinsiyyətini müəyyən edirik. Aylıq məvacibimiz isə orta hesabla 5-6 min manatdır".

Əsas peşəsi bank işçisi olan O.Kavlak hesab edir ki, hazırkı sektoru daha gəlirlidir. Onun sözlərinə görə, bu işi Türkiyədə 17-18, dünyada isə ən çox 200 nəfər icra edir. Cənubi Koreyada geniş yayılan bu peşənin təhsilini Hollandiyada alan O.Kavlak bildirib ki, bu sahənin mütəxəssisi olmaq şərtdir: "Cücənin cinsiyyətini dünyaya gəldiyi bir saat ərzində bilməsəniz, bir də pipiyi çıxıb xoruz olduğu məlum olana qədər, "böyüyəcək də, yumurtlayacaq" deyə, gözləyərsiniz. Orta hesabla bir cücənin cinsiyyətinin özlüyündən bəlli olması üçün 45 günlük olması lazımdır. Bu müddət ərzində pipiyi çıxdığı üçün onsuz da cinsiyyəti bəlli olur. Keçən bu zamandakı baxım xərcləri isə istehsalçı üçün ciddi maddi itki deməkdir.

# Atasız uşaqlar aqressiv olur

Kanadanın Mc Gil Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, atasız böyüyən uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan dava aqressiv olurlar. Mütəxəssislər atası olmayan uşaqlarla ata-anaları ilə birlikdə böyüyən uşaqların beyinlərini müqayisə ediblər. Araşdırmalar bitdikdən sonra məlum olub ki, atasız uşaqların beyinlərində sosial əlaqələri tənzimləyən hissədə pozuqluqlar əmələ gəlir. Yəni valideynlərindən uzaqda qalan uşaqlar davranışlarında anormallıq daha tez nəzərə çarpır. Belə uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan daha aqressiv olurlar. Mütəxəssislər atasız böyüyən qız uşaqlarının sinir sisteminin daha həssas olduğunu da bildiriblər. Belə uşaqlar böyüdükləri zaman çox aqressiv olurlar və ətrafdakılara zərər verməyə çalışırlar. Xüsusilə qız uşaqları spirtli içkilərə və narkotik maddələrə daha meylli olurlar.

Məlumat üçün bildirək ki, mütəxəssislər anasız böyüyən uşaqların heç vaxt özlərinə güvənmədiklərini və kökəlməyə meylli olduqlarını deyirlər.





## İnsan öləndən sonra şüuru itmir

Elm adamları ölümdən sonra da şüurun davam etdiyini kəşf ediblər. Bu qənaətə İngiltərə, Amerika və Avstraliya həkimləri 15 xəstəxanada apardıqları araşdırmadan sonra gəliblər. İnfarkt keçirən, kliniki olaraq ölən və yenidən geri qayıdan 2 min insan üzərində edilən tədqiqatdan sonra məlum olub ki, həmin insanların 40 %-nin beyni dayansa belə, şüuru itmir. İnfarkt keçirən 57 yaşlı bir ingilisin ürəyi 3 dəqiqəlik dayansa da, "o dünyadan" geri qayıtdıqdan sonra ətrafındakı həkimlərə nə gördüyünü danışmağa başlayıb. Bəzi xəstələr kinolarda təsəvvür edilən kimi, ağ parlaq işıq gördüyünü, bəziləri isə bir əlin onların boğazından bərk yapışaraq boğmağa çalışdığını söyləyiblər.

Bir qrup xəstələr isə qorxu, təəccüb və rahatlıq dolu bir hiss yaşadığını deyib. Qeyd edək ki, edilən araşdırmalardan sonra Amerikanın tanınmış alimlərindən Sam Parnia insan öldükdən sonra şüurunun itmədiyini söyləyib.




**QOÇ** - Narahatçılığınızı artıran məsələləri yoluna qoymaq üçün danışıqlara başlamağınız vacibdir. Həftə ərzində gözlənilən uğurlar üçün bunun böyük səmərəsi ola bilər. Təzə xəbər də gözlənilir.

**BUĞA** - Bir qədər darıxdırıcı gündür. Amma bədbinləşib tək-tənha bir küncdə oturmaq da yaramaz. Heç olmasa, ulduzların "hə" dediyi maliyyə məsələləri ilə məşğul olun. İnsanlardan xoflanmayın.

**ƏKİZLƏR** - Bu gün rahat keçməsə belə, ciddi xoşagəlməzlik də olmayacaq. Nahardan sonra sizi sürprizlər gözləyir. Gələcək fəaliyyətiniz də məhz bundan asılı olacaq. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Təkbaşına hansısa məsələyə müdaxilə etməyin. Əks təqdirdə, nəzərdə tutduğunuz ideyaları reallaşdıra bilməyəcəksiniz. Tərəfdaşlarınızın sayını artırın ki, qalib olasınız.

**ŞİR** - Astroloji göstəricilər böyük işlər görəcəyinizi, ağıllı risklər edəcəyinizi bəyan edir. Hətta maddi durumunuz imkan versə, uzaq yola da çıxa bilərsiniz. Qidanıza fikir verin.

**QIZ** - Hər mənada uğurlu gün yaşayacaqsınız. Şəxsi işlərinizdə, eləcə də qarşılıqlı münasibətlərdə vəziyyət xeyrinizə olacaq. Şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür.

**TƏRƏZİ** - Daxilən sıxıntılı ərəfə yaşayacaqsınız. Düzdür, ovqatınızı korlayan nəsnələr olmayacaq, lakin səbəbsiz nigarançılıqdan da uzaqlaşa bilməyəcəksiniz. Bu gün varlana da bilərsiniz.

**ƏQRƏB** - İyulun bu isti günündə emosional çıxışlara ara verməli, yalnız konkret işlərlə məşğul olmalısınız. Günün ikinci yarısını dost-tanışla, doğmalarınızla gəzinti və əyləncəyə həsr edin.

**OXATAN** - Saat 14-ə qədər qeyri-ənənəvi işlərlə məşğul olmayın, xüsusən də nahar ərəfəsində. Sonrakı müddətdə isə işgüzar aktivliyinizi artırmalısınız. Bəxtinizdə pul da var.

**OĞLAQ** - Cərəyan edən hadisələr çıxardığınız qərarlardan asılı olacaq. Odur ki, əvvəl götür-qoy edin. Bu arada etibar etdiyiniz adamlardan kimsə sizə yalan sata bilər. Səfər də uğurludur.

**SUTÖKƏN** - Ciddi götür-qoy etməsəniz, həlledici məqamlarda yanıla bilərsiniz. Yersiz risklərə meylinizi azaldın. Sizə vəd verənləri mələk hesab etməyin. Sadəlövhlük insana zərər yetirir.

**BALIQLAR** - Daxili narahatçılığınız tədricən aradan qalxacaq. Sevdiyiniz adamlarla bir yerdə olmağınız nikbinliyinizi artıracaq. Bu arada kobud rəftardan və şit zarafatlardan uzaq durmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ölmüş oğlundan 26 il sonra məktub aldı



Amerikalı ata Atalar Günündən dərhal sonra, 1995-ci ildə itirdiyi oğlundan bir məktub alıb. Zərfi açan kimi acı həqiqəti öyrənən ata tez-tez səyahət etdiyi üçün məktubun 26 il boyunca ona çatmadığını anlayıb. Amerikanın Virciniya ştatında yaşayan 87 yaşlı Duane Şrok Atalar Günündən dərhal sonra bir atanın ala biləcəyi ən yaxşı hədiyyə ilə qarşılaşıb. Ölmüş oğlundan gələn məktubu oxuduğu zaman isə acı gerçək üzə çıxıb. Məlum olub ki, bu, QİÇS xəstəliyindən dünyasını dəyişən oğlunun 26 il əvvəl yazdığı, amma indi ünvanına çatan məktubudur. Məktubu alan ata göz yaşlarını saxlaya bilməyib. Məktubda isə aşağıdakılar yer alıb: "Uzun müddətdir danışa bilmirik. Riçmondda çox xoşbəxtəm. Səndən gələcək xəbəri gözləyirəm. Sevgilər..."

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300